

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*



AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

18 APREL 2024-cü il | CÜMƏ AXŞAMI | № 77 (7835) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ




## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri.**

**Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Filippin hökuməti və xalqı adından Sizə ən səmimi təbriklərimi çatdırıram.**

**Sülhün və sabitliyin qorunub saxlanılması, Azərbaycan dövləti və xalqı üçün daha çox inkişafa, rifaha nail olunması kimi vacib missiyanızda Sizə uğurlar arzulayıram.**

**Xalqlarımızın mənafeyi naminə qarşılıqlı maraq doğuran sahələrdə birgə çalışaraq Filippin ilə Azərbaycan arasında daha sıx ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə sadiqliyimi bir daha təsdiq edirəm.**

**Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.**

***Hörmətlə,***

**Ferdinand Markos**
**Filippin Respublikasının Prezidenti**

# Böyük infrastruktur yenidən qurulur



*Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən infrastruktur layihələri icra edilir. Su anbarlarının, kanalların tikintisi infrastruktur layihələr arasında həmişə prioritet olub. Azərbaycanın müstəqilliyinin ilk illərində meliorasiya və irriqasiya sistemi bərbad vəziyyətə düşmüşdü. Meliorasiya və su təsərrüfatının respublikamızın iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının inkişafında mühüm rol oynadığına böyük önəm verən ulu öndər Heydər Əliyev bu sahənin inkişafına əsaslı vəsait qoyulmasını başlıca vəzifə kimi müəyyənləşdirmiş, ilk xarici sərmayəni bu istiqamətə yönəltməklə onun beynəlxalq standartlar səviyyəsində yenidən qurulmasına zəmin yaratmışdır.*

***Növbəti illərdə ölkəmizin qarşısında duran başlıca vəzifə içməli su və suvarma layihələrinin reallaşdırılmasıdır***

Münbit iqlim şəraitinə malik respublikamızda kənd təsərrüfatı məhsulları əsasən suvarılan torpaqlarda istehsal edildiyindən onun daimi kollektor-drenaj şəbəkələri ilə təchiz edilməsi tələb olunur. Müasir meliorasiya və irriqasiya sisteminin təməlinin hələ keçən əsrin əvvəllərində qoyulmasına baxmayaraq, onun əsas inkişafı ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrə təsadüf edir. Ulu Öndərin şəxsi təşəbbüsü ilə bu sahədə böyük quruculuq işləri aparılmış, güclü istehsal bazası, tikinti və istismar təşkilatları, elmi-tədqiqat və layihə institutlarına malik ixtisaslaşmış meliorasiya və su təsərrüfatı kompleksi, geniş və tutarlı meliorasiya potensialı yaradılmışdır. 1996-cı ildə imzalanmış "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanunu bu işi daha da stimullaşdırdı. Bu sahəyə diqqət və qayğı əhəmiyyətli dərəcədə artırıldı. Aqrar sahədə aparılan islahatlarla paralel meliorasiya və su təsərrüfatında da məqsədyönlü tədbirlər həyata keçirildi.

Ölkəmizdə bu sahəyə diqqət və qayğı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bir çox irimiqyaslı layihələr reallaşdırılır. Əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. Meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, tələb olunan həcmlərdə təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və onların meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizənin davam etdirilməsi istiqamətində müvafiq tədbirlər görülür. Hazırda əksər şəhərlərimizdə içməli su və kanalizasiya layihələri icra olunur. Ölkə başçısının söylədiyi kimi: *"Bu layihələrin icrası nəticəsində ölkəmiz sürətlə inkişaf edib. Əgər biz bu layihələri icra etməsəydik, bu gün ölkəmizin dayanıqlı inkişafı mümkün ola bilməzdi".* Bu baxımdan, xüsusən kənd təsərrüfatının dayanıqlı inkişafı su təminatı ilə bilavasitə bağlıdır. Fermer təsərrüfatlarında, taxılçılıqda məhsuldarlıq hər hektardan 50, 60, hətta 70 sentnerə çatır. Bu, Avropanın aparıcı ölkələrinin səviyyəsinə uyğundur. Aydın məsələdir ki, suvarma olmadan hər hansı məhsuldarlıqdan söhbət gedə bilməz.

**(davamı 3-cü səhifədə)**

## Prezident İlham Əliyev Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbayı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Kayrat Sarıbay Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə sədrliyin ölkəmizə keçməsi münasibətilə təbriklərini çatdıraraq, çoxtərəfli diplomatiyada fəal rol oynayan Azərbaycanın bu sahədə zəngin təcrübəsinin olduğunu vurğuladı. O, bu xüsusda ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi seçilməsini və fəaliyyətini, Qoşulmama Hərəkatında uğurlu sədrliyini, həmçinin digər beynəlxalq təşkilatlar çərçivəsində fəal rolunu qeyd etdi.

**(davamı 2-ci səhifədə)**

## Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü il noyabrın 10-da Türkiyə Respublikasının İstanbul şəhərində keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumu İcraiyyə Şurasının 11-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri yekdilliklə İslam Əməkdaşlıq Təşkilatının "Gənclər Paytaxtı 2024" Beynəlxalq Proqramına 10-cu ev sahibi seçilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı fəaliyyət planı hazırlayıb həyata keçirsin;

*1.2.* bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 aprel 2024-cü il.**





## Fransa Cənubi Qafqazda epizodik mövqeyini də itirir

**Fransanın 25-ci prezidenti Emmanuel Makronun dövründə Yelisey sarayı tərəfindən ölkəmizə qarşı aqressiv ritorika daha da artıb.**

İkinci Qarabağ müharibəsindən sonra bu ölkənin erməni sevgisi daha aydın ortaya çıxıb. Fransa parlamentinin keçmiş qondarma rejimi tanıması, BMT-də Azərbaycana qarşı qətnamələr qəbul etdirmək cəhdləri, Avropa İttifaqında ölkəmizlə bağlı qarayaxma kampaniyasının aparılması, AŞPA-da Azərbaycan əleyhinə qətnamələrin qəbulunda aktiv iştirak etməsi, həmçinin Laçın yolunda "blokada şousu", Ermənistanı silahlandıraraq revanşa sürükləmək və agent şəbəkəsi vasitəsilə ölkəmizin daxilinə sızmaq cəhdləri onun əsl xislətindən xəbər verir. Ötən gün isə Yelisey sarayı rəsmən Azərbaycanla olan mədəni körpüləri yandırmaq qərarına gəlib. Belə ki, Fransanın Azərbaycandakı səfirini geri çağırması selektiv yanaşmanın və ikili standartların bu ölkədə daha da güclənməsi anlamına gəlir.

**(davamı 8-ci səhifədə)**

## İnfantil Makron diplomatik nümayəndəliyi oyuncağa çevirib

**44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın uğurlarını həzm edə bilməyən qüvvələr aktiv kampaniyalar aparmağa başlayıblar. Kollektiv Qərb rəsmi Bakını əsassız şəkildə günahlandırıb, erməniləri hər mövzuda haqlı çıxara bilmək üçün ikili standartlar tətbiq edib.**

Bu mövzuda yuyulmamış qaşıq kimi ortadan çıxmayan Fransa olub. Rəsmi Paris Ermənistana sonsuz dəstək verdiyi halda ölkəmizə qarşı ədalətsiz yanaşma sərgiləyir. Bu ölkənin BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqı, Frankofoniya kimi təşkilatlarda və digər beynəlxalq platformalarda dəfələrlə Azərbaycan əleyhinə layihələrin təşəbbüskarı olması Fransanın bitərəf vasitəçi iddialarının tamamilə əsassız olduğunu sübut edib.

**(davamı 7-ci səhifədə)**



## İranın Ermənistanla "kölgə əlaqəsi"

**Son illərdə Ermənistanın Qərbə yaxınlaşması ilə regionun sülh və sabitliyi təhlükə altına düşüb. Avropa İttifaqı, NATO xəyalları ilə havadarlarının ardınca səssizcə addımlayan rəsmi İrəvan öz dəstəsinə yeni üzvlər də qatmağa başlayıb.**





Müxtəlif təkliflərlə Ermənistanı şirnikləndirənlərin sayı günü-gündən artır. Görünür, cənub qonşumuz da Avropaya açılıb, iqtisadi "sıçrayış" yaşamaq istəyir. İranın Ermənistandakı səfiri Mehdi Sobhani mətbuat konfransında bildirib ki, Ermənistan İran üçün şimal marşrutlarına və Qara dənizə açılan qapıdır.

**(davamı 7-ci səhifədə)**

➡ səh. 2



**ƏNƏNƏLƏRİN VƏ YENİLİKÇİLİYİN VƏHDƏTİ: AZƏRBAYCAN-BELARUS MÜNASİBƏTLƏRİ MƏDƏNİ ƏLAQƏLƏR VASİTƏSİLƏ GENİŞLƏNİR**

➡ səh. 8

**Rusiya sülhməramlılarının ərazilərimizdən vaxtından əvvəl çıxarılması qarşılıqlı razılığa əsaslanır**



➡ səh. 6



**Qarabağ və Şərqi Zəngəzur: quruculuğun üfüqləri**



# ƏNƏNƏLƏRİN VƏ YENİLİKÇİLİYİN VƏHDƏTİ: AZƏRBAYCAN-BELARUS MÜNASİBƏTLƏRİ MƏDƏNİ ƏLAQƏLƏR VASİTƏSİLƏ GENİŞLƏNİR

## Bu ölkənin Bakıda keçirilmiş Mədəniyyət Günləri daha dərin əməkdaşlıq üçün yeni üfüqlər açdı

*Azərbaycanla Belarus arasında münasibətlər dərin tarixi köklərə malikdir və hər iki ölkə müstəqilliyi əldə etməsi ilə yeni inkişaf mərhələsinə qədəm qoydu. 1993-cü ildə xalqın təkidli xahişi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin siyasi müdrikliyi və uzaqgörənliyi sayəsində möhkəm ikitərəfli münasibətlər quruldu. Heydər Əliyev beynəlxalq münasibətlərin, o cümlədən Belarusla strateji tərəfdaşlığın inkişafına böyük diqqətlə yanaşırdı. Dahi lider postsovet məkanında qloballaşma şəraitində və dəyişən geosiyasi landşaftda ölkələr arasında qarşılıqlı faydalı əlaqələrin sabitliyin və rifahın təmin edilməsinin açarı olacağını yaxşı bilirdi.*

Belarusla ikitərəfli münasibətlərin qurulması istiqamətində Heydər Əliyevin siyasi strategiyası iqtisadiyyat, siyasət, mədəniyyət və təhsil sahələrində əməkdaşlığın genişləndirilməsini nəzərdə tuturdu. Bu səylər Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilmişdir. Ölkələr arasında strateji tərəfdaşlıq, dövlət başçıları səviyyəsində nümayiş etdirilən qarşılıqlı hörmət və etimad Heydər Əliyev siyasətinin uğurlu davamının parlaq nümunəsidir.

Bu gün ölkə prezidentləri İlham Əliyev və Aleksandr Lukaşenkonun səyləri sayəsində Azərbaycan ilə Belarus arasında münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəlib və qarşılıqlı fəaliyyətin geniş spektrini əhatə edir. Qarşılıqlı hörmət və anlaşma prinsipləri əsasında qurulan əlaqələr həm ikitərəfli, həm də daha geniş regional və beynəlxalq gündəlik kontekstində öz bəhrəsini verməkdədir.

Azərbaycan ilə Belarus arasında mədəni mübadilələr ikitərəfli münasibətlərin möhkəmləndirilməsində əsas rol oynayır və əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə, xalqlar arasında dostluq bağlarının möhkəmləndirilməsinə kömək edir.

1993-cü ildə Azərbaycan ilə Belarus arasında diplomatik əlaqələrin qurulmasından bəri mədəni mübadilə ikitərəfli əməkdaşlığın prioritet sahələrindən biri olmuşdur. Rəssamların, musiqiçilərin, yazıçıların və teatr kollektivlərinin nümayəndə heyətlərinin səfərləri gözəl ənənəyə çevrilmişdir.

Aprelin əvvəlində Bakıda keçirilmiş Belarus Mədəniyyət Günləri mədəni mübadilənin parlaq nümunəsi olaraq, Belarus mədəniyyətinin zənginliyini nümayiş etdirməklə yanaşı, həm də Azərbaycan xalqının qonaqpərvərliyini göstərmişdir. Belə tədbirlərin təşkili hər iki ölkənin mədəni əlaqələri inkişaf etdirmək və dərinləşdirmək istəyinin təzahürüdür ki, bu da öz növbəsində, xalqlar arasında ümumi anlaşmanı və dostluğu möhkəmləndirməyə xidmət edir.

Mədəniyyət Günləri və digər birgə mədəni tədbirlərin müsbət təcrübəsi nəzərə alınaraq, Azərbaycan və Belarus qarşısında mədəni dialoqu genişləndirmək üçün yeni üfüqlərin açıldığını qeyd etməliyik. Bu, birgə tədris proqramlarının hazırlanması və həyata keçirilməsi, gənclər və uşaq kollektivləri arasında mədəni mübadilələr, sərgilərin, festival və yaradıcı ustalıq dərslərinin təşkili daxil olmaqla uzunmüddətli və məhsuldar mədəni əməkdaşlığın təməli ola bilər.

Belarus Mədəniyyət Günləri Belarus incəsənəti və mədəniyyəti bayramı olmaqla yanaşı, həmçinin ölkələr arasında dostluq əlaqələrinin möhkəmlənməsinin vacib simvolu və mədəni dialoqun mühüm mərhələsi kimi yadda qalmışdır. Bu tədbirlər Azərbaycan vətəndaşlarına Belarusun zəngin mədəni irsi ilə daha yaxından tanış olmaq imkanı vermiş və strateji tərəfdaşlığımızın və qardaşlıq əlaqələrimizin növbəti təsdiqi olmuşdur.

Belarus Mədəniyyət Günlərinin açılış mərasimi Heydər Əliyev Sarayında baş tutmuş və hər iki ölkənin mədəniyyət xadimləri, ictimaiyyət nümayəndələri bir araya gəlmişlər. Tədbir çərçivəsində təqdim edilən geniş proqramda Belarusun əməkdar artistlərdən ibarət qruplarının və məşhur sənətçilərin çıxışları yer almışdır. Bu, yalnız Belarus sənətçilərinin məharətini nümayiş etdirmək deyil, həm də hər iki ölkənin sənətçiləri və mədəniyyət xadimləri arasında qarşılıqlı təcrübə mübadiləsi və əməkdaşlıq üçün unikal imkan yaratdı.

Mədəni əməkdaşlıq, hər iki ölkənin mədəniyyət nazirlərinin vurğuladıqları kimi, dövlətlərarası münasibətlərin möhkəmləndirilməsində açar rol oynayır. Belarus Mədəniyyət Günləri mədəniyyətin xalqlar arasında dostluğu və qarşılıqlı anlaşmanı necə möhkəmləndirə biləcəyinin parlaq nümunəsinə çevrildi. Mədəniyyət Günlərinin uğuru gələcəkdə oxşar tədbirlərin təşkil edilməsi üçün yeni perspektivlər açır. Nümayəndə heyətlərinin mədəni mübadiləsi, birgə festival və sərgilərin, eləcə də digər mədəni tədbirlərin keçirilməsi, ikitərəfli əlaqələrin gündəliyində önəmli yer tutur və dövlətlərarası anlaşmanın, əməkdaşlığın daha da dərinləşdirilməsinə xidmət edir.

Belarus Mədəniyyət Günləri tədbirləri çərçivəsində görüşlər həm də yeni əlaqələr və əməkdaşlıq üçün əsas yaratmış, mədəni dialoqun tükənməz potensialını nümayiş etdirmişdir. Bu, mədəniyyətin dövlətlərarası münasibətlərin inkişafında güclü bir katalizator olduğunu və gələcək üçün geniş imkanlar açdığını bir daha təsdiqləyir.

Mədəniyyət Günlərinin iştirakçıları sənətçilər və mədəniyyət nümayəndələri bu cür mübadilələrin mədəni dünyalarımızın qarşılıqlı anlaşması və zənginləşməsi üçün əhəmiyyətini vurğulayıblar, tamaşaçılar isə təqdim olunan proqramların yüksək səviyyədə icra olunduğunu və müxtəlifliyini qeyd ediblər. Bu, bir daha sübut edir ki, mədəniyyət insanları birləşdirən universal ünsiyyət vasitəsidir.

Azərbaycan və Belarus rəsmilərinin Mədəniyyət Günləri çərçivəsində verdiyi bəyanatlar mədəni əlaqələrin inkişafı məsələsində dövlətlərin ortaq mövqeyini əks etdirir. Hər iki ölkənin mədəniyyət nazirləri bu cür tədbirlərin təkcə mədəni deyil, həmçinin iqtisadi, sosial və siyasi əlaqələri möhkəmləndirdiyinə əminliklərini ifadə edib, mədəni mübadilələrin davam etdirilməsi və gələcəkdə yeni birgə layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıblar.

Hər iki ölkə birgə mədəni tədbirlərin təşkil edilməsi üçün geniş imkanlara malikdir. Bu, yalnız ənənəvi mədəniyyət günləri deyil, həmçinin festivallar, sərgilər, kino nümayişləri və digər layihələr çərçivəsində həyata keçirilə bilər. Xüsusilə gənclər və təhsil proqramlarına diqqət yetirmək lazımdır, çünki bu, yaradıcılıq bacarıqlarının və mədəni mübadilənin gənc nəsil arasında inkişafına təsir göstərər.

Qarşılıqlı faydalı əməkdaşlıq layihələrinin inkişafı Azərbaycan və Belarus arasında mədəni əməkdaşlığın ən perspektivli istiqamətlərindən biridir. Birgə mədəni layihələr və proqramlar yalnız təcrübə mübadiləsini təmin etməklə kifayətlənməyəcək, həm də beynəlxalq səviyyədə diqqəti cəlb edə biləcək yeni mədəni əlaqələrin yaradılmasına imkan verəcək.

Müasir texnologiyalar mədəni dialoqun inkişafı üçün unikal imkanlar təqdim edir. Onlayn sərgilərin, virtual muzey turlarının, onlayn konsertlərin və seminarların təşkili mədəni tədbirlərin auditoriyasını xeyli genişləndirə bilər, onları hər iki ölkədə geniş insan kütləsi üçün əlçatan edər.

Azərbaycan və Belarusun fəal əməkdaşlığı, onların dünya mədəni səhnəsində mövqelərinin daha da möhkəmlənməsinə kömək edəcək. Beynəlxalq layihələrdə və təşəbbüslərdə birgə iştirak hər iki ölkənin mədəni irsi və müasir incəsənətini yeni səviyyədə təqdim etməyə imkan verəcək. Azərbaycan və Belarus arasında mədəni dialoqun inkişaf perspektivləri çox ümidvericidir.

Sonda qeyd etmək lazımdır ki, mədəniyyət yalnız keçmişin irsi deyil, həm də gələcəyin inkişafı üçün vacib resursdur. Azərbaycan və Belarusun bu sahədə əməkdaşlığı yalnız ənənələrə, tarixə olan hörməti nümayiş etdirmir, həm də birgə yaradıcılıq axtarışları, yeni ideya və layihələrin həyata keçirilməsinə imkan yaradır ki, bu da hər iki ölkənin rifahına və inkişafına töhfə verir.

**Emin QASIMOV,**
**"Respublika".**

# Prezident İlham Əliyev Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibini qəbul edib



**(əvvəli 1-ci səhifədə)**

COP29-un Azərbaycanda keçirilməsi münasibətilə də təbriklərini çatdıran Kayrat Sarıbay bunu beynəlxalq ictimaiyyətin Azərbaycanın çoxtərəfli diplomatiya sahəsində roluna hörmətinin və ehtiramının təzahürü kimi qiymətləndirdi. O, ölkəmizin regionda böyükmiqyaslı kommunikasiya layihələrinin həyata keçirilməsindəki mühüm rolunu da xüsusi vurğuladı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Asiyada etimad quruculuğu tədbirlərinin həyata keçirilməsində vacib dialoq platforması olduğunu deyən Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini xatırladı və sədrlik çərçivəsində əldə edilmiş təcrübənin bu təşkilata sədrliyin həyata keçirilməsi baxımından faydalı olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi COVID-19 pandemiyası dövründə üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsi və Qoşulmama Hərəkatının təsisatlanması baxımından atdığı addımlara toxundu, bu xüsusda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin, Gənclər Təşkilatının və Qadınlar Platformasının yaradılması istiqamətində təşəbbüsləri vurğuladı.

Prezident İlham Əliyev Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyin Azərbaycana keçməsi prosesində bütün üzv ölkələrə, o cümlədən Qazaxıstan tərəfinə təşəkkürünü bildirdi.

Söhbət zamanı bu təşkilatın Asiya qitəsində sülhün, təhlükəsizliyin gücləndirilməsinə və etimad quruculuğu prosesinə töhfə verməsi baxımından böyük potensiala malik olduğu qeyd edildi, Azərbaycanın üzv dövlətlərlə birgə çalışaraq Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin daha da təsisatlanması və sahəvi əməkdaşlığın inkişaf etdirilməsinə öz töhfəsini vermək əzmində olduğu vurğulandı.

Görüşdə COP29 çərçivəsində də bu təşkilatın müxtəlif tədbirlərinin keçirilməsi, eyni zamanda, yaşıl nəqliyyat konsepsiyası və digər sahəvi əməkdaşlıq məsələlərinə baxılması ilə bağlı müzakirələr aparıldı.

**AZƏRTAC**

## *Hikmət HACIYEV:*

# Rusiya sülhməramlılarının Azərbaycan ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilib

*Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Rusiya sülhməramlılarının Azərbaycan ərazisindən çıxarılması barədə məlumatla əlaqədar AZƏRTAC-ın sualını cavablandırıb.*



**—Mediada gedən məlumata və Rusiya Federasiyası tərəfindən verilmiş rəsmi açıqlamaya görə, Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının çıxarılması prosesinə başlanıb. Bu məlumatı necə şərh edərdiniz?**

–2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlılarının ölkəmizin ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilib. Artıq proses başlanıb, Azərbaycan və Rusiya Müdafiə nazirlikləri həmin qərarın icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirirlər. ■

# Azərbaycan Dövlət Reklam Agentliyinin İdarə Heyətinin yeni sədri kollektivə təqdim edilib

**Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin İdarə Heyətinin yeni sədri Fərhad Adıgözəlov aprelin 17-də kollektivə təqdim olunub.**

Agentlikdən AZƏRTAC-a bildiriblər ki, F.Adıgözəlovu kollektivə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov təqdim edib.

Xatırladaq ki, aprelin 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamla Fərhad Adıgözəlov Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunub. ■

## *XİN:*

# Fransanın Azərbaycanı birtərəfli addımlarda təqsirləndirməsi tam əsassızdır

**Məhz Azərbaycanın razılığı əsasında Fransanın 25 ilə yaxın müddətdə vasitəçilik roluna baxmayaraq, bu ölkənin 2020-ci il Vətən müharibəsindən sonra açıq-aşkar anti-Azərbaycan addımları hər kəsə məlumdur.**

Fransa tərəfinin Azərbaycanı birtərəfli hərəkətlərdə təqsirləndirməsinə baxmayaraq, ölkəmizin Parisə qarşı addımları və verdiyi rəsmi bəyanatlar yalnız bu ölkənin destruktiv fəaliyyətinə cavab xarakterli olub. Ölkəmizə qarşı qarayaxma kampaniyasına baxmayaraq, tərəfimizdən hər zaman dialoq qapıları açıq saxlanılıb.

Fransa xüsusilə son 3 il yarım müddətdə atdığı addımlar ilə Azərbaycanla Ermənistan arasında suverenlik və ərazi bütövlüyü əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyub və vəziyyətin gərginləşməsinə rəvac verib.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın ölkəmizdəki səfirinin geri çağırılması ilə bağlı yerli mətbuatın sualına cavabında səsləndirib.

Mətbuat katibi diqqətə çatdırıb ki, Fransanın BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqı, Frankofoniya kimi təşkilatlarda və digər beynəlxalq platformalarda dəfələrlə Azərbaycan əleyhinə sənəd layihələrinin təşəbbüskarı olması, bu ölkənin bitərəf vasitəçi iddialarının tamamilə əsassız olduğunu sübuta yetirib.

Məhz Fransada hakim partiyanın nümayəndələrinin təşəbbüsü ilə bu ölkənin parlamentində ölkəmizə qarşı çoxsaylı əsassız ittihamların, təhqir və təhdidlərin əks olunduğu, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini sual altına qoyan və onlara xələl gətirən, keçmiş qondarma rejimi tanıyan qərar və qətnamələr qəbul edildiyini xatırlatmaq istərdik.

Bu müddət ərzində Fransa ərazisində mövcud azərbaycanofob mühitin nəticəsi olaraq səfirliyimizə qarşı dəfələrlə hücumların edilməsi və səfirliyin binasına zərər yetirilməsi, nəhayət, ağlasığmaz addım kimi XIX əsr görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın büstünə qarşı vandallıq aktlarının törədilməsi, hökumət tərəfindən bunun qarşısının alınması üçün tədbirlərin görülməməsi rəsmi Parisin ölkəmiz əleyhinə kampaniyasının tərkib hissələridir.

Eyni zamanda, Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyini və ev sahibliyini hədəf alan çağırışlar edən Fransanın Azərbaycanı birtərəfli addımlarda təqsirləndirməsi tam əsassızdır.

Bununla yanaşı, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, bölgədə militarizmi təşviq edən Fransanın addımlarının sülhə xidmət etmədiyi gün kimi aydındır.

"Azərbaycan tərəfi dəfələrlə Fransaya təhdid, təzyiq dili ilə danışmağın heç bir nəticə verməyəcəyini bildirib və öz milli maraqlarının qorunması üçün bütün zəruri tədbirlər görəcəyini bir daha bəyan edir", - deyə A.Hacızadə vurğulayıb. ■

# Yeni reallıqlar yaradan LİDER

**2003-cü il oktyabrın 1-də ulu öndər Heydər Əliyev Azərbaycan xalqına müraciətində demişdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".**



Elə hər şey dahi lider Heydər Əliyevin dediyi kimi də oldu. Bundan sonra 2008, 2013, 2018 və 2024-cü illərdə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev ölkəyə rəhbərliyi dövründə böyük uğurlara imza atıb. Dövlətimizin başçısı xalqa verdiyi bütün vədləri yerinə yetirib, Azərbaycanın hərtərəfli inkişafına nail olub, əhalinin rifahı daha da yaxşılaşıb, respublikamızın siyasi, iqtisadi imkanları şaxələndirilib. Azərbaycan hərb sənayesinin inkişafının təzahürü olaraq müasir ordu yaradılıb, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib. Hazırda Cənubi Qafqazda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr rəsmi Bakının iştirakı, milli maraqların nəzərə alınması ilə icra edilir.

Strateji düşüncə tərzinə və yanaşmalara malik olan Prezident İlham Əliyev verdiyi qərarlarla zamanı qabaqlayır. Başqa sözlə desək, ölkə başçımız özünün də dediyi kimi, nəyi, necə və nə zaman etməyi hamıdan yaxşı bilir. Prezident İlham Əliyev 2018-ci il aprelin 18-də inaqurasiya mərasimi zamanı Azərbaycanın əsla işğalla barışmayacağını diqqətə çatdırmışdı: "Ermənilər, vandallar, Ermənistan rəhbərliyi bizim tarixi abidələrimizə də soyqırımı törədib, məscidlərimizi dağıdıb. Amma onlar başa düşmürlər ki, biz dağılmış məscidləri qəlbimizdə yaşadırıq. Biz dağılmış məscidləri qəlbimizdə ucaltmışıq. Torpaqlar işğaldan azad olunandan sonra vandallar tərəfindən dağıdılmış Şuşa məscidinin bənzərini biz Cocuq Mərcanlıya gətirdik, orada tikdik. Bu gün bu torpaqlarda bizim insanlarımız ibadət edə bilirlər. Bu, bir daha onu göstərir ki, biz heç vaxt işğalla barışmayacağıq". Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü tam təmin edildi. Dövlətimizin başçısı ulu öndərin torpaqlarımızın azad olunması ilə bağlı müqəddəs arzusunu reallaşdırdı. İkinci Qarabağ savaşı zamanı Ali Baş Komandan İlham Əliyev müntəzəm olaraq xalqa müraciətlər edirdi. Azərbaycan xalqının bir yumruq kimi birləşməsində həmin müraciətlərin böyük rolu oldu. Prezidentin xalqına, xalqın isə öz liderinə inamı məhz müharibənin gedişatına və taleyinə mühüm töhfə verdi. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbə nəticəsində 2020-ci il noyabrın 10-da Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur qaldı. Bununla Azərbaycan gücünü nəinki döyüş meydanında, hətta siyasi arenada da bütün dünyaya nümayiş etdirdi.

## *2018-ci il aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi keçirilib*

44 günlük Vətən müharibəsi dövründə Prezident İlham Əliyev informasiya cəbhəsində də rəsmi İrəvanın yalanlarını dünyanın aparıcı media qurumlarına verdiyi müsahibələrində ifşa etdi. Dövlətimizin başçısı istər xalqa müraciətləri, istərsə də "X" platformasındakı paylaşımları ilə Azərbaycanın haqq carçısına çevrildi.

Ötən ilin sentyabrında Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması istiqamətində həyata keçirilən lokal antiterror tədbirləri tarixə həkk olundu. 23 saatdan bir qədər çox davam edən tədbirlər nəticəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri, uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarıldı. Beləliklə, Ermənistan ağ bayraq qaldıraraq növbəti dəfə təslim oldu, respublikamızın bütün ərazilərində Konstitusiya quruluşu bərpa edildi. Bu gün Qarabağın hər nöqtəsində ölkəmizin üçrəngli şanlı bayrağı dalğalanır.

Prezident İlham Əliyevin müvafiq göstərişlərinin təzahürü olaraq dövlətimizin iqtisadiyyatı uğurla inkişaf edir, Qarabağda bərpa-quruculuq işləri sürətlə davam edir, sosial proqramlar həyata keçirilir. Bu gün Qarabağ cənnətə çevrilir, öz ata-baba yurdlarından didərgin düşən keçmiş məcburi köçkünlər təhlükəsiz şəkildə yeni evlərinə qayıdırlar. Müharibə bitdikdən sonra quruculuq və bərpa işlərinə təxminən 7 milyard ABŞ dolları ayrılıb. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan bu vəsaitləri heç bir ölkədən borc almır, sırf öz gücünə təmin edir. Bütün bunlar bir daha Azərbaycanın sosial-iqtisadi inkişafı üçün etibarlı maliyyəyə malik ölkə olduğunu əyani şəkildə təsdiqləyir. Azərbaycan hələ bir neçə il bundan əvvəl xarici borc öhdəliyinin azaldılması strategiyasını qəbul edib. Məhz bu səbəbdən dövlətimizin xarici borcu ilbəil azalır. Hazırda respublikamızın xarici borc öhdəliyi ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Bununla yanaşı, ölkəmizin xarici valyuta ehtiyatları birbaşa xarici borcu on dəfə üstələyir. Respublikamızın iqtisadiyyatı tarixən enerji sektoru ilə sıx bağlı olub. Ölkəmiz enerji resurslarının istehsalı və emalı sahəsində zəngin ənənələrə malikdir. Sözügedən sahə indi də iqtisadiyyatımızın əsas sütununu təşkil edir. Dövlət başçısının qətiyyətli siyasi iradəsi sayəsində postneft dövrünün iqtisadiyyatının qurulması istiqamətində inamlı addımlar atılır. Bu gün enerji məhsullarının ixracından əldə olunan gəlirlərin müəyyən hissəsi məqsədyönlü şəkildə insan kapitalının formalaşdırılması ilə yanaşı, qeyri-neft sənayesinin inkişafına xərclənir.

Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən işlərin nəticəsi kimi bir sıra iqtisadi göstəricilərə nəzər salsaq görərik ki, 2003-cü ildə Azərbaycanda ümumi daxili məhsulun dəyəri 7,1 milyard manat olduğu halda, 2022-ci ildə 133,7 milyard manat təşkil edib. Ümumiyyətlə, son 20 il ərzində ölkə iqtisadiyyatı 3,4 dəfə, ÜDM nominal ifadədə 22 dəfə artıb. Qeyri neft-qaz sektorunda ÜDM-in həcmi 2003-cü illə müqayisədə 4,4 milyard manatdan 2022-ci ildə 69,8 milyard manata çatdırılıb. 20 il əvvəl regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrasına başlayarkən Azərbaycan 1,6 milyard ABŞ dolları strateji valyuta ehtiyatlarına sahib idi. Ötən il isə dövlətimizin valyuta ehtiyatları 67 milyard ABŞ dollarını ötüb ki, bu da təxminən 41 dəfə artım deməkdir.

Bütün bunlar bir daha Prezident İlham Əliyevin Azərbaycanda yeni reallıqlar yaratmaqla mühüm strateji perspektiv təmin etdiyini söyləməyə əsas verir. Bütün nailiyyətlərimizin əsası İkinci Qarabağ savaşında əldə etdiyimiz tarixi hərbi-siyasi qələbəmizdir. Dövlətimizin başçısı şanlı qələbəmizin qəhrəmanı kimi Azərbaycan əsgərini göstərsə də, milli gücün yalnız liderin düzgün idarə qaydası ilə formalaşdığı hər kəsə məlumdur. Prezident İlham Əliyev müdrik dövlət xadimi, müzəffər sərkərdə, yeni reallıqlar yaradan liderdir.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

# Böyük infrastruktur yenidən qurulur



**(əvvəli 1-ci səhifədə)**

Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimindəki çıxışı zamanı Prezident İlham Əliyev bildirib ki, növbəti illərdə hökumətin qarşısında duran əsas infrastruktur layihələri arasında başlıca vəzifə içməli su və suvarma layihələri olacaqdır. Artıq genişmiqyaslı proqramın işlənib hazırlandığını vurğulayan dövlət başçısı deyib: "Şirvan və Qarabağ kanalları Taxtakörpü kanalı ilə birlikdə ən böyük suvarma kanalları olduğu üçün bu layihələrə xüsusi əhəmiyyət verilir. Ancaq artıq qəbul edilmiş proqram əsasında Azərbaycanda 10-dan çox su anbarı inşa ediləcəkdir".

Qeyd edək ki, 1958-ci ildə istifadəyə verilən və ölkənin ikinci ən böyük kanalı olan torpaq məcralı Yuxarı Şirvan suvarma kanalı başlanğıcını Mingəçevir su anbarından götürür. Yuxarı Şirvan kanalı Şirvan düzündə yerləşən Yevlax, Ağdaş, Göyçay, Zərdab, Ucar, Kürdəmir, İsmayıllı və Ağsu rayonlarının 112 min hektardan çox əkin sahəsini suvarma və yaşayış məntəqələrini məişət suyu ilə təmin edir. Kanal Şirvan düzündə öz axını ilə suvarılan sahələrin su ilə təminatını yaxşılaşdıran əsas arteriyalardan biridir. Yuxarı Şirvan suvarma kanalının infrastrukturunun bərpası, habelə mövcud təsərrüfatların su təminatı məsələlərinin vaxtında və səmərəli şəkildə həllinin dəstəklənməsi, su ehtiyatlarından daha səmərəli istifadə olunması, magistral kanalın suburaxma qabiliyyətinin artırılması məqsədilə aprelin 8-də Prezident İlham Əliyev Şirvan suvarma kanalının yenidən qurulması haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Yuxarı Şirvan suvarma kanalının adı dəyişdirilərək Şirvan suvarma kanalı adlandırılıb. Faktiki olaraq kanal yenidən inşa ediləcək və beləliklə, minlərlə insan bu layihədən faydalanacaq. 120 kilometrlik kanalın uzunluğu təxminən iki dəfə artırılacaq və 200 kilometrdən çox olacaq. Nəticədə suvarılan əkin sahələri iki dəfədən çox artırılacaq, yeni layihə 230 min hektar əkin sahəsini əhatə edəcək. Kanalın son nöqtəsi Hacıqabul gölü olacaq. Bu, suyun həcminə və əkin sahələrinin əhatəsinə görə ən böyük layihədir.

Azərbaycanda ümumi uzunluğu 90 min kilometrdən çox olan 1,35 milyon hektar sahəni suvarma qabiliyyətinə malik su nəqledici kanallar mövcuddur. Respublikamızda uzunluğu 182,8 kilometr, su sərfi 55 kubmetr/saniyə olan Samur-Abşeron kanalı, uzunluğu 172,4 kilometr və su sərfi 113 kubmetr/saniyə olan Yuxarı Qarabağ kanalı, uzunluğu 122 kilometr, su sərfi 78 kubmetr/saniyə olan Şirvan suvarma kanalı və uzunluğu 107,9 kilometr, su sərfi 40 kubmetr/saniyə olan Taxtakörpü-Ceyranbatan kanalları böyük su kütləsini ayrı-ayrı regionların əkin sahələrinə ötürür. Azərbaycanda nəhəng su layihələrinin vəziyyəti tamamilə müsbət tərəfə dəyişib, onların arasında Oğuz-Qəbələ-Bakı su kəməri xüsusilə qeyd edilməlidir. Taxtakörpü su anbarının tikintisi tarixi layihədir. Çünki bu anbarın su tutumu kifayət qədər böyükdür - 270 milyon kubmetr. Buradan təqribən 30 min hektar suvarılmayan torpaqlara su verilir. Digər böyük layihə Ceyranbatan su anbarının yenidən qurulması və müasir təmizləyici qurğuların inşa edilməsidir. Şəmkirçay su anbarının tutumu 165 milyon kubmetrdir və qərb zonasının bir neçə rayonu bu imkanlardan faydalanır. Cənub zonasında yerləşən Göytəpə və Tovuzçay su anbarları da xüsusi əhəmiyyət daşıyır.

## *Növbəti illərdə ölkəmizin qarşısında duran başlıca vəzifə içməli su və suvarma layihələrinin reallaşdırılmasıdır*

Prezident İlham Əliyevin təşəbbüsü ilə inşa edilmiş Taxtakörpü su anbarı suvarma işləri ilə bərabər, Bakının da içməli su ilə təmin edilməsində önəmli infrastrukturdur. Çünki Taxtakörpü-Ceyranbatan su kanalının çəkilməsi Ceyranbatan su anbarında suyun səviyyəsinin lazımi səviyyədə saxlanmasına şərait yaratmışdır. Ölkə başçısı qeyd edib ki, vaxtilə Taxtakörpü su anbarı və su kanalı tikilməsəydi, Bakıda çox kəskin su problemi olacaqdı. Taxtakörpü su anbarından sonra Şəmkirçay su anbarı inşa edilmiş, beləliklə, ölkəmizin həm şimal, həm də qərb bölgələrində vaxtilə suvarılmayan on minlərlə hektar torpağa su verilmişdir. Artıq bu, özünü kənd təsərrüfatı istehsalının, məhsuldarlığın artmasında da göstərir. Azərbaycan Prezidenti İlham Əliyev Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimindəki çıxışında Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsi barədə də danışıb. Hazırda bu layihə üzərində işin aparıldığını bildirən dövlət başçısı deyib ki, layihə həyata keçiriləndən sonra Xəzər dənizinin suyundan həm suvarma üçün, həm də içməli su kimi istifadə edəcəyik. Dünyanın bir neçə ölkəsi suyun duzsuzlaşdırılması sahəsində böyük təcrübəyə malikdir və bizim də Xəzər dənizi kimi böyük su hövzəmiz var. Təbii ki, bu imkandan da istifadə edəcəyik.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüz təmin edilib. Bu gün öz su mənbələrimizə də tam sahib olmuşuq. Torpaqlarımızın, o cümlədən mühüm əhəmiyyət kəsb edən Suqovuşan, Sərsəng və Araz çayı üzərindəki Xudafərin su anbarlarının işğaldan azad olunması ölkə iqtisadiyyatının, xüsusən aqrar sahənin inkişafı üçün geniş imkanlar yaradacaq. Yeni su ehtiyatları hesabına 100 min hektarlarla əlavə torpaq sahələri suvarılacaq.

**Mustafa KAMAL,**
**"Respublika".**

# Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviqi ilə bağlı Sərəncamdan irəli gələn tədbirlərə dair iclas




**Aprelin 17-də Nazirlər Kabinetində Baş nazir Əli Əsədovun rəhbərliyi ilə "Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 mart tarixli Sərəncamından irəli gələn tədbirlərin həyata keçirilməsi ilə bağlı iclas keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir iclası açaraq "Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamından irəli gələn tədbirlər, onların icrasının gedişi və qarşıda duran vəzifələr barədə məlumat verib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və energetika nazirinin müavini Samir Vəliyev məruzələrlə çıxış ediblər.

İclasda elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin və elektrik enerjisi doldurma məntəqələrinin (EDM) əhatə dairəsinin genişləndirilməsi, bu sahədə zəruri infrastrukturun yaradılması, onların dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi tədbirlərinin görülməsi, habelə bu işlərə sahibkarlıq subyektlərinin cəlb olunması məqsədilə normativ hüquqi aktların təkmilləşdirilməsi və digər zəruri məsələlər barədə müzakirələr aparılıb.

Sonra qarşıda duran vəzifələr istiqamətində irəli sürülən təkliflər nəzərə alınmaqla aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib. ■



# Yeni Kaledoniya Konqresinin nümayəndə heyəti Azərbaycanda

**Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri xanım Naisseline Omayranın rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 17-də Heydər Əliyev Mərkəzində olub.**

## Heydər Əliyev Mərkəzində





AZƏRTAC xəbər verir ki, qonaqlara dünya memarlığının nadir incilərindən sayılan Mərkəz haqqında məlumat verilib. Qeyd olunub ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

Bildirilib ki, Mərkəzdəki Heydər Əliyev Muzeyində Ulu Öndərin fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual şəkildə təqdim olunur.

Qonaqlar Ulu Öndərin Azərbaycana rəhbər olduğu dövrlərdə - 1969-cu ildən 2003-cü ilədək rəsmi istifadəsində olan avtomobillərə baxıblar.

Ümummilli Liderin həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində həyata keçirdiyi fəaliyyət konsepsiyasının müxtəlif dövrlərini əks etdirən eksponatlar, fotoşəkillər və multimedia zalı qonaqların böyük marağına səbəb olub.

"Azərbaycan inciləri" sərgisi ilə də tanış olan nümayəndə heyətinin üzvlərinə məlumat verilib ki, ekspozisiyada ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatlar nümayiş etdirilir. Burada qədim sənətlərin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri sərgilənir, qədim çalğı alətlərimiz orijinal şəkildə - səsli formada təqdim olunur. Qeyd olunub ki, bu guşədə Azərbaycan milli geyimləri, qədim sikkələr də nümayiş etdirilir.

Yeni Kaledoniya Konqresinin nümayəndə heyəti Azərbaycanın qədim musiqi alətləri ilə də tanış olub.

Heydər Əliyev Mərkəzi ilə tanışlıq qonaqlarda xoş təəssürat doğurub. ■

## Azərbaycan Dillər Universitetində

**Ölkəmizdə səfərdə olan Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri xanım Naisseline Omayranın rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 17-də Azərbaycan Dillər Universitetində olub.**





AZƏRTAC xəbər verir ki, görüşdə universitetin rektoru akademik Kamal Abdulla rəhbərlik etdiyi ali təhsil ocağının fəaliyyəti, burada tədris olunan xarici dillər və görülən işlər barədə məlumat verib. Söhbət zamanı rektor qonaqları maraqlandıran sualları cavablandırıb.

Görüşdə universitetin sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, Milli Məclisin deputatı Tamam Cəfərova neokolonializmə qarşı mübarizə, bu məqsədlə yaradılmış Bakı Təşəbbüs Qrupunun fəaliyyəti, Azərbaycanın neokolonializmdən əziyyət çəkən ölkələrə dəstəyi barədə, ölkəmizin öz ərazilərini işğaldan azad etməsi və digər mövzularda fikirlərini bölüşüb.

Sonra qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb. ■

## Bakıda Müqəddəs Məryəm Katolik Kilsəsini ziyarət

**Azərbaycanda səfərdə olan Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri xanım Naisseline Omayranın rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 17-də Bakıdakı Müqəddəs Məryəm Katolik Kilsəsində olub.**



AZƏRTAC xəbər verir ki, Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete kilsənin tarixi, burada katoliklərin ibadət etmələri üçün yaradılan şərait barədə qonaqlara məlumat verib.

Bildirilib ki, bu kilsənin yerləşdiyi ərazi Roma-katolik kilsəsinin ənənəsinə uyğun olaraq təqdis edilib. Rəsmi açılışı 2008-ci ilin martında keçirilən kilsədə eyni vaxtda 250-300 nəfər ibadət edə bilir.

Yepiskop 2008-ci ildə Heydər Əliyev Fondu tərəfindən Müqəddəs Ruhun həvarilərə nazil olmasını təsvir edən klassik vitrajın və Müqəddəs Rozariyanın dualarındakı sirlərdən bəhs edən keramik pannonun kilsəyə hədiyyə olunduğu barədə də Yeni Kaledoniya nümayəndə heyətinə məlumat verib.

Fotoguşə və eksponatlarla ətraflı şəkildə tanışlıq qonaqlarda xoş təəssürat oyadıb.

Qeyd edək ki, Bakıdakı Müqəddəs Məryəm Kilsəsi 1915-1931-ci illərdə mövcud olmuş Müqəddəs Bakirə Məryəmin kosteli ilə eyni adı daşıyır. Kilsə 2006-2007-ci illərdə əsaslı bərpa edilib. ■

**Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri xanım Naisseline Omayranın rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 17-də Bakıda Qoşulmama Hərəkatı (QH) Gənclər Təşkilatının mənzil-qərargahı ilə tanış olub.**



## Qoşulmama Hərəkatı Gənclər Təşkilatının mənzil-qərargahında

AZƏRTAC xəbər verir ki, Qoşulmama Hərəkatı Gənclər Təşkilatının Baş katibi Nigar Bağırlı nümayəndə heyətinin üzvlərini qurumun fəaliyyəti və gördüyü işlər barədə məlumatlandırıb. Bildirilib ki, Gənclər Təşkilatı müxtəlif tədbirlər və layihələr həyata keçirir, beynəlxalq tədbirlərdə təmsil olunur.

Diqqətə çatdırılıb ki, mənzil-qərargahda ingilis və fransız dillərində kurslar keçirilir. Sonrakı mərhələdə ərəb dili üzrə də kurslar təşkil olunacaq.

Yeni kaledoniyalı parlamentarilər Qoşulmama Hərəkatı ilə bağlı fotosərgi ilə də tanış olublar.

Qeyd edək ki, Qoşulmama Hərəkatı Gənclər Təşkilatı Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə yaradılıb. 2022-ci ilin iyulunda 60 dövlətin gənc nümayəndəsinin iştirak etdiyi Qoşulmama Hərəkatı Gənclər Təşkilatı tərəfindən ilk dəfə keçirilən Qoşulmama Hərəkatı Gənclər Sammiti zamanı Şəbəkənin Təşkilata çevrilməsinə dair yekun sənəd olan Şuşa Akkordu qəbul olunub. Hazırda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının üzv dövlətlər üzrə 50 milli bölmə nəzdində fəaliyyət göstərən yüzlərlə fəal gənc QH ölkələri arasında beynəlxalq dialoqa təkan verir. ■

*Yeni kaledoniyalı parlamentari:*

## Xalqımız Azərbaycanın dəstəyini yüksək qiymətləndirir

**Yeni Kaledoniya xalqı Azərbaycanın dəstəyini yüksək qiymətləndirir. Başladığımız işi Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə davam etdiririk. Bakı Təşəbbüs Qrupu iki ölkə arasında əməkdaşlıq əlaqələrinin yaradılmasında da böyük rol oynayır.**



AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Azərbaycanda səfərdə olan Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri xanım Naisseline Omayra səsləndirib.

İki ölkə arasında əlaqələrin inkişafında ali təhsil müəssisələrinin, gənclərin rolunu qeyd edən N.Omayra deyib: "Gənclər gələcək deməkdir. Bu istiqamətdə də əlaqələrimizin qurulması mühüm əhəmiyyət daşıyır".

Bir həftə əvvəl Yeni Kaledoniyada nümayişlərin keçirildiyini xatırladan parlamentari qeyd edib: "Nümayişlərdə müstəmləkə əleyhinə olanlar, yəni, müstəqillik tərəfdarları iştirak edirdilər. Nümayişlərdə biz Bakı Təşəbbüs Qrupunun da dəstəyini gördük. Aksiyaların birində Azərbaycanın 44 günlük müharibəsində böyük Zəfərin simvolu olan "Dəmir yumruq" şüarından da istifadə edildi. Biz bununla tək olmadığımızı göstərdik. Azərbaycan müstəqilliyə gedən yolda Yeni Kaledoniyaya çox böyük dəstək verir və buna görə minnətdarıq". ■



# AZƏRBAYCAN dünya mediasında

### "Anadolu Agentliyi":




## "Türkiyə-Azərbaycan Universitetinin yaradılmasına dair Anlaşma Memorandumu" təsdiq edilib

Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında Türkiyə-Azərbaycan Universitetinin (TAU) yaradılmasına dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Fərman imzalayıb. Bu barədə "Anadolu Agentliyi" məlumat yayıb.

Prezident İlham Əliyev Anlaşma Memorandumunun müddəalarının yerinə yetirilməsini təmin etmək məqsədilə Elm və Təhsil, Xarici İşlər nazirliklərinə Memorandumun qüvvəyə minməsi üçün zəruri olan daxili prosedurların başa çatdığı barədə Türkiyə Respublikası Hökumətinə məlumat verməyi tapşırıb.

### "Tass":




## Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsi üzərində iş aparılır

"Tass" yazır ki, Azərbaycan Prezidenti İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimindəki çıxışında Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsi barədə danışıb. Hazırda Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsi üzərində işin aparıldığını bildirən ölkə başçısı deyib: "Bu layihə həyata keçiriləndən sonra biz Xəzər dənizinin suyundan da həm suvarma üçün, həm içməli su kimi istifadə edəcəyik. Dünyanın bir neçə ölkəsi duzsuzlaşdırma sahəsində böyük təcrübəyə malikdir və bizim də Xəzər dənizi kimi böyük su hövzəmiz var. Təbii ki, biz bu imkandan da istifadə edəcəyik".

### "Turkic.world":




## Azərbaycan və Mərkəzi Asiya "yaşıl enerji" dəhlizinin yaradılması üzərində işləyir

Azərbaycan "yaşıl enerji" dəhlizinin yaradılması üzrə bir sıra Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq edir.

"Turkic.world"un verdiyi məlumata görə, bunu Azərbaycanın energetika naziri Pərviz Şahbazov Əbu-Dabidə keçirilən Yaşıl Hidrogen Sammitində deyib. "Hazırda biz Aİ ilə "yaşıl enerji" dəhlizini inkişaf etdiririk. Bu təşəbbüs Azərbaycanda hasil edilən bərpaolunan enerjinin Avropaya nəqlini nəzərdə tutur. Yaşıl hidrogenin mühüm rol oynadığı yaşıl dəhlizin yaradılması üçün bizi Qazaxıstan və Özbəkistanla birləşdirən başqa bir layihəmiz də var", - deyə o bildirib. Nazir P.Şahbazov qeyd edib ki, yaşıl hidrogen sənayesinin inkişafı üçün görüləsi işlər çoxdur.

### "Vestnik Kavkaza":




## Azərbaycan bu il 3,4 milyard dollar dəyərində neft ixrac edib

Cari ilin yanvar-mart aylarında Azərbaycandan 5 milyon 600,5 min ton bitumlu süxurlardan alınmış xam neft və xam neft məhsulları ixrac edilib. İxrac edilən neft və neft məhsullarının dəyəri isə 3 milyard 490,1 milyon dollar olub.

"Vestnik Kavkaza" xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi (DGK) məlumat yayıb.

Ötən ilin eyni aylarında ölkədən 6 milyon 809,6 min ton xam neft və neft məhsulları ixrac olunub, ixracın dəyəri 4 milyard 272,1 milyon dollar təşkil edib. Neft bitumunun ixracı isə 114,5 ton, ixrac edilən məhsulun dəyəri isə 21,1 min dollar olub.

Məlumat üçün bildirək ki, ötən ilin eyni dövründə Azərbaycandan 220,1 milyon dollar dəyərində 701,4 min ton neft bitumu ixrac edilib.

### "Reuters":




## BP Azərbaycanın dənizdəki yeni platformasından neft hasilatına başlayır

"Reuters" xəbər verir ki, BP Xəzər dənizində yeni Azəri Mərkəzi Şərqi (ACE) platformasından neft hasilatına başlayıb. ACE platforması Xəzər dənizində nəhəng AÇG yatağında quraşdırılmış yeddinci neft hasilatı platformasıdır. AÇG-də ilk hasilata 1997-ci ildə başlanıb və həmin vaxtdan indiyədək yataqdan 4,3 milyard bareldən çox neft hasil edilib. ACE platforması və qurğuları gündəlik 100 000 barelədək neft hasilatı gücündə layihələndirilib. Layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neft hasil ediləcəyi proqnozlaşdırılır. ACE platformasından ilk neft ötən ilin sonunda qazılmağa başlanmış birinci quyudan əldə edilib. 2024-cü il ərzində platformada daha iki quyunun qazılıb istismara verilməsi planlaşdırılır. Bununla da ACE-dən hasilatın tədricən artaraq ilin sonuna qədər gündə təxminən 24 000 barelə çatacağı gözlənilir.

"Respublika".



# YAP Sədrinin müavini ilə Kubanın Azərbaycandakı səfiri arasında görüş keçirilib

*Aprelin 17-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Kuba Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Karlos Enrike Valdes de la Konsepsyon arasında görüş keçirilib.*

YAP Mərkəzi Aparatından verilən məlumata görə, görüşdə səmimi dostluq və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Kuba münasibətlərinin uğurla inkişaf etdiyi məmnunluqla qeyd edilib. Bildirilib ki, iqtisadi, ticari, mədəni, tibb, təhsil, turizm və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün mühüm potensial mövcuddur və iki ölkə çoxşaxəli münasibətlərin dərinləşdirilməsində olduqca maraqlıdır.

Diqqətə çatdırılıb ki, istər Azərbaycan, istərsə də Kuba milli maraqlara və beynəlxalq hüquq normalarına əsaslanan müstəqil siyasət həyata keçirir. Azərbaycanla Kubanın beynəlxalq təşkilatlarda, o cümlədən BMT və Qoşulmama Hərəkatında əməkdaşlığı həm ikitərəfli münasibətlərin inkişafı, həm də ölkələrimizin milli mənafelərinin qorunması baxımından böyük əhəmiyyət daşıyır.

YAP Sədrinin müavini Tahir Budaqov Kubaya qarşı iqtisadi, ticarət və maliyyə embarqosuna son qoyulmasının zəruriliyinə dair BMT Baş Assambleyasında müzakirəyə çıxarılan qətnamə layihələrinin lehinə Azərbaycanın hər zaman səs verdiyini söyləyib. O, Azərbaycanın 1993-cü ildə BMT Baş Assambleyasının 48-ci sessiyası zamanı postsovet məkanında belə qətnaməni dəstəkləyən yeganə ölkə olduğunu bildirərək "Bu faktlar Azərbaycanın Kubaya dost münasibətinin bariz göstəricisidir", - deyə vurğulayıb.

Öz növbəsində səfir Karlos Enrike Valdes de la Konsepsyon Cənubi Qafqaz regionunun, xüsusilə də bölgənin lider dövləti olan Azərbaycanın Kuba üçün əhəmiyyətindən bəhs edib, respublikamızın embarqoya dair BMT səviyyəsində aparılan müzakirələrdə Kubaya göstərdiyi birmənalı dəstəyin ölkəsində minnətdarlıqla qarşılandığını qeyd edib.

Görüşdə Azərbaycan-Kuba münasibətlərinin gələcək inkişafında iki ölkənin hakim partiyaları olan Yeni Azərbaycan Partiyası ilə Kuba Kommunist Partiyasının (KKP) rolu da diqqətə çatdırılıb. Dövlətlər və xalqlararası dostluq münasibətlərinin YAP ilə KKP arasında əlaqələrin yaradılması və inkişaf etdirilməsi üçün əlverişli zəmin formalaşdırdığı bildirilib. Bu kontekstdə qarşılıqlı səfərlərin faydalı fikir və təcrübə mübadiləsinin aparılması və məhsuldar işbirliyinin dərinləşdirilməsi nöqteyi-nəzərindən əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı yaxın vaxtlarda partiyalar arasında onlayn görüşün keçirilməsi barədə razılıq əldə edilib, gələcəkdə partiyalararası əməkdaşlıq sazişinin imzalanması perspektivləri haqqında fikir mübadiləsi aparılıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər bir sıra məsələlər də müzakirə olunub.

**Xaqani KOSAYEV,**
**"Respublika".**

# Ombudsman BMT-nin İnkişaf Proqramının ölkəmizdəki rezident nümayəndəsi ilə görüşüb

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının ölkəmizdəki rezident nümayəndəsinin səlahiyyətlərini icra edən Alessandra Rokkasalvonu qəbul edib.**



Qurumun mətbuat xidmətinin məlumatında deyilir ki, görüşdə Müvəkkil qonağa Ombudsmanın insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyəti barədə geniş məlumat verib, beynəlxalq qurumlarla, o cümlədən BMT və onun ixtisaslaşmış qurumları, xarici ölkələrin ombudsman və milli insan hüquqları institutları ilə sıx əməkdaşlıq əlaqələrindən danışıb.

Biznes və insan hüquqları sahəsində fəaliyyəti barədə danışan Ombudsman bu sahədə dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, habelə beynəlxalq təşkilatlarla əməkdaşlığın həyata keçirildiyini, BMT tərəfindən qəbul olunmuş "Biznes və insan hüquqları sahəsində Rəhbər Prinsiplər"in ölkəmizdə milli qanunvericiliyə implementasiyası və milli fəaliyyət planının hazırlanması üzrə işlərin aparıldığını vurğulayıb. Həmçinin Ombudsman təsisatı tərəfindən "Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərə ümumi baxış" adlı vəsaitin hazırlandığını diqqətə çatdırıb.

İşğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilmiş faktaraşdırıcı missiyalardan bəhs edən Müvəkkil Ermənistanın işğalçılıq siyasəti nəticəsində beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq normalarının pozulduğunu, işğal nəticəsində yaranmış mina probleminin aradan qaldırılmasında beynəlxalq təşkilatların yaxından iştirakının zəruriliyini, bununla bağlı xüsusi Ad hoc hesabatların hazırlanaraq aidiyyəti beynəlxalq təşkilatlara, xarici ölkələrin ombudsman və milli insan hüquqları təsisatlarına ünvanlandığını qeyd edib.

Görüş zamanı cari ildə ölkəmizin ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 çərçivəsində mümkün əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda COP29 zamanı milli insan hüquqları institutlarının fəal iştirakının vacibliyi vurğulanıb.

BMT-nin İnkişaf Proqramının ölkəmizdəki rezident nümayəndəsinin səlahiyyətlərini icra edən Alessandra Rokkasalvo öz növbəsində səmimi qəbula görə Ombudsmana minnətdarlığını bildirib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilib.

**"Respublika".**

# Moskva Dövlət Universitetinin Bakı filialı abituriyentləri "Açıq qapı" gününə dəvət edir

**M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialı abituriyentləri "Açıq qapı" gününə dəvət edir.**

**Bu barədə AZƏRTAC-a MDU-nun Bakı filialından məlumat verilib.**

**"Açıq qapı" günü abituriyentlər:**
*–2024/2025-ci tədris ili üçün MDU-nun filialına qəbulun şərtləri və qaydaları ilə tanış olacaq;*
*–filialın Filologiya, Tətbiqi-riyaziyyat, Kimya, Psixologiya, İqtisadiyyat və Fizika fakültələrində bakalavr və magistr səviyyələrində tədrislə bağlı hərtərəfli məlumat alacaq;*
*–qəbul imtahanlarına hazırlaşmaq üçün lazım olan materialları əldə edə biləcəklər.*

Abituriyentlər üçün həm də filialın fakültələrini təmsil edən moskvalı professor-müəllim heyəti ilə görüş təşkil ediləcək.

"Açıq qapı" günü aprelin 27-də saat 14:00-da təşkil olunacaq.

**Ünvan:** Bakı şəhəri, H.Cavid prospekti, 133 (metronun "Elmlər Akademiyası" stansiyasının yaxınlığı).

Tədbir bitdikdən sonra (15:30) universitetinin kampusuna ekskursiya təşkil ediləcək.

**Əlaqə telefonu:** (012) 598 93 32

# "Yaşıl enerji"nin yeni mərhələsi COP29



**1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ilə Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin əsası qoyuldu. Ölkəmizin zəngin enerji resursları onun iqtisadi potensialını gücləndirməklə yanaşı, beynəlxalq müstəvidə əməkdaşlığın qurulmasında çox mühüm rol oynayır.**

*COP - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*

COP29
BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası

Respublikamızda ətraf mühitin mühafizəsi, ekologiyanın qorunması xüsusi diqqət mərkəzindədir. Ötən dövr ərzində bu istiqamətdə ölkə rəhbəri tərəfindən Dövlət proqramları təsdiq edilib, müvafiq fərman və sərəncamlar imzalanıb, Milli Məclis müvafiq qanunlar qəbul edib. Görülən işlər nəticəsində ekologiyanın, təbiətin və ətraf mühitin qorunması istiqamətində uğurlar əldə olunub.

Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdən hesab olunur. Təsadüfi deyil ki, ölkəmizdə "yaşıl enerji"yə keçid əsas prioritet kimi müəyyənləşdirilib. Dünyada texnologiyaların inkişafı bu keçidi sürətləndirdi. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbə nəticəsində işğaldan azad olunmuş Şərqi Zəngəzur və Qarabağ torpaqları "Yaşıl enerji zonası" elan edilib. Həmin ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur. Ölkəmizdə hazırda yaşıl kənd təsərrüfatı, yaşıl nəqliyyat layihələri də uğurla tətbiq edilir. Azərbaycan dünyada neft hasilatında nüfuz qazanmış dövlətlərdən olsa da, "yaşıl enerji" ilə bağlı kifayət qədər layihələr həyata keçirir.

Təbii enerji ehtiyatlarının azalması, onların əldə olunması prosesində ətraf mühitə dəyən zərər kimi faktorlar alternativ enerji mənbələrinin axtarılması zərurətini meydana çıxardı. Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə deyirdi ki, Azərbaycanda günəş, külək və su energetikasının ehtiyatları böyükdür, amma bunların əsl inkişafı 30-40 ildən sonra baş verəcək və həmin dövrdən sonra alternativ energetika respublikanın yanacaq-enerji balansında mühüm rol oynayacaq. Doğrudan da bu gün ölkəmizdə günəş və külək elektrik stansiyalarının tikintisi bunu bir daha təsdiqləyir.

Aprelin 16-da Baş nazir Əli Əsədov yeni külək elektrik stansiyasının tikintisi ilə bağlı qərar imzalayıb. Qərara görə, bundan sonra Bakı şəhəri, Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində dövlət mülkiyyətində 3,375 hektar, Abşeron rayonunun inzibati ərazisində dövlət mülkiyyətində 19,875 hektar və Abşeron rayonu Pirəkəşkül-Qobustan Bələdiyyəsinin mülkiyyətində 11,25 hektar olmaqla, ümumilikdə kənd təsərrüfatı təyinatlı torpaqlar kateqoriyasına aid 34,5 hektar torpaq sahəsi qoyuluş gücü 240 MVt olan külək elektrik stansiyasının tikintisi məqsədilə bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilib. Bununla yanaşı, yeni günəş elektrik stansiyasının tikintisi də nəzərdə tutulub. Biləsuvar rayonunun inzibati ərazisində dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqlar kateqoriyasına aid 1 454 hektar torpaq sahəsi qoyuluş gücü 445 MVt olan günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilib.

Ölkəmizdə "yaşıl enerji"nin istehsalı sahəsində böyük imkan və resurslar var. Bu istiqamətdə xarici şirkətlərlə böyük müqavilələr bağlanılıb. Qonşu ölkələrin və Avropa dövlətlərinin "yaşıl enerji" ilə təmin olunması üçün böyük layihələr işlənilir. Belə ki, ölkəmizdə keçiriləcək COP29 "yaşıl enerji" siyasətimizin dünya ictimaiyyətinə təqdimatı baxımından da çox önəmli beynəlxalq platforma olacaq. BMT-nin ən irimiqyaslı tədbiri olan COP29-un bu il ölkəmizdə keçirilməsi Azərbaycanın "yaşıl enerji" sahəsində qazandığı uğurlardan bələd olmasından xəbər verir. Bu həmçinin bərpaolunan enerji məsələlərində ölkəmizə olan etimadın əyani sübutudur. COP29 Azərbaycan üçün qlobal miqyaslı ekoloji problemlərin müzakirə platforması olmaqla yanaşı, həm də ölkəmizin iqlim dəyişmələri ilə mübarizəyə verə biləcəyi töhfələri nümayiş etdirəcək.

COP29-un baş qərargahında aprelin 15-də ilk mətbuat konfransı təşkil olunub. Konfransda COP29-un loqosu ictimaiyyətə təqdim edilib. Loqo iqlim çağırışlarının yüksəldiyi dövrdə bəşəriyyət və ətraf mühit arasında kəsintisiz əlaqənin, ekoloji cəhətdən həssas davranış və nəticəyönümlü fəaliyyətin əhəmiyyətini əks etdirir. Sonuncu dəfə Avropa oyunlarında 8 minə yaxın qonaq qarşıladığımızı nəzərə alsaq, COP29 ölkə tarixində keçirilən ən böyük tədbir hesab oluna bilər. Mətbuat konfransında bildirildi ki, bu böyük tədbirin keçiriləcəyi məkan kimi isə Bakı Olimpiya Stadionu seçilib. Bu qərar BMT ilə məsləhətləşmələr və əvvəlki COP tədbirlərinin təcrübəsi nəzərə alınaraq qəbul edilib.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ölkə başçımız İlham Əliyevin siyasətinin növbəti parlaq qələbəsi olmaqla yanaşı, son zamanlar Azərbaycana qarşı qərəzli kampaniya aparan bəzi dairələrə də tutarlı cavabdır.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**

# Su ehtiyatlarından daha səmərəli istifadə olunması istiqamətində ölkəmizdə mühüm işlər görülür



**Prezident cənab İlham Əliyev tərəfindən müəyyən edilmiş daxili və xarici siyasət prioritetləri ölkəmizi dünya miqyasında güclü dövlətlər sırasına yüksəldib və özünəməxsus inkişaf modelləri ilə tanıdıb. Xüsusilə ötən illərin təcrübəsi və uğurlu göstəriciləri bir daha təsdiqləyir ki, Azərbaycan dövləti qarşısına qoyduğu bütün vəzifələri icra edib və öz hədəflərinə çatır.**

Ən əsası isə Azərbaycan heç kimdən həm siyasi, həm də iqtisadi baxımdan asılı olmayan, tamamilə müstəqil siyasət yürüdən, etibarlı tərəfdaş statusunu qazanan ölkə kimi dünya xəritəsində öz yerini tutub. Dövlətin qüdrəti həm də onun güclü iqtisadiyyatı ilə ölçülür. Əminliklə deyə bilərik ki, Azərbaycan iqtisadiyyatı son 20 ildə elə davamlı inkişaf yolu tutub ki, dünyada baş verən bütün böhranlara layiqincə sinə gərib. Buna yalnız pandemiya dövründə dünyada yaşananları misal göstərmək kifayətdir. Eləcə də ağır müharibədən keçdik, işğalda olan torpaqlarımızı azad etdik. Sözsüz ki, güclü iqtisadiyyat bütün qələbələrin rəhnidir. Bu gün Azərbaycan böyük bir ərazidə yeni şəhərlər, kəndlər salır, tarixdə misli görünməmiş abadlıq-quruculuq işləri aparır. Ən önəmlisi isə odur ki, dövlətimiz bunu heç bir dəstək almadan, ancaq özünün daxili imkanları hesabına həyata keçirir. Bütün bunlar Azərbaycanın iqtisadi qüdrətini göstərən faktorların bir qismidir.

Ölkəmizin effektli sosial-iqtisadi inkişaf strategiyası imkan verir ki, regionlarımızın hərtərəfli tərəqqisi təmin olunsun. Regionlarla bağlı qəbul edilmiş Dövlət proqramları, eləcə də sosial-iqtisadi inkişafa dair fərmanlar, imzalanmış sərəncamlar, icra olunmuş layihələr yeni müəssisələrin açılmasına, iş yerlərinin yaradılmasına, vətəndaşların məşğulluğunun artırılmasına, güzəranının yüksəldilməsinə gətirib çıxarıb. Azərbaycanda yoxsulluq səviyyəsi 5 faizə qədər enib və bu da son dərəcə yüksək göstəricidir. Eyni zamanda kənd yerlərinin inkişaf potensialı xeyli güclənib, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, məhsuldarlığı yüksəlib, kiçik fermer təsərrüfatları iri fermer təsərrüfatlarına çevrilməkdədir. Habelə bölgələrdə iqtisadiyyat daha da şaxələnib, rəqabətqabiliyyətliliyi artıb, regionların turizm imkanları genişlənib. Ümumilikdə, regionların davamlı və tarazlı sosial-iqtisadi inkişafı təmin olunub.

Bildiyimiz kimi, bu gün dünya qlobal iqlim dəyişmələri səbəbindən kəskin su çatışmazlığı kimi böyük bir sınaqla üz-üzə qalıb. Hazırda dövlətimiz bu qlobal problemlə fəal mübarizə aparır, su qıtlığının aradan qaldırılması, tələbatın tam ödənilməsi istiqamətində mühüm işlər görülür. Belə ki, su kanallarının suvarma keyfiyyəti yüksəldilir, su anbarlarının istismar şəraiti yaxşılaşdırılır, mütərəqqi suvarma üsulları tətbiq edilir və s. Görülən işlərin davamı olaraq, dövlətimizin başçısı cənab İlham Əliyev bir neçə gün öncə Şirvan suvarma kanalının yenidən qurulması haqqında Sərəncam imzaladı və aprelin 16-da kanalın təməli qoyuldu. Bu, mühüm bir layihədir, ölkəmizdə su təminatının yaxşılaşmasına, su itkilərinin aradan qaldırılmasına böyük dəstək olacaq. Eləcə də kanalın potensialı imkan verəcək ki, əlavə olaraq əkinəyararlı daha 116 min hektar torpaq əkilib becərilsin. Bu da ölkəmizdə aqrar sektorun dayanıqlı inkişafına mühüm töhfə deməkdir.

**Səttar MÖHBALIYEV,**
**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,**
**Milli Məclisin deputatı.**

# YAŞIL DÜNYAMIZI BİRLİKDƏ QORUYAQ



## Lənkəran

**Ölkəmizin iqtisadi potensialı artdıqca ekoloji məsələlərin həllinə daha çox diqqət yetirilir. Ətraf mühitin mühafizəsi, insanların saf təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə edilməsi aparılan sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindən biridir.**

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2023-cü il 25 dekabr tarixli Sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir. Yurdumuzun bütün guşələrində ağacəkmə aksiyalarının keçirilməsi, yeni parkların, yaşıllıqların salınması ətraf mühitin qorunmasına göstərilən dövlət qayğısının əyani nümunəsidir.

Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin kollektivi "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilən tədbirlərə fəal şəkildə qoşulub. İdarənin təşkilatçılığı ilə Qəni Vəliyev adına Lənkəran Şəhər Mədəniyyət Mərkəzi, 1, 2, 3, 5 saylı şəhər, Rvo, Tatoba kənd klubları, Bürcəli kənd və Aşağı Nüvədi qəsəbə mədəniyyət evlərinin kollektivlərinin iştirakı ilə Rvo kəndində ağacəkmə aksiyası keçirilib.

Aksiya zamanı kəndin ərazisində dekorativ ağaclar əkilib, yaşıllıqlara qulluq göstərilib. Mədəniyyət Mərkəzinin direktoru Anar Kəkəyevin məlumatına görə ilin əvvəlindən mədəniyyət işçiləri tərəfindən Lənkəran rayonunun ərazisində 100 dekorativ ağac əkilib və 300 ağacın əkilməsi nəzərdə tutulub.

## Yardımlı

**Yardımlı Rayon İcra Hakimiyyətində "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Dəyirmi masa" keçirilib.**

İcra başçısının müavini - ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Əfsanə Məmmədova ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin əhəmiyyətindən, Sərəncamda qarşıya qoyulan vəzifələrdən söhbət açıb. Bildirib ki, Azərbaycan dünyada qlobal təşəbbüslərə ilk qoşulan ölkələr sırasındadır, "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi tanınır. Ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi vacib prioritetlərdən hesab olunur.

Ətraf mühitin qorunması istiqamətində işlər xeyli intensivləşib, müntəzəm olaraq ağacəkmə, təmizlik aksiyaları keçirilir. Əsas məqsəd ekoloji tarazlığın bərpasına, ətraf mühitin qorunmasına töhfə vermək, atmosferi oksigenlə zənginləşdirmək, ictimaiyyətin diqqətini yaşıllıqların qorunmasına yönəltməkdir.

Növbəti ağacəkmə aksiyasında Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov, Yeni Azərbaycan Partiyası Yardımlı rayon təşkilatının sədri Anar Alışov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və xidmət təşkilatlarının rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak edib. Aksiya iştirakçıları tərəfindən ərazidə təmizlik işləri aparılıb və əkin üçün hazır vəziyyətə gətirilib. Aksiya zamanı 130 Eldar şamı əkilib və ağaclara aqrotexniki qulluq göstərilib.



Bu günlərdə Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsi "Yaşıl dünyamızı birlikdə qoruyaq, gələcəyimizə sahib çıxaq" layihəsi çərçivəsində Yardımlı şəhərində təmizlik işləri aparılıb, 35 dekorativ ağac əkilib, yeni yaşıllıqlar salınıb.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

# Qarabağ və Şərqi Zəngəzur: quruculuğun üfüqləri

*Böyük Qələbədən sonra bölgədə yeni reallıq yaranıb, respublikamızda Qarabağın və Şərqi Zəngəzurun bərpasını, inkişafını nəzərdə tutan, keçmiş məcburi köçkünlərin doğma yurd yerlərinə layaqətli qayıdışını təmin edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" uğurla icra olunur. 30 il doğma yurdlarına həsrət qalan soydaşlarımız Böyük Qayıdışı səbirsizliklə gözləyirdilər. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı quruculuq işləri həm revanşist ermənilərə, həm də ermənipərəst qüvvələrə, yeni münaqişə ocağı körükləmək istəyənlərə açıq və birmənalı mesajdır ki, bu torpaqların əsl sahibi azərbaycanlılardır və onların iradəsindən kənar heç bir yanaşma və müdaxilə mümkün deyil.*

*Tarixi qələbədən sonra Azərbaycan ermənilər tərəfindən dağıdılmış on min kvadratkilometr bir xarabalıqla üz-üzə qaldı. Mənzərə çox qorxunc və dəhşətli idi. Düşmən 30 il ərzində Qarabağda və Şərqi Zəngəzurda bütün həyat işartılarını məhv etmişdi, təbiətə qəsdən və bilərəkdən ziyan vurulmuşdu, evlər, yollar, ictimai binalar, zavod və fabriklər, istehsal sahələri, məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları, muzeylər, kitabxanalar dağıdılmışdı. Başəri cinayətlər törədən hayların xəbis niyyəti elə xəyal olaraq tarixin zibilliyinə atıldı, bu torpaqlar öz azadlığına qovuşdu. Çox böyük inam və qətiyyətlə işlərə başlanıldı. İnkişaf, həyat və uğur fəlsəfəsini, qələbə dastanını yazan liderin ilk tapşırığı da məhz yollarla bağlı oldu. Hazırda azad edilən ərazilərdə onlarla yol infrastrukturu qurulur, istifadəyə verilir, körpülər tikilir. Son 3 il müddətində Qarabağda və Şərqi Zəngəzurda 1000 kilometrlərlə yol çəkilib, 2 beynəlxalq aeroport inşa edilib, minlərlə ev, yüzlərlə məktəb istifadəyə verilib. İşğaldan azad edilən ərazilər minalardan təmizlənir, bir çox yaşayış massivləri salınır, minlərlə keçmiş məcburi köçkün fərəhlə öz doğma torpaqlarına qayıdır. Qətiyyətlə demək olar ki, Azərbaycanın son bir neçə yüzillik tarixində bu səviyyədə, bu miqyasda möhtəşəm işlər heç vaxt görülməyib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlətimizin başçısı İlham Əliyevin strategiya, tövsiyə və tapşırığı ilə icra olunan infrastruktur layihələr işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm əhəmiyyət kəsb edir. Yol həyatdır, inkişafdır. Qələbə və Zəfər yolları Qarabağın işğaldan azad edilmiş yüzlərlə kənd və şəhərinə yenidən həyat gətirir, firavanlığı və tərəqqini, əmin-amanlığı, yurd yerlərinə qayıdışı təmin edir.*

## Dağlardan keçən yollar



İndi yurdumuzun dilbər guşəsinə, ana təbiətin gözəllikdən don biçdiyi, buz bulaqları, yaylaqları ilə adamı ovsunlayan yurd yerlərinə yeni yollar çəkilir, dağların altından keçən tunellər tikilir. Bu da imkan verəcək ki, bütün fəsillərdə o yoldan istifadə edilsin. Həmin yollardan birinin, Suqovuşan-Sərsəng su anbarı - Qozlukörpü-Kəlbəcər avtomobil yolunun inşasına başlanılıb. Uzunluğu 80 km, hərəkət hissəsinin eni 9, torpaq yatağının eni 15 metr təşkil edəcək yol 2 hərəkət zolaqlı II texniki dərəcəyə uyğun olaraq inşa edilir. Hazırda avtomobil yolunda layihə üzrə torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla qrunt sularının çıxarılması və əvəzində yararlı material verilərək normativ hündürlüyə çatdırılması, yolun genişləndirilərək profilə salınması işləri həyata keçirilir. Layihənin çətin relyefə malik dağlıq ərazidən keçən hissələrində torpaq yatağının genişləndirilməsi üçün qaya tipli süxurların mexanizmlə kəsilməsi, layihə eninin alınması üçün qayaların partladılması üsulundan istifadə olunur. Yeni inşa edilən yolboyu layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif diametrlərə malik dairəvi boru, düzbucaqlı su keçidlərinin tikintisi aparılır. Bundan başqa, yolboyu 6 körpünün, lazımi yerlərdə istinad divarının inşası da nəzərdə tutulub. Tikinti işlərinin vaxtında yekunlaşdırılması üçün əraziyə lazımi sayda işçi qüvvəsi və texnika cəlb olunub.

Bundan başqa, işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən 81,6 km uzunluğa malik Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun böyük hissəsinin inşası başa çatıb. Mütəxəssislərin qənaətinə görə, bu ilin sonuna qədər yolun inşası tamamlanacaq. Qeyd edək ki, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu 1-ci texniki dərəcəyə uyğun olaraq 4-6 hərəkət zolaqlı olmaqla inşa edilir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlətimizin başçısının tapşırığı ilə icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri olan Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun tikintisi sürətlə davam etdirilir.

Başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarı yaxınlığından keçən hissəsindən götürən Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun uzunluğu 56.4 km təşkil edir. Sözügedən yolun Xanlıq yaşayış məntəqəsindən ayrılaraq Qubadlı şəhərinə qədər uzunluğu 14 km olan yeni avtomobil yolunun da inşası icra olunur.

Bundan başqa, Xanlıq-Qubadlı yolu ilə kəsişmədə müxtəlif səviyyəli yol qovşağının tikintisi işləri də davam etdirilir. Artıq layihə üzrə 81 dairəvi, 32 düz bucaqlı boru və 12 yeraltı keçid tikilib, 4796 metr istinad divarı da inşa olunub. Layihə üzrə ümumi uzunluğu 2357 m-lik 7 ədəd tunelin inşası da nəzərdə tutulur. Hazırda T-1 tunelinin giriş və çıxış portalında qazma işləri bitib və betonlanma aparılır. T-2 tunellərində qazma və qrunt bərkitmə işləri gedir, T-3-də giriş portal çalışmaları davam edir. Zəngilan, Qubadlı və Laçın rayonlarının ərazisindən keçən bu avtomobil yolu Qubadlı və Laçın şəhərləri də daxil olmaqla, sözügedən rayonların 30-dan artıq yaşayış məntəqəsini əhatə edir.

## Hər damlasında həyat var



Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonasına daxil olan rayonlarda mövcud su mənbələri işğalçı ermənilər tərəfindən bərbad vəziyyətə salınıb, bütün infrastruktur dağıdılıb. İşğaldan azad edilən kimi adıçəkilən rayonların ərazisində olan su anbarlarının və kanalların təmirinə başlanılıb. İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün dövlət tərəfindən ayrılan vəsait hesabına Tərtər rayonu ərazisində yerləşən, sututumu 5,86 milyon kubmetr olan Suqovuşan, Ağdam rayonu ərazisindəki sututumu 23 milyon kubmetr olan Xaçınçay, Füzuli rayonu ərazisində inşa edilmiş, sututumu 15,5 milyon kubmetr olan 3 ədəd Köndələnçay su anbarlarının və magistral kanalların təmir-bərpası işləri həyata keçirilir. Eyni zamanda uzunluğu 20,2 kilometr olan Tərtərçay Sol Sahil kanalının yenidən qurulmasına başlanılıb. Şərqi Zəngəzur iqtisadi zonasına daxil olan rayonların ərazisindəki sututarlar və anbarlarda da təmir-bərpa işləri üçün layihə sənədləri hazırlanır. Layihə işləri başa çatandan sonra Laçın rayonu ərazisində yerləşən su tutumu 90,8 milyon kubmetr olan Həkəriçay və Qubadlı rayonu ərazisindəki su tutumu 67 milyon kubmetr olan Bərgüşadçay su anbarları təmir və bərpa edilir. Bundan başqa, Həkəri çayın sağ və sol sahilində yerləşən əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi məqsədilə Laçın rayonu ərazisində yerləşən, sututumu 26,7 milyon kubmetr olan Zabuxçay su anbarının və magistral boru kəmərlərinin tikintisi üzrə layihələndirmə işləri aparılır. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu bölgələrdə formalaşır. Tariximizin bir parçasını yaşadan və əhalisi soyqırıma məruz qalan Xocalıda tikinti-quruculuq işləri sürətlə həyata keçirilir, infrastruktur yaradılır. Hazırda Xocalı şəhərinə içməli su xətti çəkilir və eyni zamanda dayanıqlı su təchizatının yaradılması məqsədilə Madara su mənbəyindən şəhərə magistral kəmərin tikintisi nəzərdə tutulur. Hər iki mənbədən götürülən su anbara toplanacaq və mərkəzi anbarlardan öz axıntı rejimində şəhər əhalisinin, eləcə də ictimai-iaşə və dövlət obyektlərinin su təchizatna yönəldiləcək. Xocalıda yeni inşa edilən fərdi yaşayış evlərinin şəbəkələrə qoşulmasını təmin etmək məqsədilə tullantı su xətləri çəkilir. Fərdi məskunlaşmanın və içməli suya tələbatın artacağı nəzərə alınaraq iki yeni subartezian quyusunun qazılmasına qərar verilib. İşğaldan azad olunan ərazilərin demək olar ki, hər qarışına su xətti çəkilir. Yaşayış olan inzibati binalar, obyektlər mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunur. Füzulidə mərkəzi anbarda magistral su kəmərinin tikintisi işləri artıq yekunlaşıb. Kəlbəcər, Ağdam və Cəbrayılda isə xarici su təchizatı, eləcə də şəhərdaxili su və kanalizasiya sistemləri yaradılır. İlin sonuna kimi Laçın şəhərinə də su xəttinin çəkilişi başa çatdırılacaq. Ümumi sututumu 70,5 milyon kubmetr olan "Bərgüşadçay" su anbarının inşası böyük ehtimalla bu il tamamlanacaq. Su anbarı vasitəsilə Qubadlı rayonu ərazisində 12 min hektar əkin sahəsinin suvarma suyu ilə təmin edilməsinə zəmin yaranacaq, uzunluğu 61,5 kilometr olan magistral boru kəməri ilə isə "Qız qalası" hidroqovşağından su götürəcək magistral kanalın qidalandırılması üçün saniyədə 12 kubmetr suyun verilməsi mümkün olacaq. Layihə çərçivəsində, həmçinin bəzi rayonların içməli su ilə təchizatı nəzərdən keçirilir.

## Yurd yerlərində işıq yanır



İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi bölgədə bir çox yeni reallıqlar yaradıb, ən əsası isə xalqımızın Qarabağ və Şərqi Zəngəzur həsrətinə son qoyulub, işğaldan azad edilmiş ərazilərdə ən müasir texnologiyalarla genişmiqyaslı bərpa və yenidənqurma sürətlə aparılır, qarşıya qoyulan hədəflərə çatmaq üçün mücadilə edilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlətimizin başçısı İlham Əliyevin tövsiyə və tapşırığı ilə icra olunan layihələr içərisində bölgənin enerji təsərrüfatının yenidən qurulması, dağ çayları üzərində kiçik su elektrik stansiyalarının inşası xüsusi yer tutur. Qısa müddət ərzində işğaldan azad edilən ərazilərdə enerji təsərrüfatı ilə əlaqədar olaraq 40 obyektdə tikinti işləri aparılıb. Qarabağ və Şərqi Zəngəzurda 14 yarımstansiya və 14 su elektrik stansiyası tikilərək istismara verilib. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur Regional Rəqəmsal İdarəetmə Mərkəzi işə salınıb. Hər iki bölgədə 9 su elektrik stansiyasının tikintisi davam etdirilir. Su elektrik stansiyalarının 3-ü Zəngilan rayonunda, biri isə Laçın rayonundadır. Həmçinin işğaldan azad edilən ərazilərdə 700 kilometrdən artıq 330 və 110 kilovoltluq ötürmə xətləri çəkilib. Fərəhli haldır ki, Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın ümumi enerji sisteminə qoşulub, bir sözlə, hər iki bölgə başdan-başa nura, işıq selinə bürünüb. Artıq Laçında, Zabuxda, Füzulidə, Kəlbəcərdə, Ağdamda, Zəngilanda, Cəbrayılda keçmiş məcburi köçkünlərin evlərində, küçələrdə, parklarda işıqlar sayrışır. Axı nahaq yerə deyilməyib ki, Azərbaycanın mayası nurdan yoğrulub, ona görə də dünyada Odlar Yurdu kimi tanınır.

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən işğaldan azad edilən bütün ərazilərdə olduğu kimi, coğrafi relyefinə görə mürəkkəb quruluşa malik Kəlbəcərdə də yenidənqurma işləri davam etdirilir. Yaz aylarında qarın əriməd iyi yüksəkliklərdə elektrik təsərrüfatı yenidən qurulur.

Hazırda Kəlbəcər rayonu ərazisində 35 kV-luq elektrik xətlərinin çəkilişi sürətlə aparılır. İstisu, Zod, Zar, Zəylik və Yellicə istiqamətində yenidənqurma işləri başa çatıb. Ağqaya, Qamışlı və Mərcimək kəndləri istiqamətində isə elektrik təsərrüfatının yenilənməsi işləri aparılır. Qeyd edilən kəndlərdə yeni metal dayaqlar basdırılır və müasir-tipli, izolyasiyalı kabel xətləri çəkilir. Yenidənqurma işləri çərçivəsində Kəlbəcər rayonu İstisu qəsəbəsində yerləşən 110/35 kV-luq yarımstansiyanın tikinti işləri və 110 kV-luq hava xəttinin Kəlbəcərdən İstisuya qədər olan hissəsinin çəkilişi davam etdirilir. Həmçinin Kəlbəcər şəhəri ərazisində yeni 35/0,4 kV-luq yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzinin tikinti işləri başa çatıb. Ümumilikdə Kəlbəcərlə Laçın rayonlarının elektrik şəbəkələrini birləşdirən dairəvi elektrik təchizat sxemi yaradılacaq. Qarabağ və Şərqi Zəngəzur dağ silsiləsinin yamacları heyrətamiz gözəlliyə qərq olub, alp çəmənliklərində çiçəklər ulduz kimi sayrışır, dağ çaylarının keçdiyi yerlərdə isə dərin və sıldırımlı, duman çökmüş dərələr yaz dumanına bürünüb, təbiətin ecazkar simfoniyası çox cəlbedicidir. Həm də yurd yerlərində 30 ildən sonra işıqlar yanır, bu yerlərdə nur seli axır, sevinc, qürur dolaşır, hər bölgədə üçrəngli bayrağımız dalğalanır.

**Salman ALIOĞLU,**
**"Respublika".**

## Azərbaycanın AQEM-də 2024-2026-cı illər üzrə sədrliyinin mümkün prioritetləri və planları müzakirə edilib



**Aprelin 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) icraçı direktoru Kayrat Sarıbay ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər Azərbaycanın AQEM-də 2024-2026-cı illər üzrə sədrliyinin mümkün prioritetləri və planlarını, təşkilat çərçivəsində mövcud işləri və perspektivləri müzakirə ediblər.

İcraçı direktor Kayrat Sarıbay Azərbaycanın AQEM çərçivəsində hər zaman fəal iştirak etdiyini məmnunluqla bildirib və sədr seçilməsi münasibətilə səmimi təbriklərini çatdırıb. Nəqliyyat bağlantıları, ətraf mühit kimi mövzuların AQEM üçün hazırda ən aktual məsələlərdən olduğunu deyən K.Sarıbay bu xüsusda Azərbaycanın konstruktiv mövqeyi ilə seçildiyini vurğulayıb.

Görüşdə tərəflər AQEM-in transformasiyası, qurumun fəaliyyətinin birgə maraq doğuran və aktual məsələlər üzrə istiqamətlənməsi, Azərbaycanın sədrliyi ilə keçiriləcək nazirlər görüşünə və qarşıdan gələn Zirvə görüşünə hazırlıq, COP29 çərçivəsində əməkdaşlıq imkanları, habelə regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar. ■

## Azərbaycan səfiri etimadnaməsini Portuqaliya Prezidentinə təqdim edib

**Azərbaycanın iqamətgahı Vatikan şəhərində olmaqla Müqəddəs Taxt-Tacdakı və Portuqaliyadakı səfiri İlqar Muxtarov etimadnaməsini Portuqaliya Prezidenti Marselo Rebelo de Sousaya təqdim edib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Marselo Rebelo de Sousaya çatdıran səfir, eyni zamanda, ölkəmizin Portuqaliya ilə ikitərəfli münasibətlərə xüsusi önəm verdiyini, tezliklə Lissabon şəhərində səfirliyimizin diplomatik ofisinin açılmasının nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Marselo Rebelo de Sousa öz növbəsində onun da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib və tezliklə dövlətimizin başçısı ilə görüşməkdən məmnun olacağını bildirib.

Etimadnamənin təqdimetmə mərasimi XVI əsrə aid qədim kral sarayı olan və Portuqaliya Prezidentinin rəsmi iqamətgahı kimi fəaliyyət göstərən tarixi Belem sarayında keçirilib. ■

## Milli Məclisdə Xəzər dənizinin Azərbaycana aid bölməsində süni torpaq sahələrinin yaradılması ilə bağlı qanun layihəsinin müzakirəsi olub



**Aprelin 17-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya və Aqrar siyasət komitələrinin birgə iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, gündəliyə "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" qanun layihəsinin birinci oxunuşda müzakirəsinin daxil edildiyini söyləyib.

O, dünya ekosistemində son illər müşahidə olunan hadisələrə, o cümlədən Xəzər dənizinin səviyyəsinin enməsinə diqqət çəkərək qanun layihəsinin müasir çağırışlara cavab verdiyini vurğulayıb. Komitə sədri bu gün dünyanı narahat edən su çatışmazlığı probleminin ətraf mühitə və Azərbaycana təsirlərinə də toxunub.

Xəzər dənizinin potensialından süni torpaq sahələrinin yaradılması üçün istifadənin aktuallığına toxunan komitə sədri müzakirəyə çıxarılan qanun layihəsinin Xəzərin daha bir potensialının iqtisadiyyata cəlb edilməsi və dəyər zəncirinə qatılmasının hüquqi bazasının yaradılması baxımından əhəmiyyətini vurğulayıb.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev qanun layihəsinin beynəlxalq təcrübəyə əsasən hazırlandığını, onun Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsində tikinti məqsədləri üçün süni torpaq sahələrinin yaradılması ilə bağlı ictimai münasibətləri tənzimlədiyini, süni torpaq sahələrinin yaradılmasının və onlardan istifadənin təşkilati və hüquqi əsaslarını müəyyənləşdirdiyini deyib.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Aparatının rəhbəri Rəşad İsmayılov qanun layihəsi barədə ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, qanun layihəsində süni torpaq sahələrinin yaradılma formaları və süni torpaq sahələrinin yaradılmasına dair ümumi tələblər, qaydalar öz əksini tapıb. Bununla yanaşı, süni torpaq sahəsinin yaradılması məqsədilə su fondu torpaq sahəsinin ayrılması barədə qərarla bağlı müddəalar, həmçinin süni torpaq sahələrinin yaradılması və həmin torpaq sahəsində tikinti fəaliyyətinin xüsusiyyətləri, mülkiyyət və icarə münasibətlərinin tənzimlənməsi məsələləri təsbit olunub.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov dənizdə süni torpaq sahələrinin yaradılması və bunun müxtəlif məqsədlərlə istifadəsi ilə bağlı beynəlxalq təcrübədən danışıb, layihənin hüquqi aspektlərinə toxunub.

Məsələ ətrafında aparılan müzakirədə çıxış edən deputatlar fikirlərini bildirib, qeyd və təkliflərini söyləyiblər.

Rəşad İsmayılov səsləndirilən fikirlərə münasibət bildirdikdən sonra qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub. ■



## Günün siyasi nəbzi





Türkiyə

# "KEMANKEŞ" raketi testdən keçirilib

**Baykar şirkəti tərəfindən hazırlanmış yüksək texnologiyalı pilotsuz sistemlərin sınaqları uğurla davam edir. Növbəti bir sınaq Edirnənin Keşan rayonundakı Baykar Uçuş Tədris və Sınaq Mərkəzində həyata keçirilən "Kemankeş" 2 Mini Ağıllı Kruiz Raketinin sınaq prosesi olub.**

Baykar tərəfindən strateji hədəflərə qarşı istifadə üçün dizayn edilmiş milli və bənzərsiz olaraq hazırlanmış mini-ağıllı qanadlı raket olan "Kemankeş" TEKNOFEST 27 çərçivəsində ilk dəfə 2023-cü il İstanbulda Atatürk Hava Limanında ictimaiyyətə təqdim edilib. 14 iyun 2023-cü ildə Bayraktar TB2 PUA-dan atəş açaraq ilk atış sınağını uğurla tamamlayıb.

Adını türk imperatorluq oxçuluğu ənənəsindən alan "Kemankeş"in ən fərqli xüsusiyyəti beynəlxalq hərbi elm ədəbiyyatında ifadə olunduğu kimi, dizayn fəlsəfəsidir. Onun adı tarixdə atdığı oxla ən çətin şəraitdə belə hədəfi tam dəqiqliklə vuran oxatanlardan götürülüb.

"Kemankeş" ağıllı uzaqmənzilli sursat, həmçinin kəşfiyyat, müşahidə və nəzarət kimi xüsusiyyətlərə malik silah sistemidir. "Gəzən sursat"ın (mini qanadlı raket) hədəfi vurarkən istifadə etdiyi müdafiə texnologiyalarını gələcəyə doğru aparır. Çünki "Kemankeş" qabaqcıl konvolyusiyalı süni zəka alqoritmləri ilə hədəflərini işləyir və tam dəqiqliklə öyrənir.

"Kemankeş" özünü daşıyan platformanın da portativ hava hücumundan müdafiə sistemlərindən (MANPADS), habelə Rusiya istehsalı "Pantsir" və TOR-M2 kimi PUA-lara qarşı təsirli olduğu hesab edilən bir çox hava hücumundan müdafiə sisteminin təsir mənzillərindən kənarda təhlükəsiz bir atış sahəsinə keçməsinə şərait yaradır.

"Kemankeş" də "Kızılelma" kimi müdafiə texnologiyalarının DNT-si və zaman maşını olma xüsusiyyətinə malikdir.

"Kemankeş" Baykarın milli və orijinal olaraq inkişaf etdirdiyi Bayraktar AKINCI TİHA, Bayraktar TB2 SİHA və Bayraktar TB3 SİHA-ya inteqrasiya edərək fəaliyyət göstərir. Mini smart kruiz raketi reaktiv mühərriki sayəsində təxminən 1 saat havada sürətlə hərəkət edə biləcək və düşmən xəttinin arxasındakı ən riskli hədəflərə qarşı effektivlik göstərə biləcək. Baykar "Kemankeş" 200 kilometr xidmət və 50 kilometr rabitə məsafəsinə malikdir. Bundan əlavə, süni intellektlə dəstəklənən avtopilot sistemi ilə avtonom uçuş həyata keçirərək strateji hədəfləri yüksək dəqiqliklə zərərsizləşdirəcək və döyüş meydanında tarazlığı dəyişərək çətin hava şəraitində belə onu tam dəqiqliklə məhv etmək qabiliyyətinə sahib olacaq. Gecə və gündüz şəraitində istifadə oluna bilən "Kemankeş" 2 Mini Ağıllı Kruiz Raketi tıxaclara qarşı texnologiyası sayəsində elektron tıxaclardan təsirlənmədən işləyə biləcək. Raket əldə etdiyi bütün məlumat və şəkilləri yer idarəetmə stansiyasına ötürərək istifadəçiyə məlumatların izlənməsində dəstək verəcək.

Onu da qeyd edək ki, Türkiyə müdafiə sənayesi inkişaf etmiş sursat ekosisteminə malikdir. ROKETSAN və TÜBİTAK-SAGE həlləri illər ərzində döyüş meydanlarında özünü sübut edib. Baykar tərəfindən istehsal olunan PUA-lar da bu həllərlə təchiz edilib. Baykar həm də dünyanın ən böyük İHA ixracatçısıdır. Şirkətin imzaladığı müqavilələrin 97.5 faizi ixraca əsaslanır. Bütün layihələrini öz imkanları hesabına həyata keçirən Baykar gəlirinin 83 faizini ixracdan əldə edib. Bu sahədəki uğurları ilə hətta qlobal texnologiya şirkətlərini də geridə qoyub.

Baykar bu günə qədər hökumətdən heç bir nağd qrant dəstəyi almayıb. Bütün layihələrini 100 faiz öz resursları ilə maliyyələşdirir. Şirkət vergilər və ianələr hesabına Türkiyəyə birbaşa olaraq ümumilikdə 12.2 milyard lirə yardım edib. Bundan əlavə, 2023-cü ildə Türkiyəyə 800 milyon TL gəlir vergisi ödəyib.

Baykar bütün investisiyalarını öz resursları hesabına qarşılayır. Şirkətdə minlərlə işçi çalışır və gənc mühəndislərə üstünlük verilir. O, Türkiyənin müdafiə sənayesində əhəmiyyətli bir oyunçu olaraq fəaliyyətini davam etdirir. Digər tərəfdən, "Kemankeş"in ala biləcəyi müdafiə texnologiyalarının istiqaməti də "Baykar"ın bir sursat istehsalçısı olaraq necə bir yol xəritəsi təyin etdiyinə dair ipucu verir.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin Türkiyə üzrə müxbiri.**

# Gizli düşmən ram edilir





**44 günlük Vətən müharibəsi şanlı qələbəmizlə başa çatdı. Lakin müharibə bitdikdən sonra Azərbaycan üçün yeni bir problem yarandı. Harada, nə vaxt partlayacağı bilinməyən gizli təhlükə mənbəyi minalar. Ermənistan 30 illik işğal dövründə torpaqlarımızı təkcə talan etməyib, əraziləri mina tarlalarına çevirib. Bu səbəbdən də Azərbaycan dünyada minalarla, partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələr sırasında yer alır. İkinci Qarabağ müharibəsində Azərbaycan Ermənistanın əsrlərlə davam edən ərazi iddiasına layiqli cavab verərək problemi kökündən həll etdi. Doğrudur, dövlətimiz bu Zəfərlə ərazilərini əsarətdən, işğaldan azad etsə də hələ də torpağın altındakı təhlükəni tam zərərsizləşdirə bilməyib.**

Qarabağ və Şərqi Zəngəzurun yenidən tikilib bərpa edilməsi, davamlı inkişafı və dirçəlişi bu təhlükənin aradan qaldırılmasından çox asılıdır. Mövcud problem tikinti-quruculuq işlərinə maneçilik törədir, irimiqyaslı layihələrin sürətinə mənfi təsirini göstərir. Çünki keçmiş məcburi köçkünlərin məskunlaşdırılması və regionun iqtisadi inteqrasiyası prosesi mina problemi həll edilmədən mümkün deyil. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, orada istənilən fəallıq, istənilən inkişaf minalardan təmizləmə işindən asılıdır: "Ona görə, biz həm sürəti artırmalıyıq, eyni zamanda minalardan təmizləmə işi elə aparılmalıdır ki, yenə də deyirəm, o işlər başa çatandan sonra hər hansı bir təhlükə olmasın. Azad edilmiş torpaqlarda minalardan başqa, partlamamış sursatlar da kifayət qədər çoxdur, bu da təbiidir. Çünki müharibə dövründə gedən döyüşlər təbii ki, azad edilmiş torpaqlarda partlamamış sursatların çoxluğuna səbəb olmuşdur. Odur ki, əraziləri bu sursatlardan təmizləmək də böyük zəhmət tələb edən məsələdir".

Problemin aradan qaldırılması dövlətimizin öz daxili gücü hesabına həyata keçirilir. Sözsüz ki, bu işdə ANAMA ölkədə minatəmizləmə fəaliyyətini həyata keçirən əsas qurumdur. Müharibə başa çatandan sonra təşkilatın qarşısında çox çətin və məsuliyyətli vəzifə durur, öz işini layiqincə yerinə yetirərək işğaldan azad olunan ərazilərə dönən qarabağlıların təhlükəsiz yaşayışını təmin etmək. Düzdür, xarici tərəfdaşlar, beynəlxalq təşkilatlar da Azərbaycana dəstək göstərməyə çalışırlar. Lakin minatəmizləmə işinin 90 faizi qeyd etdiyimiz kimi, ölkənin öz daxili imkanları hesabına aparılır. Hələ illər əvvəl Azərbaycanla Ermənistan arasında Qarabağ münaqişəsi ilə bağlı gərgin danışıqların getdiyi bir dövrdə ümummilli lider Heydər Əliyev işğaldan azad olunacaq torpaqlarımıza geri qayıdacaq məcburi köçkünlərin təhlükəsizliyini düşünür və bu istiqamətdə tədbirlər görürdü. Belə ki, 1998-ci il iyulun 18-də Prezident Heydər Əliyevin Fərmanı əsasında yaradılan ANAMA bu gün minatəmizləmə prosesinə öz töhfəsini verir. 300 nəfər şəxsi heyətlə işə başlayan ANAMA-nın artıq 1400 nəfər işçisi var. Qələbədən üç ildən artıq vaxt keçməsinə baxmayaraq, gizli təhlükə olan mina terroru hələ də davam edir. Bu da bərpa və yenidənqurma işlərini həm ləngidir, həm də insanların həyat və sağlamlığına ciddi təhlükə yaradır. Qarabağa Böyük Qayıdışı həzm edə bilməyən haylar mina terroru ilə soydaşlarımızın öz yurd-yuvasına qayıtmasını ləngitmək istəsələr də Azərbaycan dövləti bu problemin öhdəsindən layiqincə gəlir.

Bəzi Qərb dövlətləri tərəfindən dəstək alan ermənilər uzun müddət bu məsələni xəbis niyyətlə həyata keçirmişlər. Beynəlxalq təşkilatlar isə problemi qlobal səviyyədə həll etməkdə laqeydlik göstərirlər. Bu gün Azərbaycanın apardığı minatəmizləmə fəaliyyəti dünyada mövcud olan ən müasir və qabaqcıl texnologiyalardan istifadə etməklə həyata keçirilir. Ermənistan Azərbaycan ərazisində təqribən 1,5 milyona yaxın mina basdıraraq 9 min kvadratkilometrə yaxın ərazini çirkləndirib. 2020-ci ilin noyabrından bu günə qədər aparılan minatəmizləmə əməliyyatları nəticəsində ümumilikdə 111 min 207 hektar ərazi minalardan və partlayıcı qalıqlardan təmizlənib. Ümumilikdə 109 min 552 mina və müharibənin digər partlayıcı qalıqlar, o cümlədən 30 min 753 piyada əleyhinə mina, 18 min 531 tank əleyhinə mina və 60 min 268 partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib.

Bu gizli terror əsgər və mülki şəxslər də daxil olmaqla, ətraf mühit, ekologiya, o cümlədən digər canlılar üçün də risk yaradır. İkinci Qarabağ müharibəsi başa çatandan bu vaxta qədər 350 vətəndaşımız mina qurbanına çevrilib, onlardan 65-i həlak olub, 285-i isə ağır yaralanıb. Ermənistan Azərbaycana qarşı hərbi təcavüzə başladığı ilkin dövrdən indiyədək 3429-a yaxın vətəndaşımız minalardan zərər çəkib, onlardan 595-i həyatını itirib. Mina qurbanlarından 357-si uşaq, 38-i isə qadındır. Düşünülmüş şəkildə həyata keçirilən mina terroru onu deməyə əsas verir ki, illər əvvəl ermənilər çox gözəl anlayırdılar ki, gec-tez Azərbaycan öz torpaqlarını işğaldan azad edəcək. Bu səbəbdən də əsasən Ermənistanda istehsal edilən milyonlarla mina və digər partlamamış silahlar ərazilərimizdə basdırılıb. Proses Qarabağ ərazisində qalan erməni silahlı dəstələri və separatçılar tərəfindən davam etdirilib. Məsələ ilə bağlı Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov 2023-cü ilin sentyabr ayında BMT Təhlükəsizlik Şurasının iclasındakı çıxışı zamanı bildirmişdi ki, 2020-ci ildə imzalanan üçtərəfli Bəyanatdan sonra Qarabağ və Şərqi Zəngəzurda 2022-ci ilin avqust ayından indiyədək Ermənistanda istehsal edilmiş 2 728 mina aşkarlanaraq zərərsizləşdirilib.

44 günlük Vətən müharibəsindən sonra ölkəmiz öz ərazilərində minatəmizləmə işlərini davam etdirməklə yanaşı, qlobal miqyasda da bu işə əhəmiyyətli töhfə verir. 2023-cü ilin mayında Ağdamda "Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol" mövzusunda beynəlxalq konfrans, noyabrın 28-də isə Bakıda "Mina təhlükəsi ilə mübarizə: innovasiyalar və qabaqcıl təcrübələr" mövzusunda beynəlxalq texniki konfrans keçirilmişdir.

İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi dövlətimizin əsas hədəflərindəndir. Azərbaycan bu məqsədlə bütün imkanlarını səfərbər edərək gələcək mina risklərinin qarşısının alınması məqsədilə topoqrafik məlumatların Azərbaycana verilməsi üçün Ermənistanla təmasları davam etdirir. Təəssüflər olsun ki, Ermənistan bu işdə də qeyri-obyektivlik nümayiş etdirərək mina xəritələrini hələ ki, doğru şəkildə vermir və bununla da "Müharibə qurbanlarının müdafiəsi haqqında" 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyasının tələblərini kobud şəkildə pozur. BMT-nin 1999-cu ildə qəbul etdiyi "Piyadalara qarşı minaların tətbiqi, ehtiyatının toplanması, istehsalı və verilməsinin qadağan edilməsi haqqında" Konvensiyanın müddəalarına da qonşu dövlət tərəfindən əməl edilmir. Nəticədə təhlükə bu gün də davam edir və günahsız insanlar mina terrorunun qurbanına çevrilir. Aprelin 12-də Ağdam rayonunun Əliağalı kəndi ərazisində mina hadisəsi baş verib. 1965-ci il təvəllüdlü Bağırov Mirfəttah Bağır oğlu və 1973-cü il təvəllüdlü Teymurov Xəqani Allahverdi oğlu keçmiş təmas xətti yaxınlığında, minalardan təmizlənməmiş ərazidə piyada əleyhinə minaya düşüb. Hər iki şəxs ayağından xəsarət alıb. Bütün bunlara baxmayaraq, gizli düşmən ram edilir, torpaqlarımız ciddi səylə təmizlənir.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

# İranın Ermənistanla "kölgə əlaqəsi"

**(əvvəli 1-ci səhifədə)**

Onun sözlərinə görə, İran da öz növbəsində Ermənistan üçün Fars və Oman körfəzləri ölkələrinə açılan pəncərədir: "Yaxın vaxtlarda biz yükdaşımalarda yaxşı razılaşmalar əldə edəcəyik. Hazırda tranzit tariflərinin və yol rüsumlarının azaldılması barədə müzakirələr aparırıq". Qeyd edək ki, İran Fars körfəzi-Qara dəniz beynəlxalq nəqliyyat dəhlizi layihəsinin sürətlə həyata keçirilməsi üçün 2016-cı ildən fəal işləyir. Hazırda Yunanıstan tərəfinə görə layihənin icrası gecikir. Belə ki, rəsmi Afinanın digər iştirakçı ölkələrlə sazişin bəzi bəndləri ilə bağlı fikir ayrılığı var. Beynəlxalq nəqliyyat dəhlizi layihəsində rəsmi olaraq Ermənistan, Bolqarıstan, Gürcüstan və Yunanıstan iştirak edir. Dəhlizin İrəvan və Tiflis vasitəsilə Tehranı Avropa ilə birləşdirməsi və iştirakçı ölkələrin tranzit imkanlarını artırması nəzərdə tutulub.

Mehdi Sobhani digər bir çıxışında avropalı səfirlərin İran-İsrail münaqişəsinə dair yazdıqlarına reaksiya verərkən deyib ki, İkinci Qarabağ müharibəsində erməni əsgərlər İsrail silahları ilə öldürülüb. Bu isə o mənaya gəlir ki, M.Sobhani artıq ermənilərin yalan təbliğatının bir parçasına çevrilib. Xüsusilə də İranın din cəhətdən prioritetlərini nəzərə alsaq, bu açıqlama həqiqətən də absurddur. Cənub qonşumuzun rəsmiləri din qardaşlarının itkilərinə heç bir reaksiya vermir, lakin ermənilər üçün göz yaşı tökürlər. Halbuki Ermənistan müharibə zamanı azərbaycanlı mülki şəxsləri, məsum uşaqları hədəf almışdı.

İranın bəzi siyasi dairələri Ermənistanla münasibətlərə az qala qardaşlıq kimi baxırlar. Hətta 44 günlük müharibə zamanı bəzi iranlı deputatlar Ermənistanı dəstəkləyib. Azərbaycan həm İsrail, həm də Türkiyə ilə möhkəm əlaqələr qurub. Bu münasibətlər tərəflərə ciddi təsir göstərməyib. Çünki Azərbaycan müstəqil xarici siyasəti ilə tanınır. Lakin İrandan Ermənistana silah daşınması və İranın bəzi siyasi xadimlərinin Ermənistana dəstək ifadələri narahatlıq yaradır. Çünki İranın "IranAir" aviaşirkətinə məxsus "Boinq-747" yük təyyarəsi son mart-aprel aylarında beş dəfə Tehrandan İrəvana uçuş edib. Qeyd edək ki, bu hava nəqliyyatı əsasən silah daşımaq üçün istifadə edilib.

Ermənistan mediasında yayılan xəbərlərdə isə qeyd olunur ki, İranla kollektiv Qərb arasında sülh Ermənistan üçün çox vacib idi. Vurğulanıb ki, rəsmi Tehranla Paris Ermənistanın sərhədlərinin toxunulmazlığının təmin edilməsində razılığa gəliblər. Bunun isə öz səbəbləri var - Ermənistan ərazisindən İranla Avropanı birləşdirən Beynəlxalq Nəqliyyat Dəhlizi. Regionun sürətlə dəyişən geosiyasi mənzərəsi fonunda baş verən son proseslər diqqəti İranın artan maraqlarına, xüsusən də Ermənistanla münasibətlərinə yönəldib. Ermənistanın Qərb dövlətləri ilə həmrəyliyi regionun narahatlığına səbəb olsa da, İranın pərdəarxası hərəkətləri onun əsl niyyəti ilə bağlı suallar yaradır.

Ermənistanın tədricən Qərbə doğru yönəlməsi, Avropa İttifaqı və NATO-ya can atması, İranın strateji maraqlarına da öz təsirini göstərir. Rəsmi İrəvanın iqtisadi cəhətdən irəliləmə cəhdləri və Qərb dairələrinə inteqrasiya istəkləri cənub qonşumuzdan da təsirsiz ötüşməyib.



İranın Ermənistandakı maraqları zahirdə məsum görünsə də, əsas motiv fərqlidir. İqtisadi stimullar, strateji mövqe və regional təsirə can atma ehtimalı İranın regional münasibətlərinə təsir edir. Ermənistan bəzi ölkələrlə münasibətdə onun kölgəsinin arxasında qalır və təsir altına düşür. Bu da get-gedə rəsmi İrəvan üçün qaranlıq bir mənzərə yaradır. Cənub qonşumuz gözəgörünməz qüvvə olmağa çalışsa da regionda təxribatçı təsirə malikdir. Yəni İran da Ermənistanla "kölgə əlaqəsi"nə sahib ölkələrdən biridir.

Geosiyasi dinamika inkişaf etdikcə, İranın bölgədəki maraqlarının təsirləri Yaxın Şərqin və onun hüdudlarından kənarda imperativ rolunu oynayır. Beynəlxalq nəqliyyat dəhlizi layihəsi və İranın Ermənistana gizli dəstəyinin gündəmdə olduğu bir vaxtda regionda geosiyasi mənzərəni yenidən müəyyən etmək təhlükəsi getdikcə artır.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**



# İnfantil Makron diplomatik nümayəndəliyi oyuncağa çevirib

**(əvvəli 1-ci səhifədə)**

Nailiyyətlərimizə kölgə salmaq üçün başladığı dezinformasiya kampaniyaları nəticə verməyəndə isə rəsmi Paris milli-mədəni irsimizi hədəf alıb. Azərbaycan şairi Natəvanın Evian şəhərindəki abidəsi vandalizmə məruz qalıb. Heykəlin burnu və barmaqları qırılıb, gözləri, eləcə də adının yazıldığı hissələr qırmızı rəngə boyanıb. Bu hadisədən sonra Fransanın hakimiyyət orqanları boyanı yumaq və heykəli bərpa etmək əvəzinə onu 1-2 ay müddətində bükülmüş vəziyyətdə saxlayıblar.

Aprelin 2-də Fransanın xarici işlər naziri Stefan Sejurne Parisdə ABŞ Dövlət katibi Antoni Blinkenlə birgə mətbuat konfransında fürsətdən istifadə edərək Azərbaycan əleyhinə təbliğat aparıb. O, rəsmi Bakının Ermənistanın ərazi bütövlüyünü təhdid etdiyini deyib. 30 il Azərbaycanın beynəlxalq səviyyədə tanınan torpaqları işğal altında olarkən bir dəfə də olsun rəsmi İrəvanın ünvanına ittiham səsləndirməyən Fransa Cənubi Qafqazda revanşist əhvali-ruhiyyəni qızışdırmağa, bu ölkəyə hərbi dəstək verməyə və Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını əngəlləməyə çalışır. Regionda münaqişəni qızışdırıb sonra isə yüksək tribunalardan "humanizm" və "demokratiya"dan dəm vuran rəsmi Paris indi də yeni bir gediş edib. Bu ölkə Azərbaycandakı səfirini geri çağırıb. Fransa Xarici İşlər Nazirliyi diplomatla məsləhətləşmələr aparmaq üçün belə bir addım atıldığını bildirib. Artıq səfir Ann Buayon Fransadadır və Prezident Emmanuel Makronun qəbulundadır. Bu gediş əslində iki ölkə arasındakı münasibətlərin faktiki vəziyyətini ortaya qoyur. Çünki adətən səfirlərin geri çağırılması diplomatik əlaqələrin tamamilə qopması kimi şərh olunur və növbəti mərhələdə səfirliklərin bağlanması ilə nəticələnir. Yəni Fransanın Buayonu məsləhətləşmələr üçün geri çağırması Parisin anti-Azərbaycan siyasətinin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Üstəlik, əgər məqsəd həqiqətən də məsləhətləşmək, müzakirə aparmaqdırsa, bunun üçün diplomatın Parisə getməsinə nə ehtiyac var? Deməli, Fransa Ermənistana görə Azərbaycanla münasibətləri korlamaqdan çəkinmir, əlindən gələn hər şeyi edir və bunu dünyaya göstərmək istəyir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib ki, ölkəmizin razılığı əsasında Fransanın 25 ilə yaxın müddətdə vasitəçilik roluna baxmayaraq, 2020-ci il Vətən müharibəsindən sonra rəsmi Parisin açıq-aşkar anti-Azərbaycan addımları hər kəsə məlumdur. Fransa xüsusilə son 3 il yarım müddətdə atdığı addımlar ilə Azərbaycanla Ermənistan arasında suverenlik və ərazi bütövlüyü əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyub və vəziyyətin gərginləşməsinə rəvac verib. Nazirliyin nümayəndəsi qeyd edib ki, Fransa tərəfi rəsmi Bakını birtərəfli hərəkətlərdə təqsirləndirsə də Azərbaycanın Yelisey Sarayına qarşı addımları və verdiyi bəyanatlar yalnız bu ölkənin destruktiv fəaliyyətinə cavab xarakterli olub:

"Məhz Fransada hakim partiyanın nümayəndələrinin təşəbbüsü ilə Fransa parlamentində ölkəmizə qarşı çoxsaylı əsassız ittihamların, təhqir və təhdidlərin əks olunduğu, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini sual altına qoyan və xələl gətirən, keçmiş qondarma rejimi tanıyan qərar və qətnamələr qəbul edildiyini xatırlatmaq istərdik. Bu müddət ərzində Fransa ərazisində mövcud olan Azərbaycanofob mühitin nəticəsi olaraq səfirliyimizə qarşı dəfələrlə hücumların edilməsi və səfirliyin binasına zərər yetirilməsi, nəhayət ağlasığmaz addım kimi XIX əsr görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın büstünə qarşı vandallıq aktlarının törədilməsi və hökumət tərəfindən bunun qarşısının alınması üçün tədbirlər görülməməsi Fransanın Azərbaycan əleyhinə kampaniyasının tərkib hissələridir".

Bir sözlə, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, bölgədə militarizmi təşviq edən Fransanın addımlarının sülhə xidmət etmədiyi gün kimi aydındır. Bunun fonunda rəsmi Bakı öz milli maraqlarının qorunması üçün bütün zəruri tədbirləri görməkdə davam edir. Yəni Fransa səfirinin nümayişkaranə şəkildə Parisə çağırılması ölkəmizi də adekvat addıma məcbur edə bilər.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**




HADİSƏLƏR KONTEKSTİNDƏ








# Serbiya Azərbaycanla əməkdaşlıqda maraqlıdır



*Azərbaycanla əməkdaşlıq əlaqələrini uğurla inkişaf etdirən ölkələrdən biri də Serbiyadır. Serbiya Respublikası Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlər sırasında yer alır. Ölkəmizin xarici siyasətində Mərkəzi və Şərqi Avropa ölkələri, eləcə də Serbiya Respublikası ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi önəmli istiqamətlərdən birini təşkil edir.*

Ölkələrimiz arasında diplomatik münasibətlər 1997-ci il avqustun 21-də qurulub. 2011-ci ilin fevral ayında Serbiyanın ölkəmizdə, həmin il iyunun 8-də Azərbaycanın Serbiyada səfirliyi fəaliyyətə başlayıb. Ölkələr arasında siyasi dialoq daim yüksək səviyyədə olub. Dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlər bunun əyani göstəricisidir. Bu cür səfərlər rəsmi Bakı ilə Belqrad arasında əməkdaşlıq sahələrinin genişləndirilməsi və dərinləşdirilməsinə münbit şərait yaradıb.

2011-ci il iyunun 8-9-da Azərbaycan Prezidenti İlham Əliyev Serbiyaya rəsmi səfər edib. Dövlətimizin başçısı səfər çərçivəsində Belqradın Taşmaydan parkında ulu öndər Heydər Əliyevin abidəsinin, həmçinin Novi Sad şəhərində dahi bəstəkar Üzeyir Hacıbəylinin büstünün açılışlarında iştirak edib. Serbiya prezidentləri də öz növbəsində ölkəmizə bir neçə dəfə səfərə gəliblər. Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin ilk dəfə ölkəmizə səfəri 2018-ci il 21-22 may tarixində baş tutub.

Dövlətimizin başçısının 2022-ci il 23 noyabr tarixli Serbiyaya rəsmi səfəri çərçivəsində Prezident Aleksandar Vuçiçlə birgə "Azərbaycan Respublikası Prezidenti ilə Serbiya Respublikası Prezidenti arasında Birgə Bəyanat"ı, "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandum"u və onun əlavəsi olan "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının Əsasnaməsi"ni imzalayıblar.

Beynəlxalq müstəvidə hər iki ölkə bir-birinin suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə qarşılıqlı surətdə dəstəkləyib, bu məsələdə ikili standartları qəbuledilməz hesab edib. Beynəlxalq platformalarda Azərbaycan və Serbiya dövlətlərinin nümayəndəlikləri prinsipial önəm daşıyan məsələlərin həllində də birgə vahid mövqe nümayiş etdiriblər. 2008-ci il martın 14-də Azərbaycanın təklif etdiyi "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət haqqında" qətnamə layihəsinin qəbulu zamanı BMT Baş Assambleyasında keçirilən səsvermədə Serbiya təmsilçiləri ədalətli yanaşma sərgiləyərək lehimizə səs veriblər.

Ölkələr arasında bu günə qədər onlarla sənəd imzalanıb. Bu sənədlər arasında 2013-cü ildə imzalanmış "Dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında" Bəyannamə və 2018-ci ildə imzalanmış "Strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı" xüsusi önəmə malikdir. Bu sənədlərdə keçmiş Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsip və normalarına, BMT Təhlükəsizlik Şurasının qəbul olunmuş qətnamələrinə, eləcə də ATƏT-in qərarlarına uyğun olaraq ölkəmizin suverenliyi, ərazi bütövlüyünün toxunulmazlığı çərçivəsində tezliklə həll olunmasının dəstəkləndiyi bildirilib.

Azərbaycan da hər zaman Serbiyanın suverenliyini və ərazi bütövlüyünü tam olaraq dəstəkləyib, Kosovanı müstəqil dövlət kimi tanımayıb və bunu daim yüksək tirbunalardan bəyan edib. Məhz bu səbəbdən aprelin 16-da Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Prezident İlham Əliyevə zəng edib və son dövrlərdə Serbiyanın məruz qaldığı təzyiqlər haqqında məlumat verərək dost Azərbaycan xalqının dəstəyini xahiş edib. Dövlətimizin başçısı Azərbaycan və Serbiyanın qarşılıqlı surətdə həmişə bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiklərini bildirərək bundan sonra da bu mövqenin davam etdiriləcəyini vurğulayıb.

İki ölkə arasında enerji sahəsindəki əməkdaşlıq da yüksələn xətlə inkişaf edir. 10 dekabr 2023-cü ildə Prezident İlham Əliyev Serbiya Respublikasına işgüzar səfəri zamanı Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində iştirak edib. Sözügedən layihə həm Serbiya və Bolqarıstanın enerji təhlükəsizliyinə böyük töhfə verir, həm də Azərbaycanın qaz ixracı coğrafiyasını daha da genişləndirir.

**M.FİRİDUNOĞLU,
"Respublika".**

# Rusiya sülhməramlılarının ərazilərimizdən vaxtından əvvəl çıxarılması qarşılıqlı razılığa əsaslanır

**Qarabağ iqtisadi regionunda müvəqqəti olaraq yerləşdirilmiş Rusiya sülhməramlılarının ölkəmizi tərk etməsi prosesinə artıq başlanılıb. Sözügedən məsələni Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev təsdiqləyib. O bildirib ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlılarının ölkəmizin ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilib: "Artıq proses başlanıb, Azərbaycan və Rusiya Müdafiə nazirlikləri həmin qərarın icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirirlər".**







Sosial mediada həmin proseslə bağlı yayılan videogörüntülərdə sülhməramlı kontingentin Qarabağ istiqamətindən çıxaraq Azərbaycanı tərk etməsi zamanı Tərtər və Bərdə rayonlarından keçdiyi əks olunub. Sülhməramlı kontingent Kəlbəcərin Xudavəng monastırındakı postu tərk edərək, memarlıq abidəsinin mühafizəsini Azərbaycan polisinə təhvil verib.

Qeyd edək ki, 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Üçtərəfli Bəyanata imza atıblar. Həmin sənədin 3-cü bəndinə əsasən Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingent Qarabağ ərazisində yerləşdirilib. Bəyanatın 4-cü bəndində sülhməramlı kontingentin qalma müddətinin 5 il olduğu və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı Tərəflərdən hər hansı biri çıxış etmədiyi təqdirdə, müddətin avtomatik olaraq növbəti dəfə 5 ilə uzadılması göstərilib.

Lakin 2023-cü ilin 19-20 sentyabrında Qarabağda keçirilən uğurlu antiterror tədbirlərində qondarma rejimin ləğvi və ermənilərin könüllü olaraq ərazini tərk etməsindən sonra həm Ermənistan faktiki olaraq prosesdən kənarda qaldı, həm də sülhməramlıların missiyası de-fakto bitmiş hesab olunurdu. Bununla da sülhməramlı kontingentin aqibətinin necə olacağı yalnız rəsmi Bakı ilə Moskva arasında müzakirə predmetinə çevrilib. Rusiya rəsmiləri də dəfələrlə bu barədə danışarkən bildiriblər ki, sülhməramlıların Qarabağdakı taleyinin Ermənistana heç bir aidiyyəti yoxdur. Bu ilin yanvar ayında Rusiyanın xarici işlər naziri Sergey Lavrov Nyu-Yorkda keçirilən mətbuat konfransında qeyd etmişdi: "Qarabağı hər kəs Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyıb. Bizim orada faktiki olaraq sülhməramlılarımız var. Amma bu məsələ artıq Ermənistan tərəfinə aid deyil. Bu, Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərə aid olan məsələdir. Hazırkı mərhələdə rus sülhməramlılarının mövcudluğu regionda sabitliyin möhkəmlənməsində müsbət rol oynayır".

44 günlük Vətən müharibəsini qalib başa vuran Azərbaycana sülhməramlıların gəlməsi və bundan sonra Qarabağdakı fəaliyyəti müəyyən qədər ictimai narazılığa səbəb olmuşdu. Lakin bu gün baş verən hadisələrə nəzər saldıqda dövlət başçımızın "nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" fikrinin nə dərəcədə mühüm olduğu bir daha öz təsdiqini tapır. İlk növbədə Azərbaycanın Rusiya sülhməramlılarının Qarabağa gəlişinə razılıq verməsi, Ermənistanla münaqişənin bitməsi, qələbənin təsdiqlənməsinə hesablanmış addım idi. Əgər müharibə aparmış iki ölkə ordusu arasında sülhməramlılar olmasaydı, müharibə bitsə belə münaqişənin bitmədiyi görüntüsü verərdi. Azərbaycan bu gedişi etməklə həm də Qarabağ məsələsində xüsusi "canfəşanlıq" göstərən ABŞ və Fransanın müdaxilə cəhdinin qarşısını ala bildi. Dövlət başçımızın səbir və təmkinlə verdiyi qərarların Azərbaycanın taleyində nə dərəcədə mühüm rol oynadığının şahidi oluruq. Prezident İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində ölkəmiz postsovet məkanında öz ərazi bütövlüyünü və suverenliyini tam təmin etməyi bacarmış yeganə dövlətdir. 2020-ci ildə Vətən müharibəsinin başlanması və lazımi yerdə başa çatması, eləcə də 2023-cü ilin payızında antiterror tədbirlərinə vaxtında start verilməsi atılan bütün addımların vahid plan əsasında olmasından xəbər verir. Hələ Üçtərəfli Bəyanatdan dərhal sonra ölkə daxilində və xaricində bəzi şəxslər əsasız fikirlər irəli sürüb, müxtəlif "proqnozlar" verirdilər. Həmin iddialarda guya Xankəndi, Xocalı, Ağdərə və Xocavəndin Azərbaycandan qoparılması və sülhməramlı kontingentin əbədi olaraq bu torpaqlarda qalması fikirləri xüsusi yer alırdı. Ötən ilin oktyabr ayında dövlət başçısının Xankəndidə Azərbaycan bayrağını ucaltması həmin iddiaların nə qədər cılız və qərəzli yanaşmalardan yarandığını sübut etdi. O cümlədən Rusiya sülhməramlı kontingentinin də Azərbaycanı tərk etməyə başlaması atılan böhtanların növbəti dəfə iflasa uğramasıdır. Hansı ki, həmin qüvvələr sülhməramlıların ərazilərimizdən çıxarılması məsələsində iki ölkənin fikir ayrılığı yaşayacağını gözləyirdilər. Sülhməramlı kontingentin Azərbaycan ərazisindən vaxtından əvvəl çıxarılması barədə qərarın hər iki ölkənin ali rəhbərliyi tərəfindən qəbul edilməsi mühüm tarixi hadisə kimi qiymətləndirilə bilər.

**Musa BAĞIRLI,
"Respublika".**

# Hay utopiyasında destruktivlik hökm sürür

*Rəsmi İrəvan sülh prosesindən getdikcə uzaqlaşır. Xüsusilə postmüharibə dövründə düşmən tərəf verilən vədlərə xilaf çıxır. Ermənistan şərti sərhəddə törətdiyi təxribatlarla hərbi-siyasi elitanın revanşist mövqeyini ortaya qoyur. "Hay utopiyası"nda destruktivlik dalğası hökm sürür ki, bu da dövlətçiliyin itirilməsi ilə nəticələnə bilər. Dünən Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter Azərbaycan Ordusunun mövqelərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib. Tovuz rayonunun Ağdam yaşayış məntəqəsi istiqamətində müəyyən edilən kvadrokopter bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunub və zərərsizləşdirilərək müsadirə edilib.*



İstər baş nazir Nikol Paşinyanın, istərsə də Ermənistan parlamentinin hələ də xəbis xülyalardan oyanmadığı müşahidə edilir. Qərb bloku və rəsmi Vaşinqtonun regiona neqativ təsirləri fonunda hayların şirnikləndirilməsi - hərbi-iqtisadi dəstəyin intensivliyi Ermənistanı eyforiyaya sürükləyir. Məhz bu dəstəyə görə aqressor Cənubi Qafqazda terrorçuluq fəaliyyətini gücləndirir. Paşinyan rejimi beynəlxalq görüşlərdə özlərini nə qədər sülh tərəfdarı kimi qələmə versələr də, təxribatların ardı-arası kəsilmir. Əslində Ermənistan tərəfi bununla beynəlxalq hüququ, həmçinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın 4-cü bəndində təsbit olunmuş öhdəlikləri ciddi şəkildə pozur. Sözügedən təxribat cəhdləri düşmən tərəfin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini bir daha işğal etməyə çalışdığını göstərir və bununla yanaşı, Böyük Qayıdış proqramının icrasını çətinləşdirir. Haylar regionda ədalətli və dayanıqlı sülhün bərqərar olmasına ciddi əngəl yaradırlar. Ermənistan tərəfi bu təxribatlarla fundamental insan hüquq və azadlıqlarını kobud şəkildə pozur. Bütün bunlar bir daha deməyə əsas verir ki, işğalçı ölkənin niyyəti sülhdən boyun qaçırmaqla regionda öz çirkin əməllərini reallaşdırmaqdır.

Reallıq bundan ibarətdir ki, Ermənistanda bu günə qədər mövcud olmuş hakim qüvvələr eyni ritorikanı qoruyub saxlayırlar. Xüsusilə daxili çaxnaşmalar zamanı şərti sərhəddə təxribatlar buna xidmət edir. Eyni zamanda hayların Nikol Paşinyana qarşı üsyanları artmaqdadır. Baş nazir öz hakimiyyətinin ömrünü uzatmaq üçün sülh sazişindən imtina edir və təxribatlar həyata keçirərək revanşist hayları yeni müharibə üçün ümidləndirir.

Digər tərəfdən məlumdur ki, beynəlxalq hüququn sayğacı rəsmi İrəvanda dondurulub. Ermənistan üçün heç bir beynəlxalq hüquq norması, qadağa yoxdur. Buna 30 il boyunca səssiz qalan "ədalət qoruyucuları"nın səriştəsizliyi əyani misaldır. 5 aprel görüşündən sonra Ermənistan kollektiv Qərbin "isti" münasibəti ilə öz məkrli niyyətini həyata keçirməyə çalışır.

5 aprel görüşünün mənfi təsirləri artıq şərti sərhəddə özünü göstərir. Məhz görüş keçirilməzdən əvvəl də rəsmi İrəvanın təxribatları intensivləşdirdiyi müşahidə olunurdu. Atəşkəsin pozulması faktı, Naxçıvanla şərti sərhəddə ordu yığılması və istehkamlar qurulması buna əyani sübutdur. Qeyd etmək lazımdır ki, atəşkəsin pozulması faktoruna münasibət bildirən rəsmi İrəvan bu hadisənin nəzarətdənkənar baş verdiyini bildirərək məsuliyyəti boynundan atıb. Əlbəttə ki, Naxçıvanla şərti sərhəddə baş verən təxribatın sifarişçiləri beynəlxalq ictimaiyyəti aldatmağa çalışır.

Xüsusilə aprelin 5-də Brüsseldə keçirilən konfransın pərdəarxasında və beynəlxalq ictimaiyyətə verilən açıqlamalarda da göründüyü kimi, haylar məhz bu kimi dividendlərə arxalanır. Ermənistan ABŞ və Avropa Birliyindən aldığı müəyyən vədlərlə regional destabilliyi qorumağa çalışır. Halbuki görüşdən öncə ABŞ Dövlət katibi Antoni Blinken və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen rəsmi Bakının "başının altına yastıq" qoymaq istəyirdilər ki, öz maraqlarını həyata keçirə bilsinlər. Bununla yanaşı, Brüsseldə keçirilən görüş heç də bildirildiyi kimi təkcə iqtisadi məsələlərə həsr edilməyib. Xüsusilə ABŞ-ın Ermənistan üçün yeni hərbi doktrina hazırlanması ətrafında səyləri daha da intensivləşib. Qeyd edək ki, mövcud plana əsasən Ermənistanın milli təhlükəsizlik məsələləri çərçivəsində rəsmi Vaşinqton əsaslı "yardım" paketi hazırlayıb. Ağ ev həmçinin Ermənistanın qabaqcıl hərbi texnikaları və yeni texnologiyaları əldə etməsi üçün Xarici Hərbi Maliyyələşdirmə (FMF) vəsaiti proqramını daha əlverişli edəcək. Əlbəttə ki, "qrant" vəsaiti adı altında hayların dirçəldilməsi məsələsi məhz bu proqram vasitəsilə reallaşdırılacaq. "Özünümüdafiə" adı altında haylara dəstək verən ABŞ-ın fəaliyyəti bununla da bitmir. Belə ki, Ermənistan ordusunun nizami qaydaya salınması üçün ABŞ Beynəlxalq Hərbi Təhsil və Təlim (IMET) proqramı tətbiq ediləcək. Yəni haylar ABŞ hərbi akademiyalarında təlim keçmək imkanı qazanacaq.

ABŞ-ın dəstəyinə paralel olaraq Avropanın da Ermənistan üçün yeni planları var. Rəsmi İrəvanın NATO ilə tərəfdaşlığının genişləndirilməsi nəzərdə tutulur ki, bu da Fərdi Tərəfdaşlıq Proqramı (PARP) və Əməliyyat İmkanları Konsepsiyasını (OCC) gündəmə gətirir. Bununla yanaşı, Ermənistan silahlı qüvvələrinə dəstək məqsədilə Avropa Sülh Fondu çərçivəsində yardım paketini qəbul edəcək. Bu paket Ermənistanın müdafiə sektorunda milli təhlükəsizliyini gücləndirmək məqsədi daşıyır.

Azərbaycan öz suverenliyinə və ərazi bütövlüyünə qarşı istənilən təhdidlərə layiqli cavab verməkgücündədir. Unudulmamalıdır ki, qüdrətli Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsindən sonra daha da güclənib. Ordumuz bunu antiterror tədbirləri ilə bir daha sübut etmişdir. Ölkəmiz bu gün həm iqtisadi, həm hərbi, həm də siyasi cəhətdən bölgənin lideridir. Bu həqiqət işğalçılara havadarlıq edən bəzi dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən anlaşılmalıdır. Artıq ikili standartlar və anti-Azərbaycan mövqeyi Ermənistana kömək edə bilməyəcək. Haylar üçün ən yaxşı çıxış yolu bütün hərbi-siyasi təxribatlara son qoyaraq Azərbaycanla sülh sazişini imzalamaqdır.

**Nurlan ABDALOV,
"Respublika".**

# Fransa Cənubi Qafqazda epizodik mövqeyini də itirir

(əvvəli 1-ci səhifədə)

Məsələ ilə bağlı Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bu ölkənin qərəzli mövqeyini tənqid edib: "Məhz Azərbaycanın razılığı əsasında Fransanın 25 ilə yaxın müddətdə vasitəçilik roluna baxmayaraq, bu ölkənin 2020-ci il Vətən müharibəsindən sonra açıq-aşkar anti-Azərbaycan addımları hər kəsə məlumdur. Fransa tərəfinin Azərbaycanı birtərəfli hərəkətlərdə təqsirləndirməsinə baxmayaraq, ölkəmizin rəsmi Parisə qarşı addımları və verdiyi rəsmi bəyanatlar yalnız bu ölkənin destruktiv fəaliyyətinə cavab xarakterli olub. Ölkəmizə qarşı qarayaxma kampaniyasına baxmayaraq, tərəfimizdən hər zaman dialoq qapıları açıq saxlanılıb. Fransa xüsusilə son 3 il yarım müddətdə atdığı addımlarla Azərbaycanla Ermənistan arasında suverenlik və ərazi bütövlüyü əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyub və vəziyyətin gərginləşməsinə rəvac verib". Həqiqətən də qarşılıqlı münasibətlərin pozulması üçün rəsmi Paris son 3 ildir ki, əlindən gələn hər şeyi edir. Əslində arxa plana nəzər saldıqda Fransanın addımları son dərəcə anlaşılandır. Cənubi Qafqazı nəzarət altına almaq istəyən Qərb blokunun ən aktiv oyunçusu olan Fransanın bütün cəhdləri uğursuzluqla nəticələnib. Bölgəyə "dişi batmayan" Yelisey sarayı bu addımla bir növ balaca uşaq kimi "küskün" obraz nümayiş etdirir. İkinci Qarabağ müharibəsindən sonra Fransa ilə bağlı bir məsələ daha da dəqiqləşdi. Kolonialistlər dünyanın hər hansı bir bölgəsində boşluq görsələr dərhal ora şığıyırlar.

Azərbaycan isə bəlkə də ümumilikdə Fransanın müstəmləkəçilik siyasətinə "stop" deyən tək və ən qüdrətli dövlətdir. Qoşulmama Hərəkatına sədrliyimiz dövründə (2019-2023) bu ölkənin müstəmləkə siyasətinin ön plana çıxarılması nəticəsində bu gün Yeni Kaledoniya başda olmaqla digər müstəmləkələr öz haqlarını tələb etməyə başlayırlar. Etirazlar zamanı Azərbaycan bayrağı mübarizənin əsas simvollarından biri olaraq ən öndə dalğalandırılır. Bütün bunlar isə Yelisey sarayının qərəzli siyasətinin sillə kimi özünə qayıtmasına səbəb olmuşdur. Nəticə etibarilə prezident Emmanual Makron Azərbaycana qarşı qisasçı siyasət yürüdür. Ölkəmiz daima qarşılıqlı əlaqələr məsələsində yaranan problemin beynəlxalq hüquq çərçivəsində qurulmasının tərəfdarı kimi çıxış edib. Lakin Fransa və onun təhriki ilə Ermənistan siyasi sabitliyin mövcud olmasında maraqlı olmayıb.

Bu gün dünyada baş verən proseslər onu deməyə əsas verir ki, beynəlxalq hüquq ikinci plana keçir. Artıq güc faktoru növbəti dövrdə dövlətlərin əsas silahına çevriləcək. Çünki bu gün dünyanın qaynar nöqtələrində yaranan gərginliklər zamanı heç bir beynəlxalq hüquq normalarına əməl olunmur. Azərbaycan 30 ildir beynəlxalq hüququn norma və prinsiplərinə tam olaraq riayət etsə də, sonda heç bir nəticə hasil olmadı. Nə torpaqlarımız geri qaytarıldı, nə də işğalçı dövlətə təzyiqlər olmadı. İkinci Qarabağ müharibəsi, qisas əməliyyatları və son olaraq ötən il 23 saatlıq antierror tədbirləri zamanı da bu hüquqa hörmət edən ölkəmiz əvəzində beynəlxalq qurumlar tərəfindən ikili standartlara məruz qaldı. Odur ki, qlobal müstəvidə baş verən proseslər fonunda, bu gün Fransa əgər öz səfirini geri çağırırsa, bu həmin ölkənin problemidir. Elə XİN mətbuat katibi də açıqlamasında sözügedən məsələ ilə bağlı bildirib ki, Azərbaycan tərəfi dəfələrlə Fransaya təhdid, təzyiq dili ilə danışmağın heç bir nəticə verməyəcəyini bildirib və öz milli maraqlarının qorunması üçün bütün zəruri tədbirlər görəcəyini bir daha bəyan edir. Bununla da Cənubi Qafqazda öz müstəmləkəçi siyasətini yeridə bilməyən Fransa son olaraq regionda öz epizodik rolunu da itirdi.




**Tacir SADIQOV,
"Respublika".**

**Qarabağ müharibəsindən söz düşəndə Xüsusi Təyinatlı Qüvvələrin "Qoca qurd" ləqəbli döyüşçüsü, əfsanəvi kəşfiyyatçı, gizir Pəncəli Nurməmməd oğlu Teymurovun adı iftixarla çəkilir. 1981-ci ilin baharında dünyaya göz açdığı Astara rayonunun səfalı Əzərud kəndi bu gün həm də Pəncəlinin kəndi kimi tanınır.**



# ƏFSANƏVİ KƏŞFİYYATÇI

Vətənin igid, qəhrəman oğlunun hər il anım mərasiminə yurdumuzun əksər guşələrindən döyüş dostları, şəhid ailələrinin üzvləri, onu yaxından tanıyanlar gəlir. Pəncəlinin şəhadətinin 8-ci ildönümü ilə əlaqədar ata ocağında keçirilən mərasimə bölgələrimizdən silahdaşları, dostları, şəhid ailələrinin üzvləri, qazilər, Astara Rayon İcra Hakimiyyətinin nümayəndələri, Yeni Azərbaycan Partiyası Astara rayon təşkilatının fəalları, kənd sakinləri toplaşmışdı.

Mərasimdə ixtisasca tarixçi olan tanınmış ziyalı Ağarəhim Abdulov Pəncəli Teymurovun şərəfli, qəhrəmanlıqlarla dolu həyat yolundan, düşmənə qarşı sonsuz nifrətindən, döyüşlərdə misilsiz şücaətlərindən danışdı. Bildirdi ki, Pəncəli Teymurov Astara rayonunun B.Rüstəmov adına Asxanakəran kənd tam orta məktəbində təhsil alıb. Xocalı faciəsi baş verəndə cəmi 11 yaşı vardı. Anası Vahimə xanıma demişdi ki, böyüyəndə heç bir günahı olmayan Xocalı şəhidlərinin qisasını alacaq.





Odur ki, zabit olmaq arzusu ilə yaşayırdı.

1999-cu ildə həqiqi hərbi xidmətə çağırıldı. Hərbi xidmətini başa vurduqdan sonra könüllü olaraq Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyat-diversant taborunda xidmətini davam etdirdi. Hərbi xidmət zamanı kəşfiyyatçı peşəsinə yiyələndi, bacarıqlı döyüşçü kimi ad-san, hörmət qazandı. 2013-cü ilin avqust ayında valideynlərinin, doğmalarının, elin, obanın sevinib şadyanalıq etdiyi toyunda ürək sözlərini belə deyib: "Dostlar, həqiqətən bəzi şeylər var ki, bizim əlimizdə deyil. Amma mən sidq ürəklə deyirəm. Hər zaman, hər an xalqım üçün, torpağım üçün, Vətənim üçün canımdan, qanımdan keçməyə hazıram. Həmişə özümə arzu etmişəm ki, Vətənim üçün şəhid olum, tabutum Azərbaycan Respublikasının üçrəngli, ay-ulduzlu bayrağına bükülüb dəfn olunmağa aparılsın".

Tale elə gətirdi ki, 17 il Xüsusi Təyinatlı Qüvvələrin sıralarında qüsursuz xidmət etdi. Kəşfiyyat zamanı Xocalı faciəsinin fəallarından olmuş bir erməni zabitlə qarşılaşdı, onun general rütbəsi almaq arzusunu ürəyində qoydu. Komandanlığın tapşırıqlarını yerinə yetirərkən erməni postlarını, istehkamlarını dağıtdı, düşmənin çoxlu canlı qüvvəsini cəhənnəmə yola saldı. Düşmən tərəfdəki yeməkxanada stolun üstünə Azərbaycan manatını qoyub çıxdı. Ermənilər onu aradan götürmək üçün külli miqdarda pul ayırdılar.

Xüsusi tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirdiyinə görə döyüş mükafatları, medallarla təltif olundu. 2015-ci ildə işğal altında olan Kəlbəcər rayonunda xüsusi əməliyyat zamanı Ermənistan ordusuna məxsus bir neçə hərbi texnika, ağır artilleriya və iyirmidən çox hərbçini məhv etdi. Bu əməliyyatda nümunəvi xidmətinə, yüksək peşəkarlığına görə ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2015-ci ilin iyununda "İgidliyə görə" medalı ilə təltif olundu. 2016-cı ilin aprel ayında Pəncəli Teymurov Tərtər istiqamətində gedən döyüşlərdə xüsusi fədakarlıq göstərdi, döyüşçü dostlarından Murad Mirzəyev, Samid İmanov, Muhud Orucovla Talış yüksəkliyinin alınmasında, düşmənin canlı qüvvəsinin məhv edilməsində şəxsi igidliyi, şücaəti ilə fərqləndi. O gün həm Vətən uğrunda, həm də şəhid dostlarının qisasını almaq üçün döyüşürdü. Bu da bir fürsət idi, açıq döyüşdə öz məharətini göstərirdi. Müasir döyüş taktikalarını yüksək peşəkarlıqla tətbiq etdi, nəticədə ermənilər ağır itki verdi. Aprelin 3-də Lələtəpə uğrunda döyüşlərdə son damla qanına qədər vuruşaraq qəhrəmancasına şəhid oldu. Aprelin 11-də üç il əvvəl toyunda səsləndirdiyi arzusuna qovuşdu. Nəşi üçrəngli bayrağa bükülü cənazəsi doğma Əzərud kəndinə gətirildi. Qəhrəman kəşfiyyatçı böyük izdihamla kənd qəbiristanlığında son mənzilə yola salındı. Göstərdiyi misilsiz şücaətlərə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Silahlı Qüvvələrin giziri Pəncəli Nurməmməd oğlu Teymurov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olundu.

Şəhidin anım tədbirində yaxın silahdaşı, Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun anası Filara İsmayılova, döyüş yoldaşlarından ehtiyatda olan baş gizir Famil Fərəcov, Vətən Müharibəsi Qəhrəmanı, şəhid kapitan Rəşad Abdullayevin atası Arif Abdullayev, şəhid gizir Tarzan Həşimovun atası Qəhrəman Həşimov, Gənc Qazilər İctimai Birliyinin Masallı rayon filialının sədri Bəxtiyar Salayev, İstiqlal muzeyinin direktor müavini Aidə Axundova, AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin direktoru, fəlsəfə doktoru, şair-publisist Mehman Qaraxanoğlu, şəhid mayor Kamran Fərəcovun həyat yoldaşı Nuranə Fərəcova, Aprel döyüşlərinin iştirakçısı Orxan Əliyev, şair Şahid Astaralı, iş adamı Qurban Məmmədov, Yeni Azərbaycan Partiyası Astara rayon təşkilatının sədri Emin Cəfərov, Ombudsmanın Cənub Regional Mərkəzinin rəhbəri Ziya İsmayılov, Asxanakəran Kənd Ağsaqqallar Şurasının sədri Ramiz Gənciyev və başqaları Pəncəli Teymurovun gənc nəslə örnək olan ömür yolundan, qəhrəmanlığından ətraflı danışdılar.

Çıxışlarda qeyd olundu ki, Pəncəli kimi igid, qəhrəman oğulların qanı yerdə qalmadı. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və keçən ilin sentyabr ayında keçirilən 23 saatlıq antiterror əməliyyatı zamanı şəhidlərin qisası layiqincə alındı. Bu gün Pəncəlinin ruhu şaddır. Qəhrəmanın nəsillərə örnək olan döyüş yolu öyrənilməli və təbliğ olunmalıdır.

Tədbirdə şagirdlər Pəncəli Teymurova həsr edilmiş şeirlər söylədilər, vətənpərvərlik mövzusunda mahnılar ifa olundu.

Vəhimə ananın arzusu və övladlarının əməyi ilə əfsanəvi döyüşçünün xatirə muzeyi yaradılıb. Haqqında kitablar yazılıb, sənədli filmlər çəkilib, mahnılar bəstələnib. Adı dərsliklərə salınıb. Ata ocağı, məzarı daim ziyarət olunan məkandır. Anım mərasiminin iştirakçıları da Pəncəlinin ev-muzeyini, qəbirüstü abidəsini ziyarət edərək əziz xatirəsini böyük ehtiramla andılar. Şəhidin xatirəsi şərəfinə ehsan süfrəsi açıldı.

Mərasimin sonunda Vəhimə ana xalqımıza böyük qələbə sevincini yaşadan, daim şəhid ailələrinin yanında olan ölkə Prezidenti İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya şəhid ailələri adından dərin minnətdarlığını bildirdi.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**




# HÜNƏR VƏ ŞÜCAƏT NÜMUNƏSİ

**Masallı rayonu, Ərəb kəndində dünyaya göz açan Sahil Sarıbala oğlu Babayev 19-20 sentyabr 2023-cü ildə Qarabağ bölgəsində həyata keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı igidlik, şücaət göstərərək şəhidlik zirvəsinə ucalıb.**



Adını qəhrəmanlıq tariximizə yazan Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli Sahillə bütün Azərbaycan xalqı fəxr edir. Onun 31 illik ömür yolu gələcək nəsillər üçün də gözəl örnəkdir.

Mənən qəlblərdə yaşayan Sahil Babayevin 32 yaş xatirəsi sevgi və ehtiramla oxuduğu təhsil ocağında - Ərəb kənd ümumi orta məktəbində anılıb. Tədbirdə şəhidin doğmaları və şəhid ailələrinin üzvləri, Vətən müharibəsi iştirakçıları, rayon icra hakimiyyətinin, rayon üzrə təhsil sektorunun, Xırmandalı kənd ərazi nümayəndəliyinin işçiləri, məktəbin müəllim və şagirdləri, kənd sakinləri iştirak ediblər.

Mərasimdə Lənkəran-Astara Regional Təhsil İdarəsi Masallı rayonu üzrə təhsil sektorunun müdiri Qoşqar Hətəmov, şəhid valideynləri Hafiz Qurbanov, Baloğlan Qasımov, Masallı Rayon İcra Hakimiyyəti başçısının Xırmandalı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Məhəmməd Yusifov, şəhidin dostu, Vətən müharibəsi iştirakçısı Sabir İmanov, Sığıncaq kənd tam orta məktəbinin direktoru Əhliman Əliyev, Xırmandalı kənd tam orta məktəbinin müəllimi Qulu Gözəlov və başqaları Vətən müharibəsində, eləcə də antiterror tədbirləri zamanı qazanılan şanlı Zəfərdən və şəhid Sahil Babayevin keçdiyi şərəfli döyüş yolundan qürurla söz açıblar.

Şəhid Sahil Babayevin 3 övladı - Samir, Elçin, Milay yadigar qalıb. Qəhrəman ataları ilə qürur duyan övladların söylədikləri şeir parçaları ilə çox kövrək anlar yaşanıb. Məktəblilərin ifasında qəhrəmanlarla bağlı ədəbi-bədii kompozisiya nümayiş olunub, vətənpərvərlik mövzusunda şeirlər səslənib.

Şəhidin atası isə oğlu Sahil və onun timsalında Vətən yolunda canından keçən bütün Azərbaycan övladları ilə fəxr etdiyini deyib, tədbirin təşkilatçılarına və iştirakçılara, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərinə minnətdarlığını bildirib.

Şəhidin məzarı ziyarət edilib, xatirəsinə ehtiram əlaməti olaraq üzərinə gül dəstələri düzülüb.

**Zəfər ORUCOĞLU.**

# Qəhrəman gəncləri olan Vətən yenilməz

**Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsində ordumuzun misilsiz qalibiyyətinin kökündə duran əsas məqam gənclərimizin vətən sevgisi ilə bağlı idi. Düşmənə nifrət hissi ilə yetişən gənc nəsil torpaqlarımızı işğalçılardan təmizlədi. Onlar vətənpərvərlik və fədakarlıq, qəhrəmanlıq göstərərək canlarından keçdilər, şəhid, qazi oldular və tarixi ədaləti bərpa etdilər.**

Prezident cənab İlham Əliyevin bildirdiyi kimi, "Vətən sevgisi bizi Qələbəyə gətirdi. Vətən sevgisi, vətənpərvərlik Qələbəmizin əsas amilinə çevrildi. Bu Qələbədə yeni bütün nəsillərdən olan vətəndaşların böyük zəhməti oldu. Amma əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ, Vətən, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar".

Dövlət başçısı hər bir çıxışında Böyük Zəfərimizi şərtləndirən amillər sırasında gənclərimizin Vətənə, torpağa bağlılığını xüsusi qeyd edir. Uzun illər Müzəffər Ali Baş Komandan İlham Əliyevdən "İrəli!" əmrini gözləyən Azərbaycan əsgərinin 44 gündə yazdığı şanlı tarix gücünü, qüdrətini dünyaya nümayiş etdirdi.

Torpaq, ana, Vətən sevgisindən həyatda görəsən əzəli nəsə varmı? Bu sevgi sanki doğulduğumuz, həyata göz açdığımız gündən ana südü ilə qanımıza hopur, bütün ömrü boyu bizimlə olur. Bu sevgi müqəddəs bir sevgidir. Hər bir qeyrətli Vətən övladı bu sevgiyə son anına qədər sadiq qalır. Lazım gələndə bu yolda şirin canından belə keçməyi bacaranlar isə əbədiyyətə qovuşurlar.



Vətən müharibəsi göstərdi ki, bu gün Azərbaycan ordusunda Mübariz ürəkli, Mübariz cəsarətli minlərlə Vətən övladları var. Onun ruhu həmişə bizimlədir.

On il sonra 2020-ci ildə Böyük Zəfərlə bitən Vətən müharibəsində Qəhrəmanlığın yaşı isə 19 idi. Əslən Qubadlının Yusifbəyli kəndindən olan Vüsal Yaqubov. O, Vətən müharibəsində Xüsusi Təyinatlı Qüvvələrin əsgəri Füzulidən Şuşaya kimi iştirak edib. Döyüşlərdə qəhrəmanlıq göstərərək düşmənin 20-yə yaxın canlı qüvvəsinin işğaldan azad edilmiş Xocalı rayonunun Sığnaq kəndinə daxil olmasına imkan verməyib. Vüsal döyüş meydanında ölümü gözə alaraq həmin vaxt düşmənin xüsusi təyinatlı alayı ilə təkbaşına döyüşdüyünə görə 19 yaşında "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Vüsal Xocavəndin Böyük Tağlar kəndində yaralansa da bir an da döyüşü dayandırmayaraq yaralı halda həmin kəndə üçrəngli bayrağımızı sancıb.

Şuşanı azad edən gənclərimizin qəhrəmanlığını sözlə ifadə etmək mümkünsüzdür. Vətən müharibəsi bitdikdən sonra Şuşada döyüş əməliyyatlarında iştirak etmiş hərbçilərin döyüş təəssüratlarını sosial şəbəkələrdən maraqla izlədiyim İqbal Səfərovun xatirələri yaddaşımda dərin iz buraxıb: "Ən çətin maneəmiz aramsız yağan yağışlar, ən böyük üstünlüyümüz isə qorxusuz olmağımız idi... Sulu paltarlarla şaxtalı havada yatmalı olurduq. Tüstü bizi ələ verər deyə, ocaq da qalaya bilmirdik. Yəqin ki, ömrümün sonuna kimi Şuşada yağan yağışı və iliyimə qədər işləyən soyuğu unutmayacağam... Ancaq Vətən sevgisi bütün maneələri dəf etdi və biz nəhayət ki, Şuşa uğrunda döyüşmək şərəfinə nail olduq. Səndən yuxarıda güllələrin sənə tuşlandığını bilə-bilə dağa dırmanmağın, silah-sursatınla bərabər yaralı dostunu da özünlə bərabər qaldırmağın, onun öləcəyini bildiyin halda ona da son dəqiqələrində Şuşanı görmək şərəfini, sevincini yaşatmağa çalışmağın başqa bir adı olmalıdır. Bu hissi, bu duyğunu ifadə edəcək elə bir sözün lüğətimizdə olduğuna əmin deyiləm".

Bəli, vətənpərvərlik təkcə sözdə "Vətəni, torpağı sevirəm" demək deyil. Əsl vətənpərvər olmaq üçün bütün varlığınla, qanınla, canınla torpağa, yurda bağlı olmalısan, bu yolda şirin canından keçməyi bacarmalısan.

**M.MİRZƏ,**
**"Respublika".**

# "Əmim kimi mən də şəhid olacam"

**Pəncalı Hüseynov da Vətənin ən gənc şəhidlərindən biridir. Cəmi 19 il yaşadı, adı dillər əzbəri oldu.**

Qırx dörd günlük Vətən müharibəsi Azərbaycan xalqına zəfər sevincini bəxş etməklə yanaşı, xalqımızın qəhrəman oğullarını da hər kəsə tanıtdı. Neçə-neçə igid oğullarımız Vətən uğrunda haqq savaşının iştirakçısı, şəhid və ya qazi oldular. Sonunda zəfər çaldığımız bu müharibə Azərbaycan xalqının Vətənə necə bağlılığını, onun üçün gözünü qırpmadan canından keçməyə hazır olduğunu bir daha nümayiş etdirdi. Belə qəhrəman Vətən övladlarından biri Pəncalı Hüseynov 7 may 2001-ci ildə Neftçalanın Qaralı kəndində doğulub. 2007-2018-ci illərdə 2-ci Qaralı kənd orta məktəbində təhsil alıb. Xoş rəftarı, mülayim xasiyyətiylə həm məktəbdə, həm də ətrafında hər kəsin sevgisini qazanıb.



Yaşadığı kənddə hər kəs onu mərd, cəsur oğul kimi tanıyırdı. Məktəb illərində dərs tapşırıqlarını həll edib, boş vaxtlarında valideynlərinə kömək edərdi. Beləcə Pəncalı ailəsinə dəstək olmağı balaca yaşlarından öyrənmişdi.

"N" saylı hərbi hissədə xidmətə başlayan Pəncalının təlimlərdə, hərbi hissə daxilində davranışlarına görə 2 dəfə ailəsinə təşəkkür məktubu göndərilib. Hərbçi olmaq istəyən Pəncalı sənədlərini də təqdim edib. Avqust ayında türkiyəli və azərbaycanlı hərbçilərin birgə təlimlərinin iştirakçısı olub. Vətən müharibəsində ilk gündən döyüşlərə qatılıb. Murov-Kəlbəcər uğrunda vuruşub və sentyabrın 28-də şəhid olub. 2 oktyabrda kənd qəbiristanlığında torpağa tapşırılıb. Şəhadətindən sonra Pəncalı Hüseynov "Vətən uğrunda" medalı ilə təltif olunub.

Atası Bəhmən Hüseynov: Arzuları çox idi. Əsgər getməzdən öncə ona toy kimi yolasalma mərasimi keçirdim. 2019-cu il 2 iyulda hərbi xidmətə yollandı. Getməzdən bir neçə gün öncə anası və bacısı ilə söhbətində deyib ki, müharibə olsaydı, gedib erməni mənfurlarını qırıb şəhid olardım. Anası deyib ki, müharibə arzulama. Pəncalı da deyib, ölsəm, əmimdən artıq deyiləm ki".

Pəncalının əmisi Birinci Qarabağ savaşında Ağdərə istiqamətində şəhid olub. O, dilbər guşələrimizin işğal altında qalması ilə heç vaxt barışmırdı. Arzusu əmisinin və minlərlə şəhidimizin qanını erməni qəsbkarlarından almaq idi. Xüsusi Təyinatlı Qüvvələrdə xidmətini davam etdirən Pəncalı ötən ilin avqustunda türkiyəli hərbçilərlə birgə keçirilən təlimdə sərrast snayper kimi iştirak edib.

Pəncalı Hüseynovlar ailəsinin altı övladından biri idi. O, bacılarını çox sevər, həmişə onların qulluğunda dayanar, köməyini əsirgəməzdi. Şəhidin bacısı Şərafət Hüseynovanın xatirələrindən: "Qardaşım həmişə bizə dəstək olurdu. Baxmayaraq ki, yaşı az idi, evimizə dəstək olurdu. Çox zəhmətkeş qardaş idi. Həmişə qardaşımın sinəsində XTQ hərflərini görəndə fəxr edirdim. Bu gün də fəxr edirəm, qardaşım adını tarixə yazdı".

Qorxu duymadan, ürəklərində böyük Vətən sevgisi ilə qəhrəmancasına döyüşüb şəhid olan Pəncalı kimi bütün şəhidlərimiz sübut etdilər ki, bu xalqın qəhrəmanları yüzlərlə, minlərlədir. Onların ömür yolu gənclərimizə nümunədir. İllər keçsə də gələcək nəsillər onları hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcəklər.

**Müşfiq CƏFƏROV,**
**"Respublika".**

**Qalib Zülfüqarlı doğma Vətənini ürəkdən sevdiyinə görə onun yolunda şəhid olmağı bacardı. Bu, müqəddəslik onu şəhidlik zirvəsinə ucaltdı.**




# Tarix yazan igid oğullar

Bu fikirlər Lənkəran Şəhər Mərkəzi Kitabxanasının Uşaq Şöbəsinin təşkilatçılığı ilə Qəni Vəliyev adına Mədəniyyət Mərkəzində şəhid leytenant Qalib Zülfüqarlının anım gününə həsr olunan "Qalib ölkənin Qalibi" adlı tədbirdə səslənib. Mərasimdə Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncovun, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini Ülviyyə Əliyevanın, şəhid ailələrinin, ictimaiyyət və mədəniyyət nümayəndələri iştirak ediblər.

Qalib Layim oğlu Zülfüqarlı 1992-ci ildə Lənkəranın Vilvan kəndində anadan olub. 2014-cü ildə Ali Hərbi Məktəbi bitirib leytenant rütbəsində Qazax rayonundakı "N" saylı hərbi hissəyə xidmətə göndərilib. 28 mart 2016-cı ildə müdafiə naziri general-polkovnik Zakir Həsənovun Sərəncamı ilə ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medala layiq görülüb.

Qalib Zülfüqarlının həyatından bəhs edən videoçarxın nümayişindən sonra şəhidin şərəfli həyat və döyüş yolundan danışanlar bildiriblər ki, Qalib ağır günlərdə Vətənə sipər, düşmənə çəpər durmağı bacaran qeyrətli igidlərdən olub. Az yaşasa da, layiqli bir övlad kimi Vətən qarşısında son borcunu şərəflə verib. 27 mart 2016-cı ildə Qazax rayonunun Quşçuayrım kəndində erməni silahlı qüvvələrinin atəşkəsi pozması nəticəsində şəhid olub. Məktəblilərin ifasında şəhid Qalib Zülfüqarlıya həsr olunan şeirlər də tədbirə qürur hissi qatıb.

Diqqətə, qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıq edən şəhidin ailə üzvləri onu da deyiblər ki, Qalib Vətənə sevgi, düşmənə nifrət ruhunda böyümüşdü. Bütün arzularının zirvəsində Qarabağımızın azadlığı dururdu. Elə hərbiyə bitib-tükənməyən sevgisi bundan irəli gəlirdi. Qalib ölməyib, sevdalandığı Vətən adlı torpağa qovuşub. İndi o, qalib ölkənin əbədi vətəndaşı olaraq təkcə doğmalarına yox, canından üstün tutduğu Azərbaycana əzizdir...

**Z.ORUCOĞLU.**



# MƏDƏNİYYƏT



# Vətənin bütövləşdiyi məkanda qələbə abidələri ucaldılır

*Mayası nur, hər qarışı alov dilli Odlar Yurdu, sinəsi qərinələr yaşadan, işğalçıların, tiranların bəd niyyətinə ox kimi sancılan, dizi qatlanmaz, biləyi bükülməz oğulları ilə Zəfər yazan, tarixi çox qədim dövrlərə söykənən Azərbaycanda hər daşın altında bir tarix yatır. Hər qalası, hər kurqanı bir daş möhürdür, kimliyimizi, ilkinliyimizi təsdiq edir. Əcdadlarımız bu torpaqlarda çox qiymətli və nadir maddi-mədəniyyət nümunələri yaradıblar, neçə əsr əvvəl şəhərsalmanın ilk təməlini atıblar, dünyanın memarlıq fəlsəfəsinə incilər bəxş ediblər. Ölkəmizin hər yerində yaşı əsrləri və minillikləri əhatə edən tarixi abidələr və yerlər mövcuddur.*

Azərbaycan qədim abidələr məskənidir. Füzuli ərazisindəki Azıx mağarasından tapılmış və azıxantrop adlandırılan qədim insanın alt çənə sümüyü Azərbaycanın dünyada ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Ana torpağın öz qoynunda saxladığı daş kitabələr əsrlərlə ölçülən həqiqətin, kökün, şəcərənin, intibah dövrünün üzərinə işıq salır, qədim daşlar sanki dil açıb danışır. Əcdadlarımız şəhərlər salıblar, müdafiə tikililəri, əzəmətli qala divarları inşa ediblər, Qafqaz Albaniyası dövründə şəhərsalma mədəniyyəti mövcud olub. Tarixi araşdırmalara görə, İslamdan əvvəl və sonra ölkəmizin ərazisində qiymətli abidələr inşa olunub. Orta əsrlərə aid Möminə Xatun, Qarabağlar, Gülüstan, Bərdə türbələri, Şirvanşahlar sarayı, Şəki xan sarayı, Şuşa şəhərinin abidələri nəinki Şərq, hətta dünya memarlığının ən gözəl incilərindən hesab olunur. Abidələr və tarixi yerlər haqqında söz açanda ulu öndər Heydər Əliyevin müdrik kəlamı yada düşür: "Biz tarixi keçmişimizə nəzər salarkən, ulu babalarımızın yaratdığı və indiyə qədər yaşayan abidələrlə, qalalarla, şəhərlərlə, heykəllərlə, yollarla - yaradılan hər bir şeylə fəxr edir və bunları yaradanları daim xatırlayır, onlara öz minnətdarlığımızı bildiririk. Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir".

Abidələrin və tarixi yerlərin dağıdılması xalqın, millətin varlığının məhvi deməkdir. Abidələr və tarixi yerlərin məhv olması ölkəmizdən də yan ötməyib. Torpaqlarımızın 20 faizini işğal edən və onu 30 il əsarətdə saxlayan Ermənistan hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına dağıdıblar. Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, sənət nümunələri məhv edilib. Həmçinin bu ərazilərdə 40 mindən artıq eksponatın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri də düşmən tərəfindən talan edilib.

1983-cü ildən UNESCO-nun qərarı ilə hər il aprelin 18-i dünyada Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur. Çox təəssüf ki, adıçəkilən təşkilat torpaqlarımızda törədilən erməni vəhşiliyinə uzun illər biganə qalıb, susmağa üstünlük verib, öz missiyasına əməl etməyib. Maddi-mədəniyyət nümunələri ilə zəngin olan Qarabağda erməni vandalizminin ağır izləri insanı dəhşətə salır. Qarabağın qədim yaşayış məskənlərindən olan Füzuli həm də mədəniyyət və memarlıq abidələri - mağara və kurqanlar, çoxlu sayda türbə, qəbirüstü abidələr, at, qoç fiqurları, körpülərlə də zəngin olub. Təəssüf ki, bu nadir abidələrin bir çoxu, eləcə də Azıx mağarası erməni vandalizminin qurbanına çevrilib. Bundan başqa, Füzulidə Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan bir sıra memarlıq abidələri də olub. Təəssüf ki, Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273-cü il), Aşağı Veysəlli kəndində hamar daşdan tikilən qülləvari Mirəli türbəsi (XV əsr), Qarğabazar kəndində Hacıqiyasəddin məscidi (1682-ci il), Karvansara (1684-cü il), Qoçəhmədli kəndində məscid (XVIII əsr), Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), "Məşədi Həbib" hamamı (XIX əsr), Merdinli kəndi yaxınlığında daşdan yonulan at, qoç fiquru (XVIII-XIX əsrlər) kimi tarixi əhəmiyyət daşıyan abidələr erməni vandalizminə məruz qalmış, məhv edilərək dağıdılmışdır.

Ağdamda tariximizin açılmayan qatları mövcuddur, burada şəhərsalma mədəniyyəti, məqbərə komplekslərinin tikintisi, dulusçuluğun, misgərliyin inkişafı abidələrin dili ilə nəql edilir. Rayon ərazisində qədim dövrlərdən xəbər verən kümbəzlər, daşdan yonulmuş qoç və at fiqurları, məqbərələr, kahalar var idi. Onlardan biri də şəhərdəki İmarət Qərvənd qəbiristanlığıdır. Tarixi mənbələrə görə burada Qarabağın görkəmli nümayəndəsi Pənahəli xanın nəslinə aid olan insanlar dəfn edilib. Bu məqbərə-kompleks XVIII əsrin sonu XIX əsrin əvvəlləri ndə inşa edilib. Qədim memarlıq nümunələri hesab olunan türbələrdən birində Pənahəli xanın oğlu, Qarabağ xanlığının davamçısı İbrahimxəlil xan dəfn edilib. Xan qızı, dövrünün ziyalı və maarifpərvər qadını, incə naxışlar müəllifi, gözəl şeirlər yazan Xurşidbanu Natəvanın qəbrinin üstündə büstü qoyulmuşdu. Ermənilər İmarətdəki qədim türbələri dağıdıb, qəbirüstü sinədaşlarını məhv ediblər. Hazırda İmarət əsaslı şəkildə bərpa edilir. Tarixi mənbələrdə məlumat verilir ki, Şahbulaq qalası və ya Tərnəküt qalası Qarabağ xanı Pənahəli xan tərəfindən 1751-1752-ci illərdə inşa etdirilib. Qala divarları iki əsrdən çoxdur ki, öz möhtəşəmliyini qoruyub saxlayıb. Ehtimal ki, qalanın adı da burada yerləşən gursulu bulağın adından - Şahbulağından götürülüb.

Qutlu Musa türbəsi 1314-cü ildə tikilib və Sasanilər dövrünə aid edilir. Şərq memarlığı üslubunda inşa edilən türbənin unikallığı diqqəti cəlb edir. Qeyd edək ki, Ağdam rayonunun Xaçındərbətli kəndində yerləşən bu abidə nadir təsadüf edilən səciyyəyə malik türbədir. Arxeoloqların və memarların gəldiyi qənaətə görə, abidənin istər daxili səthlərinin, istər daxilindəki günbəzin və istərsə də xaricindəki səthlərin işlənməsi tikiliyə təkrarolunmaz xüsusiyyət verir. Aran və Qarabağ memarlıq məktəblərinin xüsusiyyətlərini özündə cəmləşdirən türbə XIII əsrdə Xaçın vilayətinin nüfuzlu şəxslərindən olmuş Qutlu Xacə Musa oğlunun məzarı üzərində ucaldılıb və hər hansı dövrə, zamana baxmayaraq, ziyarətgaha çevrilib.

1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilən və işğal illərində vandalizmə məruz qalan Ağdam Cümə məscidində Heydər Əliyev Fondu tərəfindən təmir-bərpa işləri başa çatdırılır. 2020-ci ildə işğaldan azad edilən Ağdam şəhərinə səfər edən Prezident İlham Əliyev Məkkədən gətirdiyi "Qurani-Kərim"i məscidə bağışlayaraq deyib:

"Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq. Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb...".

Əsgəran qalasının taleyi də keşməkeşli olub, yadelli işğalçıların hücumlarına məruz qalıb, bəzi yerlərdə qala divarları uçurulub. Tarixi mənbələrə görə Əsgəran qalası qarabağlı Pənahəli xanın göstərişi ilə 1787-ci ildə çay daşlarından tikilib. Qala quruluşuna görə daha çox müdafiə səddinə bənzəyir. Əsgəran qalası Şuşanın 24, Xocalının 5 kilometrliyində və Ağdam şəhərinin 12 km cənubunda, Qarqar çayın sağ və sol sahillərindəki dağ döşündə yerləşir. Araşdırmaçılar Əsgəran qalasının tikintisini Qarabağ xanlığının yüksəliş dövrünə aid edirlər. Eyni zamanda bu qalanı Azərbaycanın çoxəsrlik müdafiə sədləri ənənəsinin son örnəyi hesab edirlər. Ermənistan işğal illərində Əsgəran qalasında qanunsuz olaraq "bərpa-tikinti" işləri aparıb, qalanın tarixi simasını dəyişdirməyə cəhd ediblər. Görünən odur ki, tarixi tikilinin memarlıq üslubu dəyişdirilib, tikinti aparılan ərazilərdə dərin çalalar əmələ gəlib, qalanın görkəminə ciddi zərər vurulub.

Azərbaycan musiqisinin, adət-ənənəsinin, tariximizin, mədəniyyətimizin paytaxtı, əsrarəngiz, füsunkar gözəlliyi ilə hər kəsi heyran edən, hər daşı özü boyda bir tarix, salnamə və təbii muzey olan Şuşanın tarixi məkanları və abidələri Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa edilir. İlk növbədə, Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin Şuşa şəhərində bürüncdən hazırlanan heykəli əvvəlki yerində ucaldılıb. Görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin Şuşa şəhərində yerləşən büstü öz yerinə qaytarılıb. Azərbaycan tarını təkmilləşdirən məşhur tarzən Sadıqcanın evi, Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidləri Heydər Əliyev Fondu tərəfindən bərpa olunur. Şuşada aparılan genişmiqyaslı bərpa və təmir işləri xarici mütəxəssislərin də diqqətini cəlb edir. Bu barədə dünya irsi üzrə tanınmış ekspert Rey Bondinin "Times of Malta" qəzetində dərc olunan "Şuşa - xarabalıqlar içində olan mədəniyyət paytaxtı" başlıqlı məqaləsində deyilir ki, Azərbaycan öz mədəniyyət paytaxtını - xarabalığa çevrilmiş Şuşa şəhərini bərpa etmək əzmindədir. Şuşa 30 ildən artıq Ermənistanın işğalı altında olub. Şəhərdə XVIII əsrin ortalarından başlayaraq azərbaycanlılar tərəfindən tikilmiş gözəl memarlıq nümunələri var idi. Lakin indi onların əksəriyyəti mövcud deyil. Ermənilərin Şuşada törətdikləri vandalizmə, mədəniyyət paytaxtında keçirilmiş "Münaqişədən sonrakı humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfransın iştirakçıları da şahid olublar. Milli-mədəni irsin qorunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" xüsusi əhəmiyyət daşıyır. Bu gün işğaldan azad edilmiş ərazilərə həyat yenidən qayıdır. Genişmiqyaslı tikinti-quruculuq işləri sürətlə aparılır, tarixi abidələr, məscidlər təmir və bərpa edilir. Əlbəttə, bu, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilən torpaqlarda mədəni irsimizə böyük diqqət və qayğısının təzahürü, milli-mənəvi dəyərlərimizin qorunmasına ən layiqli töhfədir.

## *Aprelin 18-i Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür*



**Salman ALIOĞLU,**
**"Respublika".**

# Mədəni irsimiz qorunur

*Qədim dəyərlərin qorunması üçün təsis edilən 18 aprel - Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (ICOMOS) təklifi ilə UNESCO tərəfindən 1983-cü ildə qəbul olunub. Əsas məqsəd isə insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir.*



Odlar yurdu Azərbaycan dünyada bəşər sivilizasiyasının ilkin meydana gəldiyi ərazilərdəndir. Arxeoloji qazıntıların nəticəsində Azərbaycanda yaşamış insanların keçdikləri keşməkeşli və şərəfli yollar qədim yaşayış məskənlərində və çoxsaylı abidələrdə öz əksini tapıb. Yaşadığımız dövrə gəlib çatan bu abidələr hazırda qayğı ilə qorunur. "İçərişəhər" memarlıq kompleksi, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Qobustandakı muzey isə 2013-cü ildə Avropanın ən yaxşı muzeyləri sırasına daxil edilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 2 avqust tarixli Qərarı ilə təsdiq edilmiş dövlət tərəfindən mühafizə olunan daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısında Qobustan qoruğunda 1067 sayda dünya əhəmiyyətli, "İçərişəhər" Tarix-Memarlıq Qoruğunda 3 dünya, 93 ölkə, 2568 yerli əhəmiyyətli, "Qala" Tarix-Etnoqrafiya Qoruğunda 7 ölkə, 234 yerli, "Nardaran" Tarix-Mədəniyyət Qoruğunda 1 dünya, 5 ölkə, 7 yerli, "Atəşgah məbədi" Tarix-Memarlıq Qoruğunda 1 dünya əhəmiyyətli tarixi abidə qeydə alınıb. Son illər ərazidə 1500-dən çox yeni abidə aşkar edilib.

Respublikamızın bütün bölgələrində yaşı əsrləri və minillikləri əhatə edən abidələr, tarixi əsərlər mövcuddur. Hər biri xalqımızı torpağa, əcdadlarına bağlayan qırılmaz tellərdir. Sərhədlərimiz daxilində aşkar edilmiş ən qədim tapıntılardan biri də məhz Azıx mağarasında aşkar edilmiş və azıxantrop adlandırılan qədim insanın alt çənə sümüyüdür. Bu tapıntı ölkəmizin dünyada ən qədim ibtidai insan məskənlərindən biri olduğunu sübut edir. Bundan başqa, Qobustandakı qədim yaşayış məskənləri, qayaüstü rəsmlər də buna dəlalət verir. Bu rəsmlərdə insan, heyvan şəkilləri, ov və rəqs səhnələri əsrarəngiz şəkildə təsvir olunub. Buradakı qalıqlar mezolit dövrünün yadigarıdır.

Bölgələrimizdəki tarixi yerlər öz gözəllikləri ilə turistləri cəlb edir. Şəhərsalma mədəniyyətinin yüksək inkişafının göstəricisi olan və Qəbələ şəhərini əhatə edən möhkəm qala divarları, saxsı borularla çəkilmiş su kəməri, Dəmirqapı keçidində daşdan tikilmiş müdafiə sistemi, Çıraqqala, Ləkit kəndindəki dairəvi xristian məbədi və digər yerlər hər kəsin diqqət mərkəzindədir. Orta əsrlər dövrünə aid Möminə Xatun, Qarabağlar, Gülüstan, Bərdə türbələri, Şirvanşahlar sarayı, Şəki xan sarayı, Şuşa şəhərinin abidələri nəinki Şərq, hətta dünya memarlığının ən gözəl incilərindən hesab edilir.

30 il müddətində doğma torpaqlarımızda hegemonluq edilib, ərazilərimiz talanıb. Nəticə etibarilə tarixi diyarlarımız məhv edilib, abidələr, dini evlər dağıdılıb və ya tövlə halına gətirilib. Şuşa şəhərində yerləşən və XVIII əsrdə tikilmiş Şuşa məscidi, Ağdamda olan XIX əsrdə tikilmiş Ağdam məscidi, Xocalıdakı İbrahimli məscidi, Füzulidəki Təzəkənd kəndindəki Xudafərin məscidi erməni separatçıları tərəfindən darmadağın edilib. Lakin təkcə məscidlər yox, həm də tarixi abidələr, məktəblər, muzeylər və Azərbaycanın tarixi-mədəni irsinə məxsus bütün məkanlar dağıdılıb.

Laçın rayonundakı Kərkicahan qalası, Xocalı rayonunun Mərcanlı kəndindəki Cümə Məscidi, Şuşa şəhərindəki İmamzadə türbəsi erməni separatçıları tərəfindən məhv edilib. Həmçinin 2645 tarixi və mədəniyyət abidəsi, o cümlədən 1814 memarlıq, 747 arxeoloji, 64 bağ-park, monumental və xatirə abidəsi, 23 muzey, 102 757 muzey eksponatı, 4 dövlət rəsm qalereyası, 376 rəsm əsəri, 4,6 milyon ədəd kitab, 13 arxiv, 260 min arxivləşdirilmiş sənəd, 50 mindən çox vətəndaşın şəxsi kolleksiyasına aid, tarixi əhəmiyyətli ov və məişət əşyaları dağıdılıb, məhv edilib və ya mənimsənilib. Hazırda dövlətimiz dağıdılmış dini məbədlərin yenidən tarixi bərpasına nail olur. Azərbaycan üçün ərazisindəki hər bir abidə, bina, daş belə dəyərlidir. Bu təkcə sözdə belə deyil. Artıq 4-cü ildir ki, işğaldan azad edilən bölgələrimizdə quruculuq işləri aparılır. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir. Ölkəmizin daşı-torpağı onun ən böyük sərvətidir.

**Töhfə SƏMƏDOVA,**
**"Respublika".**

# LƏNKƏRAN XƏBƏRLƏRİ

**Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 ili tamam olur. Azərbaycan Milli Elmlər Akademiyasının Lənkəran Regional Elmi Mərkəzi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Lənkəran şöbəsi ilə birgə "Füzuli və islam dəyərləri" mövzusunda tədbir keçirib.**





Mərkəzin direktoru, filologiya üzrə fəlsəfə doktoru Mehman Əliyev Prezident cənab İlham Əliyevin dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzaladığını diqqətə çatdıraraq bildirib ki, o, Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkardır. Hərtərəfli biliyə malik mütəfəkkir kimi onun həyata, insana dərin məhəbbət aşılayan, ülvi ideallarla yaşamağa səsləyən bədii-fəlsəfi irsi xalqımızın bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi misilsiz mənəvi sərvətlərdir.

Sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Lənkəran şöbəsinin aparıcı məsləhətçisi Səyyad Babakişiyevin "Füzuli və islam dəyərləri" mövzusunda məruzəsi dinlənilib. Qeyd edilib ki, Füzuli sənət dünyasında günəş kimi parlayıb, əsrlər boyu Azərbaycan və Yaxış Şərq şeirinin inkişaf yolunu işıqlandırmışdır. Qızılın sərrafı zərgər, mərcanın sərrafı qəvvas, sözün sərrafı isə Füzulidir. Şair söz sənətinin mahir rəssamı, həm də söz xəzinəsinin qüdrətli hakimidir.

Ziyalılardan Qorxmaz Atakişiyev, Tofiq Həsənli, din xadimlərindən Fəxri Sadıxov, Asəf Axundov, Nadir Nabatov, mərkəzin tarix və ədəbiyyat şöbəsinin müdiri Sərraf Talıbov dahi Füzulinin ana dilində mükəmməl poeziya nümunələrini yaratdığını, bədii dilimizi zənginləşdirərək yeni zirvəyə yüksəltdiyini, parlaq dühasının təcəssümü olan əsərlərinin müəllifə böyük şöhrət qazandırdığını bildiriblər.

Tədbirdə Lənkəran Dövlət Universitetinin tələbələrinin sualları cavablandırılıb.

* * *

**AMEA Lənkəran Regional Elmi Mərkəzi növbəti tədbiri Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu ilə birgə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirib.**

Mərkəzin direktoru Mehman Əliyev tədbiri açaraq bildirib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfələrini verir. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunmasına xüsusi diqqət yetirilir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.





Mərkəzin elmi işlər üzrə direktor müavini, biologiya üzrə fəlsəfə doktoru, dosent Sevinc Hüseynova qeyd edib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə sanballı töhfəsinin bariz nümunəsidir.

Sonra Dendrologiya İnstitutunun İqlimləşdirmə və ekologiya şöbəsinin müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Hüseynağa Əsədovun "İqlim dəyişmələri və subtropik bitkilərin keyfiyyət göstəriciləri" mövzusunda məruzəsi dinlənilib. Bildirilib ki, Azərbaycan dünyada təmiz ətraf mühit və yaşıl artım ölkəsi kimi tanınır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli ölkəmizin enerji siyasətinin prioritet istiqamətlərindən biridir.

Açıq diskussiya və dialoq şəklində keçən tədbirdə iştirakçıları maraqlandıran suallara aydınlıq gətirilib.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

# Qərbi Azərbaycan toponimlərinin həqiqətləri

**Tarix elə gətirib ki, Azərbaycanın qismətinə torpağının böyük bir hissəsinin zəbt olunması, alınıb hansısa gəlmələrə verilməsi yazılıb. Zamanla parça-parça bölünən, hər bucağından bir yağıya pay verilən vətənimiz XX əsrin sonlarında daha bir faciə ilə üz-üzə dayandı. O qədər də uzaq olmayan tarixdən başlayaraq ərazilərimizə yerləşdirilən hayların məkrli siyasəti qismən də olsa öz "bəhrəsini" verdi.**

"Dənizdən-dənizə Böyük Ermənistan" təbliğatının özülündə Azərbaycan ərazilərini işğal etmək dayanırdı. 1980-ci illərin sonlarından etibarən qədim torpaqlarımız olan Qərbi Azərbaycan əraziləri Ermənistan tərəfindən boşaldılmağa, azərbaycanlıların tamamilə bölgədən köçürülməsinə başlanıldı. "Uğurla" həyata keçirilən kütləvi deportasiya prosesi vəhşi toplumu daha da həvəsləndirdi. Ulu babalarımızdan miras qalan, xanlar, xaqanlar yurdu, qədim oğuz eli düşmən əlinə keçdi. Bu işğal sadəcə azərbaycanlıların doğma yurd yerlərindən köçürülməsilə yekunlaşmadı. Haylar bütünlüklə əraziləri erməniləşdirmək və süni erməni tarixi yaratmaq məqsədilə Qərbi Azərbaycan torpaqlarında olan tarixi-dini-mədəni abidələri ya tamamilə dağıtdılar, ya da erməniləşdirməyə çalışdılar. Lakin bir şeyi unutdular ki, torpağın üzərində olan tarixi silərkən, altındakı kökləri məhv etmək qeyri-mümkündür. Çünki bu yerlərin hər qarışı, dağı, daşı, yurdu-yuvası Azərbaycana aiddir.

Əlbəttə ki, Qərbi Azərbaycan torpaqlarının Ermənistan tərəfindən mənimsənilməsi yolverilməzdir və bu, qeyri-mümkündür. O yerlərin tarixini, adət-ənənəsini özündə yaşadan insanlar yaxın gələcəkdə doğma yurd yerlərinə dönəcəklərinə inanır və o günü səbirsizliklə gözləyirlər.

Bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu və yazıçı-publisist Sərtib İslamoğlunun birgə hazırladığı "Qərbi Azərbaycan toponimlərinin həqiqətləri" adlı kitabı çapdan çıxıb. Olduqca nəfis tərtibatda hazırlanan kitabda Qərbi Azərbaycanın tarixi, coğrafiyası, onomastik vahidləri, folkloru, adət-ənənələri və məişəti haqqında müfəssəl məlumat verilir. Həmçinin uzun illər təqiblərə məruz qalmış, maddi, mənəvi terrora uğramış azərbaycanlıların 1500-dən çox yaşayış məntəqələrindən necə çıxarılmaları haqqında da söhbət açılır. Kitabda bölgənin bütün coğrafiyası, hər kəndin, şəhərin, obanın, hətta məhəllənin belə tarixi ilə tanış oluruq. Kitabı ümumilikdə tarixi sənəd də adlandırmaq olar. Hazırlanmasında böyük əməyi olan Nadir Məmmədli və Elçin İsmayılov məhz tarixi faktlara söykənərək uğura imza atmışlar.




Diqqətçəkən məqamlardan biri də odur ki, hər bir müəllif söhbət açdığı qədim yurd yerlərinin bir çoxlarının eyniadla digər bölgəmizdə də olan kənd və mahalları da qeyd etməsidir. Bu isə ən böyük sübutlardan biridir ki, bir adda ərazi Azərbaycanın həm Qərbində, həm də Şərqində var. Bu, toponim və hidronimlərin qədim türk sözü olduğunu bir daha təsdiq edir. Məsələn, Zəngəzur qəzasında Muxurtovlayan adlı dağ var. Digər ərazilərimizdə - İmişli ərazisində Muxurtəpə, Ağcabədidə Muxur obası və sair bu kimi adların eyni kökdən olduğunu özündə ehtiva edir.

Filologiya üzrə fəlsəfə doktoru, Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli isə daha bir maraqlı sahəni əhatə edərək, Qərbi Azərbaycanın abidələrinin bir qisminin tarixindən və yerli xüsusiyyətindən söz açmışdır. Məsələn, müəllif "Kolanlı abidələri" başlıqlı yazıda ərazidə olan qədim dəyirmanlardan, küp qəbirlərdən, bu yerlərin coğrafiyasına uyğun bəzəkli və yazılı daşlardan bəhs edir. Biz bu ada, Fərman Kərimzadənin "Qarlı aşırım" əsərində də rast gəlirik. Yaxud da Vedi mahalında, Dəvəgözü çayının kənarında yerləşən Bayburt kəndi. Geniş şəkildə təsvir edilən kəndin tarixi, xüsusiyyətləri, ərazi adları onun Azərbaycana məxsus olması haqqında sübutdur. Çünki heç bir erməni deyə bilməz ki, onlarda Aylı Quzey, Böyükdüz yaylağı, Ərikağacı, Kosamməd aşırımı, Böyük Ətli çuxur, Kiçik Ətli çuxur, Tərəkəməlik və digər adlar var. Bunlar hamısı qədim Azərbaycan adlarıdır. Hər birinin də yaranma tarixi və özünəməxsus xüsusiyyətləri var.

Digər müəllif, Əməkdar jurnalist Flora Xəlilzadə isə Zəngəzur mahalının yer adlarından söhbət açır. Qarakilsə və Şəki əraziləri haqqında geniş məlumat verir. Müəllif qeyd edir ki, Şəkidə hər dağın, dərənin, düzün, döngənin, cığırın, bulağın, çayın, qayanın, daşın belə öz adı var. Sərtib İslamoğlu isə Vedibasar mahalının yer adları haqqında maraqlı məlumatlar verir. Xalisa kəndində olan yer adları - Qədəm arxı, Xalisa arxı, Şiddi qobusu, Dəvəli qobusu, Şor qobu və digər maraqlı adlara geniş şəkildə aydınlıq gətirir.

Kitabı oxuduqca sanki uzun, maraqlı bir yola çıxır, bizim olan, lakin bizdə olmayan Qərbi Azərbaycan torpaqlarını addım-addım gəzirsən, doğma yerlərin qədim tarixinə ekskursiya edirsən. Təpədən-dırnağa kimi azərbaycançılığı özündə əks etdirən tarixi Azərbaycan ərazilərində dolanıb, dolaşıb gəlirsən. İrəvan xanlığından üzü ta Türkiyə sərhədlərinə kimi alınmaz qalaların başından boylanan azərbaycançılıq məfkurəsi ilə qarşılaşırsan. Dədə-babalarımızın min illər əvvəl ucaltdığı bu qalalar həm də millətin milli qürurunu, qəhrəmanlığını özündə təcəssüm etdirir.

**Ramidə YAQUBQIZI ,
"Respublika".**

# ...İRƏVANA GEDƏN YOL



**87 yaşlı İrəvan əsilli kübar xanım Rəna müəllimə ilə söhbətdən faydalanmaq fürsətini əldən vermək istəmədim. Odur ki, Rəna xanımla söhbətdə qeydlər etdim.**

Beləliklə, Rəna xanım atasından, anasından və böyük bacı-qardaşlarından eşitdiklərini və gördüklərini mənimlə bölüşməyə məmnuniyyətlə razılaşdı.

O, 6 avqust 1938-ci ildə İrəvanda dünyaya gəlib. İxtisasca müəllimə, özü də dil-ədəbiyyat müəlliməsi olduğuna görə fikirlərini rahat və səlis ifadə edə bilir. Deyir ki, atası Məmmədov Əli Oruc oğlu da 1884-cü ildə İrəvanda, anası Tərlan xanım da, babası Kərbəlayi Oruc da təxminən 1850-ci illərdə İrəvanda anadan olub. Bir sözlə, Rəna müəllimənin dediyinə görə onlar əsilli-köklü irəvanlılardırlar. Bəlkə də nəsil şəcərəsi elə İrəvan tarixiylə yaşıddır. Təxminən iki hektar torpaq sahəsinin içində yerləşən əzəli yaşayış yerləri, dədə-baba mülkləri İrəvanın düz ortasından keçən Gedərçayın qırağında yerləşdiyinə görə onların tayfasına "Gedərçaylılar" deyərmişlər. Onlardan əlavə həmin ərazidə, çay boyunca azərbaycanlılara məxsus daha bir neçə mülklər, torpaq sahələri olub. Həmsöhbətim deyir ki, buralar sırf azərbaycanlılar yaşayan məhəllələr idi. Orada XX əsrin əvvəllərinə qədər heç bir nəfər də olsun erməni yaşamayıb. İrəvan şəhərinin ətrafında azərbaycanlılara məxsus "Dəlmə", "Nərəkığ", "Dərə" və başqa bağ yerləri də vardı. Kifayət qədər bərəkətli torpaqlarda kənd təsərrüfatı məhsulları, tərəvəz, meyvə yetişdirərdik. Ata-babalarımız bu təsərrüfatlarda erməniləri işlədərdilər. Atamdan eşitmişəm ki, bizim bağlarda işləyən erməninin birinin adı Yeqor, digərinin adı isə Xaçatur olub. Yetişdirilən məhsulun satılması adətən Yeqora tapşırılardı. İndiki dillə desək babam, atam sahibkar olublar. Rəna müəllimə deyir ki, babamla nənəm evlənərkən atası nənəmə "Nərəkığ"dan cehiz olaraq bir bağ sahəsi pay veribmiş. Ona görə də atamgil təsərrüfatla məşğul olmaq, daha çox maddi gəlir əldə etmək üçün kifayət qədər geniş imkanlara malik olublar. Çox varlı-imkanlı həyat yaşamışıq. Amma ermənilərin durmadan İrəvana yerləşdirilməsi bizim orada, əzəli torpaqlarımızda inkişaf etmək, möhkəmlənmək imkanlarımızı məhdudlaşdırırdı. Ermənilər İrəvanda çoxaldıqca azğınlaşır, dünənədək qapımızda hambalçılıq edən, acından ölən gədələr artıq get-gedə baş qaldırmağa başlayır və ötən əsrin əvvəllərindən bizə qarşı təşkil olunmuş ayrı-ayrı silahlı qruplaşmalarda toplaşırdılar. Şəhərdə tez-tez xırda qarşıdurmalar baş verir, xəlvətə saldıqca azərbaycanlıları qətlə yetirirdilər.

Rəna müəllimə atasından eşitdiklərindən danışır ki, 1905-ci ildə yaşadıqları Gedərçay məhəlləsinə xəbər çatır ki, erməni yaraqlıları səhər azərbaycanlıların yaşadıqları evlərə basqın edəcəklər. Kişilər qocaları, qadınları, uşaqları daha etibarlı, pəncərələri dəmir barmaqlı, tikintisi tuf daş olan, ikimərtəbəli olduğuna görə bizim evə toplayaraq müqavimət göstərmək üçün pusqularda mövqelər tutublar. Səhər məhəllə həqiqətən də erməni silahlılarının basqınına məruz qalır. Boş qalmış evlərə ziyan vurur, talanlar edirlər. Nəhayət, insanların bizim evə toplaşdığını bilib bura soxulmağa, yandırmağa cəhd göstərirlər. Lakin müqavimətlə üzləşdikdən sonra evi güllələbaran edirlər. Hətta erməni silahlıları arasında ruslar da olub. Onlar rus dilində danışaraq guya xilaskar kimi gəldiklərini bildirir, qapını açmağı tələb edirmişlər. Bu zaman evin ikinci mərtəbəsinin pəncərəsindən boylanan 13-14 yaşlı əmim Rzanı tüfəng atəşiylə qətlə yetiriblər. Çox cəhdlərə baxmayaraq, evə daxil ola bilməyib çıxıb gediblər. Bir qədər sonra artıq evlərə qayıdan kişilər bu qətldən agah olur və "narahat olma, Rzanın qanını yerdə qoymarıq" deyə nənəmə təskinlik verirlər. Qeyd edim ki, o vaxt artıq babam yox idi. O, dünyasını atam hələ 3 yaşında olarkən, 1887-ci ildə dəyişmişdi. Qeyrətli kişilərimiz doğrudan da əmimin qisasını yerdə qoymayıblar. Səhəri gün bizə gələrək nənəmi bayıra çağırıb "oğlunun qanını aldıq" deyə təsəlli verəndə nənəm hönkürtüylə ağlayaraq, oğlunun ölümü qədər ermənilərin ölümünə heyifsilənmiş, göz yaşı tökübmüş.

Müəllimə eşitdiklərinə və gördüklərinə istinadən deyir ki, 1988-ci ildə başa çatan azərbaycanlıların öz torpaqlarından, ev-eşiklərindən zorla çıxarılma, deportasiya prosesi bizə qarşı ermənilər tərəfindən düz yüz il boyunca aparılan siyasətin sonluğu idi. Bütün bu müddət ərzində ermənilər İrəvana axın edib. Özü də haradan gətirildiklərini bilmirəm, hamısı cır-cındırın içində, ac-susuz olublar. Amma ayaqları yer tutduqca, çoxaldıqca baş qaldırıb, içlərində bizə qarşı kin-küdurət gəzdirib, məqam yetişdikcə pislik ediblər. Erməni o zaman yaxşı olub, yaxşılıq edib ki, o yaxşılığın arxasında daha pis əməl gizlənib.

1918-1919-cu illərdə bir gün əhali arasında xəbər yayılıb ki, artıq İrəvan ermənilərə verilib. Bu xəbər yerli azərbaycanlıları çox sarsıdıb və etirazlarına səbəb olub. Azərbaycanlılar artıq daha da azğınlaşmış, aşkar basqınlara, talanlara başlamış ermənilərə qarşı müqavimət dəstələri yaratmağa başlayıblar. O zaman atamın 24-25 yaşı varmış. O da dərhal bir çoxları kimi, bu müqavimət dəstələrinə qoşulub. Eşitdiyimə görə onlar köməyə gəlmiş türk ordusunun tərkibində İrəvan yaxınlığındakı Qəmərli qəsəbəsində erməni quldur dəstələrinə qarşı vuruşub. (Güman edirəm ki, bu müqavimət dəstələri həmin dövrdə yaradılmış və cəmi 6 ay mövcud olmuş Araz Türk Cümhuriyyətinin ordusuna aid olub - red.). Atam bir müddətdən sonra evə qayıdarkən fürsətcil ermənilərin evə soxulduğunu, ailə üzvlərimizin isə evdən çıxarılaraq tövləyə yerləşdiyini görüb. O, dərhal erməniləri evdən çıxarıb qovaraq ailə üzvlərini öz evinə qaytarıb.

Elə həmin vaxtlardan şəhər günbəgün erməniləşdirilir, insanlar arasındakı münasibətlər, şəhərdəki ab-hava, etnik balans ermənilərin xeyrinə dəyişir, inzibati orqan, idarə, təşkilatlarda azərbaycanlılara qarşı süni, bürokratik əngəllər yaradılır, soyuq müharibə aparılırdı. Bütün bunlar heç şübhəsiz, Sovet hökumətinin himayəsi altında baş verirdi. Şəhərdə azərbaycanlı izləri çox sürətlə silinirdi.

Rəna müəllimə ata-anasından eşitdiyinə görə deyir ki, 1938-ci ildə İrəvanda (o zaman bu proses bütün Azərbaycanda aparılıb) azərbaycanlı əhalidən bütün pasportlar səbəb deyilmədən hökumət tərəfindən yığıldı. Qısa müddət sonra geri qaytarılanda gördük ki, pasportlar dəyişdirilərək indiyədək milliyyəti "türk" yazılan qrafada "azərbaycanlı" yazılıb. Bundan sonra hər yerdə və daim bizə türklüyümüzü unutdurmağa çalışıblar.

Rəna xanım daha bir tarixi fakt barədə belə deyir: 1948-ci ilin yazında Gedərçay daşıb azərbaycanlılar yaşayan bir neçə evi sel basmışdı. Bu zaman artıq onun 10 yaşı vardı və bu hadisələrin canlı şahidi olub. Hökumət çayın daşmasını əldə əsas tutaraq çayboyu yaşayan azərbycanlıların hamısını bütövlükdə guya təhlükəsizlik məqsədilə evlərdən çıxarıb başqa, xeyli uzaqda yerləşən, çox aşağı səviyyəli yaşayış şəraiti olan evlərdə yerləşdirdi. Biz də şəhərin "Moskva" kinoteatrı yaxınlığında yerləşən şəhər evimizə köçdük. "Çayın daşması həqiqətənmi fəsadlar yaratmış, evlərə, insanlara çox böyük ziyan vurmuşdu" sualıma o bildirdi ki, "Xeyr. Bu adi yaz vaxtlarında çayda su bir az artıq olmuş, yaxın sahillərə çıxmışdı. Daşqın nəticəsində heç bir ciddi ziyanlıq da törədilməmişdi". (Qeyd edim ki, azərbaycanlılara məxsus Gedərçay sahilindəki evlər onların bağ evləri sayılırdı). Müəyyən qısa vaxtdan sonra bir də xəbərimiz oldu ki, həmin evlərimizə kənardan gətirilmiş erməniləri köçürüblər. Bu, azərbaycanlıların 1948-ci il deportasiya vaxtilə üst-üstə düşdüyünə görə yerləşdirilmiş erməniləri öz evlərimizdən çıxararaq evləri geri qaytarmaq heç də hamıya müyəssər olmadı.

**HÜSEYN-XƏZƏR,
AJB-nin üzvü.**




## VİKTOR ORBAN Aİ RƏHBƏRLİYİNİ SİYASİ ŞANTAJDA İTTİHAM EDİB



Macarıstanın baş naziri Viktor Orban Avropa İttifaqı (Aİ) rəhbərliyini siyasi şantajda ittiham edib. Baş nazirin sözlərinə görə, Aİ-nin siyasi rəhbərliyi bütün əsas layihələri iflasa uğratdığı üçün istefaya getməlidir. Bu barədə "Trend" agentliyi məlumat yayıb.

Verilən xəbərə görə, Macarıstanın baş naziri Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayenin rəsmi Budapeştin miqrasiya və antigender siyasəti ucbatından Aİ fondlarından pul almayacağını açıq şəkildə bəyan etməsinə məhz belə cavab verib.

Viktor Orban qeyd edib ki, hazırda Avropa İttifaqının yaşıl keçid, davamlılıq siyasəti, miqrasiya, sanksiyalar və hərbi siyasət kimi özlərinin seçdiyi əsas layihələri olan liderləri var və bunların hamısı uğursuzluğa düçar olub.

Macarıstanın baş nazirinin fikrincə, ittifaqa yeni liderlər lazımdır. Siyasətçi əlavə edib ki, Brüssel qanunun aliliyi və şərtlər mexanizmindən siyasi şantaj aləti kimi istifadə edir.

## ABŞ-dan İRANA QARŞI MÜDDƏTSİZ SANKSİYALAR



ABŞ Konqresinin Nümayəndələr Palatası prezidentə qeyri-müəyyən müddətə İran iqtisadiyyatına qarşı sərt sanksiyalar tətbiq etməyə imkan verən qanun layihəsini təsdiqləyib. "TASS" agentliyinin xəbərinə görə, qanun layihəsinin lehinə 407 qanunverici, əleyhinə isə 16-sı səs verib.

Bildirilir ki, 2023-cü ilin may ayında təklif edilən qanunvericilik 2026-cı ildə başa çatacaq və 1996-cı il İran Sanksiya Aktını daimi edəcək.

Məlumata əsasən, Konqres tərəfindən davamlı olaraq yenilənməli olan akt, ABŞ icra hakimiyyətinə nüvə silahı hazırlamaq səylərini dayandırmaq üçün xüsusilə İranın enerji sektoruna sanksiyalar tətbiq etməyə icazə verir.

Verilən xəbərə görə, zaman keçdikcə ABŞ prezidentinin səlahiyyətləri genişləndirilib və İran sənayesinin digər sahələrinə məhdudiyyətlər tətbiq etməyə imkan yaradıb. Konqresin qanunun müddətini əhəmiyyətli dərəcədə uzatmaq cəhdləri əvvəllər də irəli sürülüb, lakin qanunverici orqanın hər iki palatasından keçə bilməyib.

## RUSİYANIN DONDURULMUŞ AKTİVLƏRİ İLƏ BAĞLI QƏTNAMƏ QƏBUL EDİLİB



Avropa Şurasının Parlament Assambleyası yekdilliklə Rusiyanın 300 milyard dollarlıq dondurulmuş aktivlərinin Ukraynanın bərpasına yönəldilməsi barədə qətnamə qəbul edib. "Unian" informasiya agentliyinin məlumatına görə, sənəd həmçinin Ukraynadakı müharibəni dəstəkləyən rusiyalı iş adamlarının avroməkan ölkələrindəki bank hesablarına da şamil edilir.

Xəbər verilir ki, qətnamədə prosesin sürətləndirilməsi üçün Avropa İttifaqının başçılığı ilə beynəlxalq təzminat mexanizminin, habelə Rusiyaya məxsus aktivlərin toplanması üçün xüsusi fondun yaradılması, habelə sanksiyaları pozan ölkələrə qarşı müxtəlif tədbirlərin görülməsi də nəzərdə tutulur.

Qeyd edək ki, tətbiq edilən sanksiyalara baxmayaraq, il ərzində bir sıra iş adamları külli miqdarda gəlir əldə edib. Belə ki, bəzi ölkələrin məhdudiyyətləri pozması səbəbindən "Nornikel" şirkətinin sahibi Aleksey Mordaşov sərvətini 4,6 milyard dollar artırıb.

## DÜNYA İQTİSADİYYATINI DAYANIQLI İNKİŞAF TEMPİ GÖZLƏYİR



Dünya iqtisadiyyatını növbəti bir il ərzində yavaş, lakin dayanıqlı inkişaf tempi gözləyir. "TRT" telekanalının verdiyi xəbərə görə, bu barədə Beynəlxalq Valyuta Fondunun (BVF) məlumatında deyilir.

Məlumata görə, BVF 2024-cü və 2025-ci illərdə qlobal ÜDM-in 3,2 faiz artacağını proqnozlaşdırır ki, bu rəqəm 2023-cü ilin göstəricilərinə yaxındır.

"Qlobal iqtisadiyyatın kifayət qədər sabit qaldığına inanırıq", - deyə BVF-nin baş iqtisadçısı Pyer Olivye Qurinşa jurnalistlərə açıqlamasında bildirib. O, həmçinin bir çox ölkələrin mərkəzi banklarının inflyasiya ilə mübarizə aparmaq üçün faiz dərəcələrini artırmasını tənəzzülün bədbin proqnozlarına meydan oxuduğunu qeyd edib.

Eyni zamanda, Beynəlxalq Valyuta Fondunun hesabatında bildirilir ki, bir çox ölkələr pandemiyadan əvvəlki istehsal səviyyəsinə, əvvəllər proqnozlaşdırıldığından daha sürətlə qayıdırlar.

Açıqlamaya əsasən, hazırda inflyasiya səviyyəsi aşağı düşüb, lakin son aylarda mərkəzi bankların öz hədəflərinə geri qayıtması prosesi nisbətən yavaşlayıb.

## İSRAİL İRANIN HÜCUMUNA NECƏ CAVAB VERƏCƏYİNİ MÜƏYYƏNLƏŞDİRİB



İsrail ordusu İranın son hücumlarına hansı cavab tədbirinin seçiləcəyi ilə bağlı qərar verib. Bu barədə "The Jerusalem Post" qəzeti öz mənbələrinə istinadən xəbər verib.

Bununla yanaşı, nəşr bildirib ki, İsrail hökuməti, eləcə də hərbi kabineti İrana və onun müttəfiqlərinə necə cavab verəcəyinə dair qərar qəbul edib, lakin bunun vaxtı hələ dəqiq məlum deyil. Həmçinin qeyd olunur ki, qisas forması ilə bağlı hazırkı qərar və vaxt da dəyişə bilər.

Eyni zamanda, İsrail Müdafiə Qüvvələrinin Baş Qərargah rəisi Herzi Halevinin aprelin 22-30-u arasında qeyd olunacaq bayram boyunca vətəndaşların normal həyatlarını təmin edəcəklərinə dair açıqlaması qisas vaxtının çox yaxında olmaması kimi şərh edilir.

Məqalədə həmçinin İsrailin cavab tədbirlərinin necə olacağı ilə bağlı təfərrüatlar yer almayıb. Bildirilir ki, İsrail ordusu aprelin 15-də qisasla bağlı Hərbi Nazirlər Kabinetinə bir çox variant təqdim edib. Bunların arasında raket və ya hava hücumundan çox İrana "miqyaslı hücum" deyilən kiberhücum variantı önə çıxır.

## JOZEP BORREL Aİ-nin BU SİYASƏTİNİ UĞURSUZ ADLANDIRIB



Avropa İttifaqının Ukrayna və Qəzza zolağındakı münaqişələrə kökündən fərqli reaksiyası Aİ-yə ərəb ölkələri, Afrika və qeyri-Qərb dünyasının digər regionları ilə münasibətlərində "baha başa gəlib". "Sputnik" informasiya agentliyinin xəbərinə görə, bunu Avropa diplomatiyasının rəhbəri Josep Borrel bəyan edib.

Baş diplomat Ukrayna məsələsində Avropanın Aİ ölkələri arasında birlik olduğu üçün qətiyyətlə hərəkət etdiyini bildirib. Eyni zamanda, o vurğulayıb ki, on minlərlə insanın həlak olduğu Qəzzadakı vəziyyətdə Aİ İsraillə yaxın münasibətlərə baxmayaraq, döyüşləri dayandıra və girovların azad edilməsinə şərait yarada bilməyib.

Jozep Borrel əmindir ki, Avropa İttifaqı gələcəkdə "dünyanın qalan hissəsinin Qərbə qarşı" möhkəmlənməsinin qarşısını almaq üçün hər şeyi etməlidir.

Xatırladaq ki, bir müddət öncə Josep Borrel etiraf etmişdi ki, Aİ Ukraynanı ukraynalılara məhəbbətinə görə deyil, öz maraqlarına və ABŞ-ın maraqlarına görə dəstəkləyir.

## DONALD TRAMP SEÇKİÖNCƏSİ SORĞUDA COZEF BAYDENƏ UDUZUR



ABŞ prezidenti postu uğrunda növbəti dəfə mübarizə aparan sabiq dövlət başçısı Donald Tramp amerikalı seçicilərin dəstəyi baxımından ölkənin hazırkı prezidenti Cozef Baydenə uduzur. "Report" agentliyinin xəbərinə görə, bunu "Echelon Insights" tədqiqat təşkilatının keçirdiyi sorğunun nəticələri göstərir.

Məlumata görə, seçicilərə "2024-cü ilin prezident seçkiləri bu gün keçirilsəydi, kimə səs verərdiniz?" sualı ünvanlanıb, namizədlər isə Demokratlar Partiyasından Cozef Bayden, Respublikaçılar Partiyasından Donald Tramp olub. Respondentlərin 49 faizi Baydeni, 46 faizi isə Trampı dəstəkləyəcəyini bildirib.

Açıqlamaya əsasən, tədqiqatın nəticələrinin statistik xətası 3,9 faiz bəndi təşkil edib və sorğu 12-14 aprel tarixlərində aparılıb. Sorğuda bu il ABŞ-da keçiriləcək prezident seçkilərində səs vermək niyyətində olan 1,2 min nəfər iştirak edib.

Xatırladaq ki, ABŞ-da prezident seçkiləri noyabrın 5-də keçiriləcək.

**Hazırladı:
Vamiq ABBASOV,
"Respublika".**




## Tovuz istiqamətində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərən kvadrokopter zərərsizləşdirilib

**Azərbaycan Ordusunun Tovuz rayonunun Ağdam yaşayış məntəqəsi istiqamətindəki mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərən kvadrokopter**



**bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunub və zərərsizləşdirilərək müsadirə edilib.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. ■

## Gəncə Dövlət Universiteti
## 2024-cü il üçün doktoranturaya və dissertanturaya fəlsəfə doktoru proqramları üzrə qəbul elan edir

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | Elmlər doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** |
| | | | əyani | qiyabi | | | əyani | qiyabi | |
| | **Gəncə Dövlət Universiteti** | | | | | | | | |
| 1202.01 | Analiz və funksional analiz | 1 | 1 | | | | | | |
| 2220.01 | Yarımkeçiricilər fizikası | 1 | 1 | | | | | | |
| 2303.01 | Qeyri-üzvi kimya | | | | 1 | | | | |
| 2306.01 | Üzvi kimya | 1 | 1 | | | | | | |
| 2401.01 | Zoologiya | | | | 1 | | | | |
| 2417.01 | Botanika | 1 | | 1 | | | | | |
| 2426.01 | Ekologiya | 1 | 1 | | | | | | |
| 5308.01 | Ümumi iqtisadiyyat | 2 | 1 | 1 | | | | | |
| 5408.01 | Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası | | | | 1 | | | | |
| 5502.01 | Ümumi tarix | | | | 1 | | | | |
| 5503.02 | Vətən tarixi | 1 | 1 | | 1 | | | | |
| 5704.01 | Dil nəzəriyyəsi | 1 | 1 | | | | | | |
| 5706.01 | Azərbaycan dili | 1 | 1 | | 1 | | | | |
| 5714.01 | Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik | 1 | 1 | | | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1 | | | | | |
| 5718.01 | Dünya ədəbiyyatı | 1 | | 1 | | | | | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası | 1 | | 1 | | | | | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 2 | 1 | 1 | | | | | |
| 6107.01 | Ümumi psixologiya | 1 | | 1 | | | | | |
| | **Cəmi:** | 17 | 10 | 7 | 6 | | | | |

Qəbul qaydaları haqqında məlumatı GDU-nun doktorantura və dissertantura şöbəsindən almaq olar. Əlavə olaraq bildirilir ki, doktoranturaya sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada "Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər. Portal.edu.az vasitəsilə müraciətlərin göndərilməsi cari il 16 aprel tarixindən başlayaçaqdır. Fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya sənəd qəbulunun son tarixi 15 may 2024-cü ildir (fəlsəfə fənni üzrə imtahan 2024-cü il sentyabrın 2, 3, 4-də, ixtisas imtahanı isə 2024-cü il sentyabrın 9, 10 və 11-də keçiriləcəkdir).

**Ünvan:** *AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti 429.*
**Tel:** *(+99222) 266-01-88 Elm və innovasiyalar üzrə prorektorluq.*

# MARAQ dünyamız

## Müasir, yoxsa klassik musiqi?

**Bəzi insanlar müasir musiqinin çox sadə və bayağı olduğunu düşünür. Ona görə də XX əsrin ikinci yarısına aid olan mahnılara qulaq asmağa üstünlük verirlər. Amerikalı elm adamları bu mövzuda araşdırmalar apararaq son 50 ildə bəstələnmiş ingilis mahnılarını nəzərdən keçiriblər. Məlum olub ki, klassik musiqi müasir musiqidən qat-qat zövqlüdür.**

Elmi araşdırma çərçivəsində alimlər ingilis dilində olan 350 min mahnını təhlil ediblər. Onların arasında ən çox diqqət çəkənlər isə 1970-2020-ci illər arasında bəstələnmiş mahnılar olub. Qeyd edək ki, alimlər "pop", "rock", "rap" və "country" kimi musiqi janrlarını araşdırıblar. Tədqiqatın nəticələri göstərib ki, son 50 ildə bəstələnən populyar mahnıları başa düşmək daha asandır. Xüsusən də lirikada məna, söz ehtiyatı və qafiyələr çox azdır. Müasir musiqilər isə söz yığınından ibarətdir və ifadələr dəfələrlə təkrarlanır. Bəzən bu mahnılar eyni misralardan və ya xordan ibarət olur. Araşdırmanın nəticələrinə görə, son əlli ildə mahnıların əhvali-ruhiyyəsi də dəyişib. Yəni əvvəlki mahnılar sevincdən kədərə qədər müxtəlif duyğuları ifadə edirdisə, bu gün daha çox qəzəb və kinlə doludur. Bir çox musiqilərdə "mən", "mənim" kimi ifadələrdən istifadə olunur.



## Gülün ki, yaddaşınız möhkəm olsun

**Gülüşün insan orqanizminə faydası çoxdan məlumdur. Bununla belə, onun davamlı olaraq yeni-yeni müsbət təsirləri müşahidə edilir. Bu yaxınlarda amerikalı elm adamları müəyyən ediblər ki, gülüş həm də yaddaşı möhkəmləndirir.**

Alimlərin qənaətinə əsasən, gülüş beynin yaddaşla əlaqəli funksiyalarını möhkəmləndirərək unutqanlığın qarşısını alır. Hətta kəskin respirator virus infeksiyası, qrip və digər xəstəliklərin profilaktikasında da onun faydalı olduğu sübuta yetirilib. Bunun səbəbi gülüşün təsiri ilə əmələ gələn anticisimlərin müxtəlif bakteriya və viruslara "hücum" edərək onların çoxalmasına, orqanizmin xəstələnməsinə imkan verməməsi ilə əlaqədardır.



Tədqiqatçıların fikrincə, əla antidepressant olan gülüş zamanı yaranan endorfin hormonu stresin orqanizmə təsirinin qarşısını alır, ağrıları yüngülləşdirir. Bundan əlavə, o, həm də əqli və fiziki əməyin, məşqlərin səmərəsinin artırılmasına şərait yaradır. Gülüş həmçinin sosial həyata da müsbət təsir edir. Belə ki, ətrafdakılar şən adamla daha həvəslə dostluq edir və ünsiyyət qururlar.

## Ən qədim insanlar onlar imiş

**İsveçrəli aimlər DNT-ni deşifrə edərək, planetin ən qədim insanlarını müəyyənləşdiriblər. İndiyə qədər qədim insanların Afrikadan gəldiyi güman ediliirdi, lakin elm adamları araşdırma apararaq insanların təkamül ağacında ilk olaraq hansının olduğunu dəqiqləşdiriblər.**

İsveçin Uppsala Universitetinin alimləri tədqiqatı iki mərhələdə aparıblar. Birincidə onlar yerli afrikalılardan bir neçə min DNT nümunəsi toplayıblar. Onların arasından ən "təmiz" olanlarını seçiblər. Məlum olub ki, Afrikada təkamül ağacının əsasında buşmenlər durur. "Meşə insanları", "Meşə adamı" mənasını verən bu xalqın dili Xoisan dilidir.



Buşmenlərin heç vaxt yazılı dilləri olmayıb. Onlar tərəfindən əfsanələr, nağıllar və mahnılar şifahi şəkildə ötürülüb. Buşmenlərin inanclarına gəlincə, burada əsas rolu şəfaçı-şamanlar oynayır. Onlar inanırlar ki, xəstəliklər əcdadların ruhlarından qaynaqlanır. "Yer üzünün ilk insanları" statusunu almalarına baxmayaraq, buşmenlərin bu faktla fəxr etdiyini söyləmək olmaz. Çünki onlar ümumiyyətlə söhbətin nədən getdiyini bilmir.

## Sən demə, ölənə yaxın...

**Los-Angeles hospitalının mütəxəssisləri və axirətə dair bir çox araşdırmalar aparan tədqiqatçı Mak Fadden insanların ölməzdən əvvəl nə gördükləri ilə bağlı mühüm müşahidələrini paylaşıblar. Onların fikrincə, demək olar, bütün insanlar ölməzdən təxminən bir ay əvvəl təsəlliverici yuxular görürlər.**

Mak Fadden deyir ki, "rahatlıq" gətirən görüntülər adətən ölümdən təxminən bir ay əvvəl baş verir. Alimin sözlərinə görə, insanların çoxu həyatlarının son mərhələsində dünyasını dəyişən yaxınlarını görməyə başlayır.

"Bu hal qeyri-adi deyil. Bu təcrübəni yaşayan insanların çoxu tam şüurlu olaraq qalır və halüsinasiyalardan əziyyət çəkmir", - deyə alim izah edib. Onun sözlərinə görə, ölmək üzrə olan insan yuxularında öz qohumlarını, yaxın dostlarını və hətta son anlarında onlara təsəlli vermək, yaxud dəstək olmaq üçün gələn ev heyvanlarını da görür. M.Fadden həmçinin qeyd edib ki, halüsinasiyalar və ya xəyalların nəticəsi olmayan bu görüntülər ölənə yaxın insanlara rahatlıq gətirir.



**Hazırladı:**
**Elenora HƏSƏNOVA,**
**"Respublika".**

## Əlahiddə Ümumqoşun Ordunun Hərbi Hava Qüvvələrində taktiki-xüsusi təlim keçirilib





**Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) Hərbi Hava Qüvvələrində taktiki-xüsusi təlim keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, təlimdə yuxarı komandanlığın idarəetmə məntəqəsindən verilən "HAZIRLIQ-1" komandası ilə Ordu aviasiyası və hava hücumundan müdafiə birləşmə və hissələri 1 nömrəli hazırlığa gətirilib. Eyni zamanda, ehtiyatda saxlanılan Hava Hücumundan Müdafiə (HHM) bölmələri döyüş tapşırığına əsasən təyinat rayonlarına çıxaraq döyüş tapşırıqlarını icra ediblər.

2 nömrəli hazırlıqda olan aviasiya vasitələrinin heyətləri ilə uçuşdan əvvəl brifinq keçirilərək şəxsi heyət qarşısında döyüş tapşırıqları qoyulub. Uçuş heyətləri tərəfindən Mİ-17 nəqliyyat-döyüş helikopterləri ilə yer hədəflərinə aviazərbələr praktiki uçuşla təqlid edilib, çoxqat və çoxhədli hava hücumundan müdafiə sisteminin dəf edilməsi üçün müxtəlif manevrlər yerinə yetirilib.

Təlimə cəlb olunan Hərbi Hava Qüvvələri bölmələrinin döyüş növbətçiliyində olan Kəşfiyyat və Hədəfgöstərmə stansiyaları ilə hava məkanının fasiləsiz kəşfiyyatı aparılıb, məlumatlar təhlil olunub, qiymətləndirilib, emal edilərək komanda və idarəetmə məntəqələrinə, həmçinin qarşılıqlı əlaqədə olan bölmələrə ötürülüb.

Hava vəziyyətinin qiymətləndirilməsi Radiolokasiya bölmələri ilə yanaşı, Bayraktar TB2 və Vizual Müşahidə postlarından alınmış məlumatlar əsasında aparılıb.

Komandir və döyüş heyətləri real döyüş şəraitində hədəflərin ardıcıl olaraq məhvetmə zonasına girmə ardıcıllığının, onlar arasında vaxt intervallarının hesablanması, müxtəlif hündürlük diapazonlarında intensiv aktiv və passiv maneə şəraitində fəaliyyət göstərən hava düşməninin şərti məhv edilməsi, düşmənin kiçikölçülü az sürətli PUA-lara qarşı Hərbi Hava Qüvvələri bölmələrinin fəaliyyəti üsulları üzrə məşq etdirilib.

Eyni zamanda, birlik, birləşmə, hissə və bölmələrin dislokasiya məntəqələri və döyüş mövqelərinin mini və mikro pilotsuz uçuş aparatlarının hücumlarından mühafizəsi məqsədilə yerinə yetirilən aktiv tədbirlər çərçivəsində radiomaneə vasitələrindən istifadə edilib.

Taktiki-xüsusi təlimdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib və bölmələr arasında birgə fəaliyyətin uzlaşmasına nail olunub. ■

Azərbaycan Universitetinin Biznesin idarə edilməsi fakültəsinin 3-cü kurs tələbəsi Uğuzova Nurtac Pərviz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər müdirinin müavini Elçin Rəhimova, qudası**
**HADI RƏCƏBLİNİN**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Bakı Dövlət Universitetinin Həmkarlar İttifaqı Komitəsi Beynəlxalq Münasibətlər və İqtisadiyyat fakültəsinin dosenti, tarix elmləri namizədi**
**İSGƏNDƏR HƏSƏN oğlu QULİYEVİN**
**vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**

Baş redaktor
Hümbət MUSAYEV

Redaksiya ilə əlaqə nömrələri

| | |
|---|---|
| Qəbul otağı | 493-59-08 |
| Katiblik | 538-43-41 |
| Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası | 538-55-20 |
| Rəqəmsal inkişaf, iqtisadiyyat və islahatlar redaksiyası | 434-56-90 |
| Humanitar siyasət redaksiyası | 538-25-70 |
| Xəbərlər, ictimai rəy və sosial problemlər redaksiyası | 538-01-31 |
| Texniki şöbə | 538-61-02 |
| Ümumi şöbə | 510-82-52 |
| Reklam və elan xidməti | 441-20-23 |

Redaksiyanın ünvanı

AZ1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
www.respublika-news.az
respublikaqezeti@mail.ru, resp.paper@gmail.com

Qeydiyyat №7 İndeks 0240 Tiraj: 4213

*"Respublika" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.*

Qəzetin saytına keçid üçün QR kodu telefonunuzla oxudun

Sifariş 830, Satış qiyməti 60 qəpik